ƏHLİ SÜNNƏ VƏL CƏMAAT

**SƏLƏFİ SALİHİN ƏQİDƏSİ**

# YEMƏK VƏ İÇMƏKDƏ
# HALAL VƏ HARAM

TOPLAYAN VƏ TƏRTİB EDƏN
K.HÜSEYN

KİTABIN BÜTÜN HAQLARI QORUNUR

بسم الله الرحمن الرحيم

إنَّ الحَمْدَ لله ، نَحْمَدُهُ وَنَسْتَعِينُهُ وَنَسْتَغْفِرُهُ، وَنَعُوذُ باللهِ مِنْ شُرُورِ أنفُسنا ، وَمِنْ سَيِّئاتِ أعمالنا ، مَنْ يَهده اللهُ فلا مُضِلَّ لَهُ ، ومَن يُضلل فلاَ هَادِيَ لَهُ ، وَأشهدُ أنْ لاَ إله إلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ ، وَأَشْهَدُ أَنَّ مُحَمَّداً عَبْدُهُ وَرَسُولُهُ .

﴿ يا أَيُّها الَّذِينَ آمَنُوا اتَّقُوا اللهَ حَقَّ تُقاتِهِ وَلاَ تَمُوتُنَّ إلاَّ وأنتُم مُسْلِمُونَ ﴾ سورة آل عمران : الآية ، ١٠٢ .

﴿ يا أَيُّها النَّاسُ اتَّقُوا رَبَّكُمُ الَّذي خَلَقَكُم مِّن نَفْسٍ وَاحِدَةٍ وَخَلَقَ مِنْهَا زَوجَهَا وَبَثَّ مِنهُمَا رِجَالاً كَثِيراً وَنِسَاءً واتَّقُوا اللهَ الَّذي تَسَاءَلُونَ بِهِ وَالأَرْحامَ إنَّ اللهَ كَانَ عَلَيكُم رَقِيباً ﴾ سورة النساء : الآية ، ١ .

﴿ يَا أَيُّها الَّذِينَ آمَنُوا اتَّقُوا اللهَ وَقُولُوا قَولاً سَدِيداً ، يُصلِحْ لَكُمْ أعْمالَكُمْ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُم وَمَن يُطعِ اللهَ وَرَسُولَهُ فَقَدْ فَازَ فَوزاً عَظِيماً ﴾ سورة الأحزاب : الآية ، ٧١ .

أما بعد : فإنَّ أَصْدَقَ الحديث كلامُ الله ، وخَيرَ الهَدي هَدي مُحَمَّد – صلَّىٰ اللهُ عليه وعلىٰ آله وسلَّم – وشرَّ الأُمُور مُحْدَثَاتُها وكلَّ مُحْدَثَةٍ بِدْعَةٌ ، وكلَّ بدعةٍ ضلالةٌ ، وكلَّ ضلالةٍ في النَّار(*) .

(*) هذه الخطبة ؛ تسمَّىٰ : « خطبة الحاجة » وهي تُشرع بين يدي كلّ حاجة ، والتي كان رسول الله ﷺ يعلِّمها أصحابه ؛ أن يقولوها بين يدي كلامهم ، في أمور دينهم سواء كان ؛ خطبة نكاح ، أو جمعة أو محاضرة ، أو غير ذلك ، وهي في : « سنن ابن ماجه » و « سنن الترمذي » و « سنن أبي داود » و « سنن النسائي » ، وورد ذكر طرف من هذه الخطبة في : « صحيح مسلم » .

# ÖN SÖZ

## *XUTBƏTUL-HACƏ*

Həmd ancaq Allahadır, Ona həmd edir, Ondan yardım və məğfirət diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən Allaha sığınırıq. Allah kimi hidayətə yönəltmişsə, onu heç kəs azdıra bilməz, kimi də azdırmışsa, heç kəs onu hidayətə yönəldə bilməz. Mən şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur, O, təkdir, şəriki də yoxdur və şəhadət edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

***"Ey iman gətirənlər! Allahdan lazımınca qorxun. Yalnız müsəlman olduğunuz halda ölün".*** (Ali İmran 102).

***"Ey insanlar! Sizi tək bir şəxsdən*** *(Adəmdən)* ***xəlq edən, ondan zövcəsini*** *(Həvvanı)* ***yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun.*** *(Adı ilə)* ***Bir-birinizdən*** *(cürbəcür şeylər)* ***istədiyiniz Allahdan, həmçinin qohumluq əlaqələrini kəsməkdən qorxun. Şübhəsiz ki, Allah sizin üzərinizdə nəzarətçidir".*** (ən-Nisa 1).

***"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin!*** *(Əgər belə etsəniz)* ***Allah əməllərinizi islah edər və günahlarınızı bağışlayar. Hər kəs Allaha və Peyğəmbərinə itaət etsə, böyük bir səadətə*** *(Cənnətə)* ***nail olar".*** (əl-Əhzab 70-71)[1].

Şübhəsiz ki, sözlərin ən doğrusu Allahın kəlamı, yolların ən xeyirlisi Muhəmməd – *sallallahu aleyhi və səlləm* – in yoludur. Əməllərin ən pisi sonradan uydurulanlardır. Sonradan uydurulub dinə salınan hər bir əməl (iş) bir bidət, hər bir bidət isə zəlalətdir (sapıqlıqdır), hər bir (sapıqlıq) isə

---

[1] ***Xutbətul-Hacə*** - adı ilə məşhur olan bu duanı, cümə və s. Xütbələrdə Peyğəmbər oxumuşdu. Səhabələrinə də bunu əmr etmiş və özü də onları öyrətmişdir. Hədisin ilk hissəsini bizə: Əhməd 1/392,293,432, Əbu Davud 2188, Tirmizi 1105, Nəsəi 3/104,105, 6/69, və "Əməlil Yəum vəl Leyl" 488, İbn Məcə 1892, Darimi 2202, Tayalisi "Musnəd" 1557, AbdurRazzaq "Musənnəf" 10449, Bəzzar "Musnəd" – "Kəşful Əstar 1/314, Əbu Yəla "Musnəd" 5233,5234,5257, Tahavi "Şərhul Muşkilil Asar" 1-3, Təbərani "Məmuul Kəbir" 10/10079, Həkim "Mustədrək" 2744, Beyhəqi "Sunnənul Kubra" 3/214,215, Bəğavi "Şərhus Sunnə" 2268 İbn Məsud – *radıyallahu anhu* - yolu ilə, Muslim "Şərhu Nəvəvi" 6/156-158, Əhməd 1/302,350, Nəsəi 6/89,90, İbn Məcə 1893 və Tahavi "Şərhul Muşkilil Asar" 4 – İbn Abbas – *radıyallahu anhu* - yolu ilə, Təhavi "Şərhul Muşkilil Asar" 5, Beyhəqi "Sunnənul Kubra" 3/215 – Nubeyt b. Şərit – *radıyallahu anhu* - yolu ilə, Əbu Yəla "Musnəd" 7221, Nəsəi "Sunnənul Kubra" bax: "Tuhfetul Əşraf" 6/472 H. 9148 – Əbu Musa əl-Əşari yolu ilə.

oddadır[2].

***"Ey Rəbbim! Köksümü açıb genişlət, işimi yüngülləşdir, dilimdəki düyünü aç ki, sözümü yaxşı anlasınlar".*** (Ta ha 25-28).

Möhtərəm müsəlman bacı və qardaşlarım! İlk öncə hamınızı Allahın salamı ilə salamlayıram. Allahın Kitabı Rəsulullah in yoluna uyaraq öz risaləmi "***Bismilləh***" ilə başlayıram. Çünki Allah Rəsulu – *sallallahu aleyhi və səlləm* – də öz məktublarını "***Bismilləh***" ilə başlamış və buyurmuşdu: "Hər mühüm bir işə "***Bismilləh***" ilə başlanılmazsa o, işin sonu kəsikdir"[3].

Allahdan qorxmayan kimsələr pulu necə qazandıqlarına və hara xərclədiklərinə fikir vermirlər. Onlar bütün arzu və istəkləri yalnız var-dövlətlərini nə yolla olursa-olsun artırmaqdır. Oğurluq, rüşvət, saxta sənəd düzəltmək, haram şeyləri satmaq, sələmçilik, yetim malını yemək, musiqi, falçılıq, fahiş işlər, başqalarının pulunu mənimsəmək, ehtiyacı olmadığı halda dilənmək və s. Sonradan bu pulları yeyib-içir, geyinib-keçinir və s. işlərə sərf edirlər. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Haramla bəslənən hər bir bədən ancaq Cəhənnəm oduna layiqdir". Təbərani "Kəbir" 19/136, əl-Albani "Səhihul Cəmi" 4495. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "İnsanların üzərinə elə bir vaxt (zaman) gələcək ki, artıq insanı qazancının halal və ya haram yolla olması maraqlandırmayacaq". Buxari 2059. ***"(O Peyğəmbər) onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz (pak) nemətləri halal, murdar (napak) şeyləri haram edər...".*** (əl-Əraf 157).

---

[2] ***Hədisin Ikinci Hissəsini –*** Muslim "Şərhu Nəvəvi" 6/153-156, Əhməd 3/319, 371, Nəsəi 3/188,189, Beyhəqi "Sunnənul Kubra" 3/214, - Cabir b. Abdullah – *radıyallahu anhu* - yolu ilə. Bu ləfz Nəsainin ləfsizid. Hədisi Əhməd 3/371 və Muslim "Sözlərin ən doğrusu" ləfzi yerinə: "Sözlərin ən xeyirlisi" ləfsiylə rəvayət etmişdir. İmam Əhmədin digər rəvayətlərində 3/319 – "Sözlərin ən gözəli" şəkilindədir. Müslim: "Sonradan uydurulub dinə salınan hər bir əməl (iş) bidətdir"ləfsi yerinə: "Hər bir bidət bir zəlalətdir (sapıqlıqdır)" ləfsiylə rəvayət edilmişdir. Bu beş səhabədən başqa hədisi: Aişə – *rahmətullahi aleyhi* - , Səhl b. Sad – *rahmətullahi aleyhi* - mərfu olaraq. Hədis səhihdir. Muhəddis Muhəmməd Nəsrəddin əl-Albani – *rahmətullahi aleyhi* - hədisin bütün rəvayətlərini bir yerə toplayaraq "Xutbətul Həcə" isimli bir kitab yazmışdır. İstəyənlər bu kitaba baxa bilərlər. Ayrıca bax: əl-Albani "Muxtəsər Səhih Muslim" 409, "Mişkətul Məsabih" 3149,5860.

[3] Əbu Davud.

Təmiz və faydalı şeylər halal, pis və zərərli şeylər isə haram edildi[4]. Bir şeyi halal və haram etmək Allaha aiddir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in bir şeyi halal və haram etməsi yenə də Allahın halal və haram etməsilədir. Quran və Sünnəni bilən elm sahiblərindən başqa heç kimsənin halal və haram haqqında danışması (bu halaldı, bu haramdı) deməsi caiz deyildir. Allah Halal və haram barəsində elmsiz danışanları şiddətli olaraq qınamışdı. ***“Diliniz** (bizə belə əmr edildiyi deyə)* ***yalana vərdiş etdiyi üçün** (dəlilsiz-sübutsuz):* ***“Bu halaldır,o haramdır!” – deməyin, çünki** (bununla)* ***Allaha iftira yaxmış olursunuz. Allaha iftira yaxanlar** (axirət əzabından)* ***nicat tapmazlar!”.*** (ən-Nəhl 116). ***“Yoxsa** (müşriklərin)* ***Allahın dində izin vermədiyi bir şeyi onlar üçün qanuni** (halal)* ***edən şərikləri vardır”.*** (əş-Şura 21).

Allaha həmd olsun ki, haramlığı qəti bəli olan şeylər barəsində Quran və Sünnə bizə xəbər vermişdir. ***Ölü** (kəsilmədən ölüb murdar olmuş)* ***heyvan, qan, donuz əti, Allahdan başqasının adı ilə** (bismillah deyilmədən)* ***kəsilmiş, boğulmuş,** (küt alət və ya silahla)* ***vurulmuş,** (bir*

[4] ***Fərz (Vacib) –*** Qəti olaraq gələn əmr fərz sayılır. Ona - *Allah əmr edib deyə* - əməl edən savab qazanır. Biri oruc tutur Allahın əmridir deyə, digəri isə oruc tutur arıqlamaq və s. məqsədlər üçün. İkisi də ac qalır, lakin Allahın əmridir deyə oruc tutan savab qazanır, digəri isə yox. Onu tərk edən isə əzaba layiqdir. Çünki Allahın istəyinə bağlıdır. İstəsə əzab verər, istəsə bağışlayar. Məs: Namaz, oruc və s. əməllər kimi.

***Haram –*** Qəti qadağa haram adlanır. Bunu - *Allah qadağan edib deyə* - tərk edən savab qazanır. Ona əməl edən isə cəzaya layiqdir. Məs: Zina, içki və s. Biri içki içmir ki, ziyandır, digəri isə içki içmir Allahın əmri olduğu üçün. Allahın əmri olduğu üçün içkini tərk edən savab qazanır, digəri isə yox.

***Müstəhəb –*** Bəyənilən əməl. Əgər əmr qəti olmazsa müstəhəb sayılır. Müstəhəb də əmrin altına girir. Ona görə də deyilir ki, əmr vacibliyə dəlalət edir nə qədər ki, onu müstəhəbliyə çevirən bir dəlil gəlmədikcə. Müstəhəbi edən savab, onu tərk edən isə günah qazanmır.

***Məkruh –*** Bəyənilməyən əməl. Əgər qadağa güclü olmazsa məkruh sayılır. Məkruh da qadağanın altına girir. Müs: Məscidə sol ayaq ilə daxil olmaq.

***Mübah –*** Nə əmrə, nə də qadağana daxil deyildir. Mübah özlüyündə ibadət deyildir. Lakin başqasına görə ibadət ola bilər. Elm öyrənmək, namaz qılmaq özlüyündə ibadətdir. Lakin yemək, içmək, yatmaq və s. kimi əməllər özlüyündə ibadət deyildir. Bu əməllər başqasına görə ibadət ola bilər. Məs: “Yemək yeyirsən ki, elm öyrənməyə taqətin olsun, tez yatırsan ki, sübh namazını ayıq başla qılasan. Bu əməllər sadəcə niyyətin düzgünlüyünə görə insana savab gətirir. Ona görə də deyilir ki, səfdə iki nəfər yanaşı durar, lakin onların arasında göylə-yer arası qədər fərq olar.

*yerdən)* ***yıxılaraq ölmüş,*** *(başqa bir heyvanın buynuzu ilə)* ***vurulub gəbərmiş, vəhşi heyvanlar tərəfindən parçalanıb yeyilmiş - canı çıxmamış kəsdiyiniz heyvanlar müstəsnadır - dikinə qoyulmuş daşlar*** *(bütlər və ya Kəbənin ətrafındakı bütpərəst qurbangahlar)* ***üzərində kəsilmiş heyvanlar və fal oxları ilə pay bölmək sizə haram edildi".*** (əl-Maidə 3). ***"Bir-birinizin mallarını haqqınız olmadığı halda yeməyin. Xalqın malının bir qismini*** *(onun sizə haram olduğunu)* ***bilə-bilə günah yolu ilə yeməyiniz üçün onu*** *(malınızı)* ***hakimlərə*** *(rüşvət)* ***verməyin!".*** (əl-Bəqərə 188). ***"Bunlar*** *(bu hökmlər)* ***Allahın hədləridir, bunları aşmayın! Allah*** *(insanlara)* ***hökmlərini bu cür bildirir ki, bəlkə, müttəqi olsunlar!".*** (əl-Bəqərə 187). ***"Sələm*** *(müamilə, faiz)* ***yeyənlər*** *(Qiyamət günü)* ***qəbirlərindən ancaq Şeytan toxunmuş*** *(cin vurmuş dəli)* ***kimi qalxarlar. Bunların belə olmaları: "Alış-veriş də sələm kimi bir şeydir!" – dedikləri üzündəndir. Halbuki, Allah alış-verişi halal, sələm*** *(faiz)* ***almağı isə haram*** *(qadağan)* ***etmişdir…".*** (əl-Bəqərə 257). ***"Ey insanlar! Yer üzündəki qidaların təmiz, halal olanlarını yeyin, Şeytanın izi ilə getməyin! Həqiqətən, o*** *(Şeytan)* ***sizinlə açıq-açığına düşməndir".*** (əl-Bəqərə 168). ***"Sizə nə olub ki, üstündə Allahın adı çəkilmiş*** *(heyvanların)* ***ətindən yeməyəsiniz? Halbuki məcburiyyət qarşısında*** *(yeməli)* ***olduğunuz şeylər istisna edilməklə, sizə haram buyurduqların artıq O*** *(Allah)* ***müfəssəl şəkildə sizə bildirmişdir. Şübhəsiz ki, çoxları*** *(şəriəti)* ***bilmədiklərindən nəfslərinin istəklərinə uyaraq*** *(xalqı)* ***düz yoldan azdırarlar. Rəbbin həddi aşanları ən yaxşı tanıyandır! Günahın aşkarından da, gizlisindən də əl çəkin! Günah qazananlar etdikləri əməllərə görə cəzalandırılacaqlar!".*** (əl-Ənam 119-120). ***"****(Ya Rəsulum!)* ***De: "Gəlin Rəbbinizin sizə nələri haram etdiyini deyim: Ona heç bir şərik qoşmayın; ata-anaya yaxşılıq edin; kasıblıq üzündən uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk. Açıq və gizlin pis işlərə yaxın düşməyin. Allahın*** *(qətlini)* ***haram buyurduğu cana qıymayın*** *(müsəlman və ya əhli-zimməni haqsız yerə öldürməyin)****.*** *(Allah)* ***bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb anlayasınız!".*** (əl-Ənam 151). Əbu Sələbə əl-Xuşəni Cursum b. Nəşr – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Allah bir çox fərzlər müəyyən edib, buna görə də onlara laqeyidlik göstərməyin. Bir çox sərhədlər müəyyən edib, onları aşmayın. Bəzi şeyləri haram etmişdir, onları aşmayın. Bəzi şeylər haqqında unutduğundan deyil, sizin üçün rəhmət olsun deyə susmuşdur. Onları öyrənməyə çalışmayın". Daraqutni 4/184, əl-Albani "İrva", "Ğayrətul Məram" 17-19, zəif hədis. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Allah içkini, murdar (ölmüş)

heyvanın (leşini), donuzun və bütlərin satışını haram etmişdir". Səhih Əbu Davud 977. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Allah bir şeyi haram etdikdə ondan gələn gəliri də haram edir". Səhih Əbu Davud 3488, Daraqutni 3/7. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Uca Allah doğru və düz yolu misal çəkdi. Bu yolun hər iki tərəfində açıq qapıları olan divar, qapıların üzərindən isə endirilmiş pərdələr vardır. Yolun qapısı üzərində bir dəvətçi səsləyərək: "Ey insanlar! Birlikdə doğru yolla gedin. Ayrılığa düşməyin" deyir. Yolun üst tərəfində olan digər dəvətçi isə bu açıq qapılardan içəri girmək istəyən hər bir kəsi səsləyərək: "Vay sənin halına! O, qapını açma. Əgər onu açsan ora girəcəksən" deyir. Bu doğru yol İslamdır. Ətrafda olan divarlar Allahın sərhədləridir. Açıq qapılar isə Allahın haramlarıdır. Yolun qapısı üzərində olan dəvətçi Allahın kitabıdır. Yolun üst tərəfində olan dəvətçi isə hər bir müsəlmanın qəlbində olan nəsihətçidir". İmam Əhməd «Musnəd» 4/182-185, 5/435, əl-Albani səhih.

***"Hər kəs Allaha və Peyğəmbərinə itaət etməyib Onun hədlərini aşarsa,*** *(Allah da)* ***onu həmişəlik Cəhənnəmə daxil edər. Onu rüsvayedici əzab gözləyir".*** (ən-Nisa 14). Əbu Abdullah ən-Numan b. Bəşir – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in belə buyurduğunu eşitdim: "Şübhəsiz ki, halal da bəllidir, haram da. Lakin bu ikisinin arasında (müştəbihat[5]) bəzi xüsuslar vardır ki, insanların bir çoxu bunların (hökmünü) bilməzlər. Hər kim bu şübhəli şeylərdən qaçarsa öz dinini və şərəfini qorumuş olar. Hər kim də bu şübhəli şeylərə düşərsə, harama düşmüş olar. Necə ki, qadağan olunmuş bölgənin ətrafında öz (qoyunlarını) otaran, lakin o qadağan bölgəsinə öz (qoyunlarını) buraxmayan çoban kimi. Həqiqətən hər bir hökmüdarın qadağan bölgəsi vardır. Allahın qadağan bölgəsi isə onun haramlarıdır. Bunu da bilin ki, insan bədənində elə bir ət parçası var ki, əgər o, sağlam olarsa bütün bədən sağlam olar, yox əgər o, xəstə olarsa onda bütün bədən xəstə olar. Bilin ki, bu qəlbdir". Buxari 52, Müslim 1599. Əbu Hureyrə, AbdurRahman b. Saxr – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in belə buyurduğunu eşitdim: "Sizə nəyi qadağan edirəmsə ondan uzaq olun, nəyi sizə əmr etmişəmsə ondan bacardığınız qədər istifadə edin. Şübhə yox ki, sizdən əvvəlki ümmətləri

[5] ***Müştəbihat –*** İmam Nəvəvi – *rahmətullahi aleyhi* - deyir ki: «Müştəbihatın mənası halal və haramlığı bəlli olmayan deməkdir».

çox sual vermələri və Peyğəmbərlərinə müxalif olmaları məhv etdi”[6]. Həsənul Bəsri – *rahmətullahi aleyhi* - deyir ki: “Adəm oğlu, sənin Allahın sənə qarşı açdığı savaşa gücün çatacağmı? Çünki kim Allaha üsyan edərsə o, kimsə Allaha qarşı savaş açmışdır. Günah nə qədər çirkin olarsa Allaha açılan savaş da ondan min qat çirkin olar”. Camiul Ulum s. 315. Sauban – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Mənim ümmətimdən bir qrup insanlar olacaq ki, Tiham dağı boyda xeyirli əməllərlə gələcəklər. Lakin Allah onların əməllərini puç edəcəkdir. Sauban: “Ya Rəsulallah! Onları bizə vəsf et ki, onlardan olmayaq” dedim. Peyğəmbər: “Onlar sizin qardaşlarınızdır, dəriləri də sizin dəriləriniz kimidir. Lakin onlar Allahın qadağaları ilə tək qaldıqda onları pozarlar”. Səhih İbn Məcə 3423. Əli b. Əbu Talibin oğlu, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in (qızı Fatimə – *radıyallahu anhə* – nin oğlu) və xoş iyli Reyhanı Əbu Muhəmməd əl-Həsən – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in belə buyurduğunu eşitdim: “Səni şübhəyə salan şeylərdən uzaq dur, səni şübhələndirməyən şeylərə tərəf isə yönəl”[7].

İtaətkar kimsə haramları tərk etməklə ləzzət duyar. Allah üçün bir şeyi tərk etdiyi üçün Allah da ona daha xeyirlisi ilə əvəz edər və o, kimsə qəlbində imanın ləzzətini duyar. ***“Ey iman gətirənlər! Sizə verdiyimiz ruzilərin*** *(təmiz və)* ***halalından yeyin! Əgər Allaha ibadət edirsinizsə,*** *(bu nemətlərə görə)* ***Ona şükür edin!”.*** (əl-Bəqərə 172).

Qadağan olunmuşun (haramın) qidada istifadə edilməsi iki qismdir:

1 – İnsan qidalanır o, məhsullarnan hansı ki, özüldə icazəlidir (halaldır). Lakin bu məhsulların əldə edilməsi qadağan edilmiş yollarla olur. Məs: Faizdən, Rüşvətdən, oğurluqdan, quldurluqdan, qadağan olunmuş şeylərin satışından (içki, donuz) və s. yollarla.

2 – İnsan qidalanır o, məhsullarla hansı ki, özüldə haramdır (qadağandır). Donuz, içki, caynaqlı və azı dişli heyvanlar və s. hansı ki,

[6] Buxari 7288, Müslim 1337 – Bu hədisin əvvəli belədi: Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Ey insanlar! Allah üzərinizə Həcc etməyi fərz qıldı, artıq siz də Həcc edin”. Bir nəfər: “Ey Allahın Rəsulu! Hər il Həcc edək?”. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – susdu. Həmin şəxs sualını bir neçə dəfə təkrarladı. Peyğəmbər: “Əgər mən hə desəm, sizə hər il Həcc etmək vacib olardı. Sizin də buna gücünüz çatmazdı...”.

[7] Tirmizi 2520, Nəsəi 5711, əl-Albani “Səhihul Cəmi” 3372-ci hədis. Bu hədisin sonu belədir: Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Həqiqətən doğruluq sakitlikdir, yalan isə şübhədir”.

özüldə qadağan edilmişdir. Hətta bu kimi şeylər halal yolla əldə edilmiş pulla alınarsa belə.

Allahın xalqlara, ümmətlərə göndərdiyi hər Nəbi və Rəsuluna yaxşı işlər görməyi və təmiz (halal) nemətlərdən yemək əmr edilmişdir. Nə qədər ki, qida halal yolla olarsa əməllər də saleh olar. Haram ilə qidalanmağın ziyan və təhlükəsi cəza olaraq bu dünyada əməllərin və duaların qəbul olunmamasıdır, axirətdə isə buna görə cəza vardır. İbni Kəsir – *rahmətullahi aleyhi* - deyir ki: "Halal ilə qidalanmaq duanın və ibadətin qəbul olunması üçün səbəbdir. Haram ilə qidalanmaq isə duanın və ibadətin qəbul olunmasına maneədir". Əbu Hureyrə – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Şübhəsiz ki, Allah pakdır (və nöqsansızdır) və pak olanı da qəbul edir. Allah Peyğəmbərlərinə əmr etdiyi şeyin eynisini möminlərə də əmr etmişdir. Allah buyurur: ***"Ey Peyğəmbərlər! Təmiz** (halal) **nemətlərdən yeyin və yaxşı işlər görün!"***. (əl-Muminun 51). ***"Ey iman gətirənlər! Sizə verdiyimiz rüzilərin** (təmiz və) **halalından yeyin!"***. (əl-Bəqərə 172). Sonra Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Saçı-saqqalı bir-birinə qarışmış, üst-başı toza bulaşmış halda uzun səfər etmiş, yediyi haram, içdiyi haram və haram ilə bəslənən birisini xatırladaraq, bu kişi əllərini səmaya qaldıraraq ya Rəbbim! Ya Rəbbim deyə dua etsə necə ola bilər ki, onun duası qəbul olunsun". Müslim 1015. Belə ki, bu kimsə duanın qəbul olunması üçün bütün səbəbləri götürmüşdür: Səfərdə idi, Əllərini səmaya qaldırmışdı, zəlil bir görkəmdə idi. Lakin haram ilə qidalandığı üçün bunların heç biri ona fayda vermədi.

Bir gün insanlar Cundub – *radıyallahu anhu* - ya: "Bizə vəsiyyət et!" deyə xahiş etdilər. O: "İnsanın (öldükdən) sonra ilk çürüdüyü orqanı onun qarnıdır. Hər kim (şübhəli qazanclardan çəkinib) yalnız halal loxma ilə keçinməyə gücü çatarsa bunu etsin. Hər kimdə özü ilə Cənnət arasına (haqsız yerə) tökdüyü bir ovuc qanla ayırmamasını istəyirsə bunu etsin". Buxari 7152.

Zeyd b. Ərqam – *radıyallahu anhu* - rəvayət edir ki, Əbu Bəkr – *radıyallahu anhu* - nun bir qulluqçusu var idi. Onunla şərt kəsmişdi ki, özünü satın alıb azad edəcəkdir. Hər dəfə o, bir şey gətirdikdə Əbu Bəkr – *radıyallahu anhu* - ondan soruşardı: "Haradandır bu?". Əgər cavab onu qane edərdisə yeyərdi, qane etmədikdə isə yeməzdi. Oruclu günlərin birində qulluqçusu ona yemək gətirdi. Əbu Bəkr – *radıyallahu anhu* - yeməyin haradan olduğunu soruşmağı unudaraq yeməkdən bir loxma ağzına qoydu. Xatırladığı zaman: "Bu yemək haradandır?" deyə soruşdu. O: "Cahiliyyə vaxtı mən kahinliklə (gələcəyi xəbər verən) məşğul idim.

Həqiqətdə isə bu belə deyildi və mən sadəcə (insanları) aldadırdım. Bu yeməkdə (həmən işin) əmək haqqıdır. Əbu Bəkr: “Sənin etdiyin əməl necədə pis bir işdir. Məni həlak edəcəkdin?”. Sonra yediyini qusmağa çalışdı. Lakin bacarmadı. Ona su ilə çıxacağını dedilər. O, da su içərək qaytarmağa başladı. Mədəsində olan hər bir şeyi qaytarmaqla təmizlədi. Ona: “Sən bütün bunları bir loxmaya görə edirsən?” dedilər. Əbu Bəkr: “Əgər bu məndən canımla birlikdə çıxsaydı belə mən bunu edərdim. Həqiqətən mən Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – belə buyurduğunu eşitdim: “Cəhənnəm oduna ən layiq bədən haram ilə qidalanandır”. Əbu Nuym 1/31, Beyhəqi 5760, əl-Albani “Səhih”.

Azərbaycan dilinə tərcümə olunmuş bu kitabın əsası kimi istifadə olunmuşdur: «О необходимости употребления в пищу дозволенного и положения связанные с закалыванием животных» Серия статей «ад-Да’уату-Ссаляфия» часть 3, Каир 2006г. Həmçinin də özüm tərəfindəndə bir çox əlavələr edilmişdir.

İlk növbədə Allahdan bu çalışmamın dolğun, düzgün şəkildə tərcümə edib başa çatdırılmasını diləyirəm. Allahdan əməlimi onun üçün ixlaslı olmasını, məndən qəbul edib onunla müsəlmanları faydalandırmasını diləyirəm. Əgər hardasa xəta etmişəmsə bu nəfsimdən və şeytandandır. Burda düzəldilməzi mühüm olan yerləri tapdıqdan sonra mənə öyüd-nəsihət verməkdən çəkinməyəcəyinizi ümid edirəm.

Güvəndiyim Allahdır, işlərimi Ona həvalə edirəm və Ona arxalanıram. Həmd və nemət yalnız Onadır. Müvəfəqiyyət bəxş edən və xətalardan qoruyan odur. ***“Məni yaradan və məni doğru yola yönəldən Odur! Məni yedirdən də, içirdən də Odur! Xəstələndiyim zaman mənə yalnız O, şəfa verir. Məni öldürəcək, sonra dirildəcək də Odur və Qiyamət günü xətamı bağışlayacağına umid etdiyim də Odur! Ey Rəbbim! Mənə hikmət bəxş et və məni salehlərə qovuşdur! Sonra gələnlər arasında mənə yaxşı ad qismət et! Məni Nəim Cənnətlərinin varislərindən et!”.*** *(əş-Şüəra 78-85).*

Allahın salat və salamı Onun Peyğəmbəri Muhəmməd – *sallallahu aleyhi və səlləm* – ə, onun ailə üzvlərinə, səhabələrinə və Qiyamətə qədər onun yolu ilə gedən saleh möminlərin üzərinə olsun!

***Bitirdim: Hicri 1430-cu il Məhərrəm 16***
***Miladi 2009-ci il Yanvar 13***
***Həmd olsun aləmlərin Rəbbi olan Allaha (Yunus 10)***

# YEMƏKDƏ İSTİFADƏSİ QADAĞAN OLUNANLAR

***Qayda:*** 1. Allahın dinində əsas (təməl) ondan ibarətir ki, istənilən əməl hansı ki, Allah və Rəsulu əmr etməyib qadağandır. Yəni ibadətin əsli haramdır. Quran və Sünnədən dəlil olmadıqca ibadət etmək olmaz. Məs: Bir nəfər 3 rükət sübh namazını qılır. Sən ona deyirsən ki, olmaz belə etmək. O, da deyir ki, sübut et. Sən nə edəcəksən? Gedib dəlil axtaracaqsan? Xeyr, o dəlil gətirməlidir ki, bu şəriətdə var.

2. O, ki qaldı məişətdə (yaşayışa) aid olan yemək, içmək, geyim, maşın, ev və s. əsl odur ki, halaldır onun qadağan olunmasına Quran və Sünnədən dəlil gəlməyənicə. Yəni nə istəyirsən ye, iç, geyin və s. Allahın qadağan etdiklərindən başqa.

Bu da Allahın öz qullarına olan Rəhmətidir. Allah bir çox fərzlər təyin etmiş, bir çox sərhədlər və haramlar təyin etmişdir ki, bunları aşmaq olmaz. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Allah kitabında halal etdiyi (icazə verdiyi) şeylər halal (icazəli), haram etdiyi isə haramdır (qadağandır). O, ki qaldı susduğu şeylərə onlar bağışlanmışdır. Allahdan olan bu bağışlanmağa razı olun. Çünki Allah unutqan deyildir". Bundan sonra Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ayəni oxudu: ***"Sənin Rəbbin unutqan deyildir".*** (Məryam 64). Həkim 2/375, Bəzzar 123, əl-Albani «Ğayrətul Məram» s. 14 həsən hədis.

Bütün bunlar qida məhsullarına da aiddir: Şəriətlə qadağan olunmayan hər bir şeyin yeyilməsi icazəlidir. Yeməkdə istəfadəsi qadağan olunanlara və ümumiyyətlə haramlara gəldikdə Allah bunun səbəbini belə açıqlayır: *"****....****(O Peyğəmbər)* ***onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz*** *(pak)* ***nemətləri halal, murdar*** *(napak)* ***şeyləri haram edər....".*** (əl-Əraf 157). Bu ayə açıq-aydın dəlildir ki, Allah yalnız (insanların istifadəsi) üçün ziyanlı və murdar olan şeyləri qadağan edir. Bu da istər yemək və içməkdə olsun, istərsə də digər şeylərdə.

# QURAN VƏ SÜNNƏDƏ GÖSTƏRİLƏN QADAĞALAR

## *Ölü (Leş), Donuz, Qan, İçki*

***"Ölü*** *(kəsilmədən ölüb murdar olmuş)* ***heyvan, qan, donuz əti, Allahdan başqasının adı ilə*** *(Bismillah deyilmədən)* ***kəsilmiş, boğulmuş,*** *(küt alət və ya silahla)* ***vurulmuş,*** *(bir yerdən)* ***yıxılaraq ölmüş,*** *(başqa bir heyvanın buynuzu ilə)* ***vurulub gəbərmiş, vəhşi heyvanlar tərəfindən parçalanıb yeyilmiş - canı çıxmamış kəsdiyiniz heyvanlar müstəsnadır - dikinə qoyulmuş daşlar*** *(bütlər və ya Kəbənin ətrafındakı bütpərəst qurbangahlar)* ***üzərində kəsilmiş heyvanlar və fal oxları ilə pay bölmək***

***sizə haram edildi".*** (əl-Maidə 3). Bütün bunların yeyilməsini Allah haram etmişdir.

***Həmçinin:*** Ölü (Leş - kəsilmədən ölüb murdar olmuş) heyvan: Bura ölmüş və ya şəriət qaydası ilə kəsilməmiş heyvanlar da daxildir[8]. *«(Ya Rəsulum!)* ***De: "Mənə gələn vəhylər içərisində murdar olduqları üçün ölü heyvan, axar qan, donuz əti və ya Allahdan başqasının adı ilə*** *(Bismillah deyilmədən)* ***günah olaraq kəsilmiş heyvanlar istisna olmaqla, hər hansı bir kəsin yediyi yeməklər içərisində haram buyurulan bir şey görmürəm. Bununla yanaşı, hər kəs məcburiyyət qarşısında qalsa, həddi aşmadan, zəruri ehtiyacını ödəyəcək qədər*** *(bunlardan yesə, Allah ona cəza verməz)".* ***Çünki sənin Rəbbin, həqiqətən, bağışlayandır, rəhm edəndir!".*** (əl-Ənam 145).

***Həmçinin:*** (Yeyilməsi icazə verilən heyvanın) sağ ikən ondan kəsilib ayrılmış müəyyən üzvü də ölü (leş) sayılır və yeyilməsi qadağandır. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Sağ ikən heyvandan kəsilərək ayrılmış üzvü ölü (leş - kəsilmədən ölüb murdar olmuş) sayılır". Əbu Davud 2841, İbn Macə 3216. İbn Ömər – *radıyallahu anhum* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – canlı heyvandan sağ ikən hansısa bir üzvü kəsib götürən insanları lənətləmişdir". Buxari 5515.

## *Qan: Qan Özü İki Qismə Bölünür*

a) Murdar: Bura ön və arxa ifrazat çıxışlarından gələn qan, axar qanı olan və ətinin yeyilməsi haram buyurulmuş heyvanın qanı, ölmüş və ya şəriət qayda-qanunu ilə kəsilməmiş heyvanın qanı daxildir.

b) Təmiz: Bura insan qanı, balıq qanı, axar qanı olmayan həşəratların qanı (Axar qanı olmayan milçək, ağcaqanad, mətbəx-böcəyi, əqrəb və digər həşəratlar[9]), şəriət qayda-qanunu ilə kəsilmiş heyvanın cəsədində qalan qan daxildir.

"***Ey iman gətirənlər! Şərab da*** *(içki də)****, qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız! Şübhəsiz ki, Şeytan içki və qumarla aranıza ədavət və kin salmaqdan və namaz qılmaqdan ayırmaq istər. Artıq bu işə son qoyacaqsınızmı?".*** (əl-Maidə 90-91). Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Bütün sərxoş edici şeylər içkidir və sərxoş edici nə varsa haramdır". Müslim 3/1587. Az və ya çox olmasından aslı olmayaraq

---

[8] Qeyd etmək lazımdır ki, əti yeyilməyən heyvan şəriət qayda-qanunu ilə kəsilmiş olsa da belə cəmdəyi murdar sayılır.

[9] «əş-Şərhu-l-Mumti alə Zadu-l-Mustəqnəi» 1/534.

ağılı dumanlandıran və sərxoş edən hər bir şey haramdır. Peyğəmbər – *sallallahu aleyhi və salləm* – buyurdu: "Sərxoş edici şeylərin azı da, çoxu da haramdır". Səhih Əbu Davud 3128. İbn Ömər və Əbu Hureyrə – *radıyallahu anhum* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və salləm* – buyurdu: "Hər kim dünyada ikən şərab içər və bu günahdan tövbə etməzsə Axirətdə Cənnət şərabından məhrum olar və ondan içməz (Başqa rəvayətdə: Hər Xamr haramdır). Müslim 2002,2004.

## *Ölü (Leş) Dəniz Heyvanları İcazə Veriləndir*

Suda, yalnız suda nə yaşayırsa yeyilməsi icazə veriləndir. Istər ölü (leş) olsun, istərsə də diri. Əbu Hureyrə – *radıyallahu anhu* - rəvayət edir ki, bir kişi gəlib Peyğəmbər – *sallallahu aleyhi və salləm* – dən soruşdu: "Ey Allahın Rəsulu! Biz dənizə çıxdığımız zaman özümüzlə az miqdarda su götürürük. Onunla dəstəmaz alarıqsa, içməyə suyumuz qalmaz. Elə isə dəniz suyu ilə dəstəmaz ala bilərikmi?". Peyğəmbər – *sallallahu aleyhi və salləm* – buyurdu: "Dənizin suyu təmizdir və içərisində ölmüş su heyvanları da halaldır". Əbu Davud 1/83, Tirmizi 1/69, Nəsəi 1/176, «Muvatta» 1/22 – 12-ci hədis, «Müsnəd» 2/237, "İrvaul-Ğalil" 1/42–9-cu hədis. İmam əs-Sənani – *rahmətullahi aleyhi* - deyir ki: "Bu hədisdən də göründüyü kimi, dənizdə yaşayan su heyvanlarının ölüsü (leş) belə halaldır (icazə verilən). Hətta zahirən belə onlar itə və donuza oxşasalarda". "Subus Salam" 1/23.

Timsaha gəldikdə isə: Alimlər timsahın yeyilməsini qadağan ediblər. Çünki o, suda yaşadığı kimi, quruda da yaşayır. "Təfsir İbn Kəsir" 3/197.

Ölmüş heyvanlardan aşağıdakılar təmiz hesab olunur: Balıq[10] və çəyirtkə: İbn Ömər – *radıyallahu anhu* - demişdir: "İki leş və İki qan bizə halal edilmişdir. İki leş balıq və çəyirtkədir, iki qan isə ciyər və dalaqdır". İbn Məcə, Həkim, Beyhəqi, «Müsnəd» 2/97; İrvaul-Ğalil, 8/164–2526-cı hədis, "Səhihul Cəmi" 210.

Şəriət qayda-qanunu ilə kəsilmiş heyvanın cəsədində qalan qan da təmiz sayılır. "Səhih Fiqhu Sunnə" 2/338. Rəvayət edilir ki, Aişə – *radıyallahu anhə* - şəriət qayda-qanunu ilə kəsilmiş heyvanın cəsədində qalan qanda və ətin qızartılığında bir problem olmadığını görürdü". Təbəri 8/71.

## *Ölü (Leş) Heyvanların Yağı (Piyi)*

Ömər - *radıyallahu anhu* – Səmuranın şərab satdığını eşidincə dedi: Allah Səmuraya lənət etsin. Məgər o, Peyğəmbər – *sallallahu aleyhi və*

[10] Suda-quruda yaşayanlar bura daxil deyildir.

*səlləm* – in nə buyurduğunu eşitməyibmi? «Allah lənət edib Yəhudilərə hansı ki, onlar ölmüş heyvan yağlarının haram olunmasına baxmayaraq onları əritdilər və satardılar». Fəthul Bəri 6/496, Müslim 159/81,1582. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allah bir qövmə bir şeyin yeyilməsini haram etdikdə ondan gələn gəliri də haram edir ». Səhih Əbu Davud 3488, Səhihul Cəmi 5107. Cabir b. Abdullah - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Allah içkini, murdar (ölmüş) heyvanın (leşini), donuzun və bütlərin satışını haram etmişdir". Orada olanlar: "Ya Rəsulullah! Ölü heyvanın iç yağı (piyi) barəsində nə deyirsən? Onunla gəmiləri boyayır, dəriləri yağlayır və insanlar ondan şam yandırarlar" deyə soruşdular. Peyğəmbər: "Xeyr, o haramdır. Allah lənət etsin Yəhudilərə hansı ki, onlar ölmüş heyvanın iç yağının (piyinin) haram olunmasına baxmayaraq onları əritdilər və satıb gəlirini yedilər". "Fəthul Bəri" 6/496, Müslim 1581, Səhih Əbu Davud 977. İbn Abbas - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – məsciddə idi. Baxışlarını səmaya dikti və gülümsəyərək buyurdu: "Allah Yəhudilərə lənət etsin, Allah Yəhudilərə lənət etsin, Allah Yəhudilərə lənət etsin. İzzət və Cəlal sahibi olan Allah onlara ölü heyvanın yağını haram etdi. Lakin onlar buna baxmayaraq onu satdılar və gəlirini də yedilər. Allah bir qövmə bir şeyin yeyilməsini haram etdikdə ondan gələn gəliri də haram edir". Səhih Əbu Davud 3488, Beyhəqi "Sünən" 6/13, Daraqutni 3/7. Ölü heyvanın satılmsına gəldikdə isə istər öz əcəli ilə ölsün, istərsə də halal olmayan bir yolla kəsilmiş olsun ölü heyvan (leş) olaraq adlandırılan bütün cinslər bu bölümə daxildir. İbn Qeyyim – *rahmətullahi aleyhi* - deyir ki: Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in sözü: Xeyr, bu haramdır – sözü satış üçünmü, yoxsa yağ ilə etdikləri işlər üçün də söylənilmişdir? Şeyxim (İbn Teymiyyə) – *rahmətullahi aleyhi* - deyir ki: "Bu söz satış üçündür" demişdir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Ölü heyvanın yalnız yeyilməsi haramdır". Buxari. Onlar deyirlər ki: Haram olan şey yalnız yeməkdə və geyimdə olduğu kimi pis olan bir şeyə zahiri və batini olaraq toxunmaqdır. Bu şeylər olmada istifadə etmək nə üçün haram olsun? Nəcasəti yandıraraq odun kimi istifadə etmək haram olmaz. İslam alimləri kənd təsərüfatında nəcis olan heyvan peynini gübrə olaraq istifadə edilməsini caiz görürlər. Onlardan istifadə etmək caiz olsa da belə satışları haramdır. Beləcə bir şeyin satışının haram olmasına baxaraq ondan istifadə etməyin haram olduğuna hökm verilməz.

Lakin Hənbəli və digər fiqh alimləri qadağanın bütün işlər üçün olduğunu da söyləmişlər. Yəni ölü heyvan yağına və onunla edilən bütün

işlərə. Bu onların soruşduqları işlərin haram olduğuna dəlildir. Dəlil olaraq Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, yağa düşən siçan haqqında Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən soruşuldu. O: "Əgər yağ qatıdırsa siçanı və düşdüyü yerin ətrafından yağı atın, qalan hissəsini isə yeyin. Əgər yağ maye halında olarsa bu zaman o, yağa yaxınlaşmayın". Əhməd 2/232, 490, Əbu Davud 3842, əl-Albani "Səhih", İbn Qeyyim "Zədul Məad". Doğrusunu Allah Bilir!

## *İçki*

***«Ey iman gətirənlər! Şərab da, qumar da, bütlər də, fal oxları da şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız».*** *(əl-Maidə 90).* ***Xamr –*** Xumr, örtən deməkdir. Allah bu ayədə içkini öz adı ilə adlandırmadı. Onu xamr «Örtən» deyə adlandırdı. ***«Mömin qadınlara da de ki: Gözlərini haram buyrulmuş şeylərdən çevirsinlər, ayıb yerlərini*** (zinadan) ***qorusunlar, öz-özlüyündə görünən*** *(əl, üz)* ***istisna olmaqla, zinətlərini göstərməsinlər, baş örtüklərini yaxalarının üstünə çəksinlər».*** *(ən-Nur 31).* İbn Ömər və Hureyrə - *radıyallahu anhum* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Hər kim dünyada ikən şərab içər və bu günahdan tövbə etməzsə axirətdə Cənnət şərabından məhrum olar və ondan içməz (Başqa rəvayətdə: Hər hamr haramdır)»[11]. Cabir - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Uca və Böyük olan Allah içki içən şəxsə Tinətul Xabəldən içirəcəyinə söz vermişdir». Səhabələr: «Ey Allahın Rəsulu! Tinətul xabəl nədir?» deyə soruşdular. Peyğəmbər: «Cəhənnəm sakinlərinin təri və ya (yanmaları nəticəsində) bədənlərindən axan sudur»[12]. İbn Abbas - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər –*sallallahu aleyhi və səlləm* – buyurdu: «İçki düşkünü olaraq ölən şəxsə bütə sitayiş edənlər kimi Allahın hüzuruna gətriləcəkdir»[13]. Zəmanəmizdə şeytana qulluq edənlər içkinin çeşidlərini artıraraq onları bəzəyir və insanları cəlb edən adlarla adlandırırlar. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Ümmətimdən olan adamların bir hissəsi içki içib onu başqa adla adlandıracaqlar»[14]. ***«Onlar elə güman edirlər ki,*** *(qəlblərində olan küfrü gizlətməklə)* ***Allahı və möminləri aldadırlar. Bilmirlər ki, əslində ancaq özlərini aldadırlar».***

---

[11] Müslim 2004.
[12] Müslim 3/1587.
[13] Təbərani 12/45, əl-Albani «Səhihul Cəmi» 6525.
[14] Əbu Davud 3688, İbn Məcə 4020, İbn Hibban 1388, 5/342, Əhməd «Musnəd» 5/342, əl-Albani «Səhihul Cəmi» 5453.

*(əl-Bəqərə 9)*. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Bütün sərxoş edici şeylər içkidir və sərxoş edici nə varsa haramdır»[15]. Az və ya çox olmasından aslı olmayaraq ağılı dumanlandıran və sərxoş edən hər bir şey haramdır. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Sərxoş edici şeylərin azı da, çoxu da haramdır»[16]. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Kim içki içərək sərxoş olarsa qırx gün namazı qəul olunmaz. Belə ölərsə Cəhənnəmə düşər, tövbə edərsə Allah tövbəsini qəbul edər. Sonra təkrarən yenə də içib sərxoş olarsa qırx gün namazı qəbul olunmaz. Belə ölərsə Cəhənnəmə düşər, tövbə edərsə Allah tövbəsini qəbul edər. Sonra bu əməli təkrar edərək yenə də içib sərxoş olarsa qırx gün namazı qəbul olunmaz. Belə ölərsə Cəhənnəmə düşər, tövbə edərsə Allah tövbəsini qəbul edər. Lakin bundan sonra yenidən tövbəsindən dönərsə Allahın Qiyamət günü ona Radğatul Xabəl içirməsi haqqınadır». Səhabələr: «Ey Allahın Rəsulu! Radğatul Xabəl nədir?» deyə soruşdular. Peyğəmbər: «Cəhənnəm əhlinin (yanması nəticəsində) bədənlərindən axan sudur»[17]. Cabir - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Allaha və axirət gününə iman edən bir kimsə xanımını ümumi hamama salmasın. Allaha və axirət gününə iman edən kimsə örtündükdən sonra hamama girsin[18] və Allaha axirət gününə iman edən kimsə içki olan süfrəyə oturmasın»[19]. Tarik b. Suveyd əl-Cufi - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən şərab haqqında soruışdu. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – də onu şərabdan nəhy etdi. Tariq: «Mən şərabı ancaq dərman üçün istifadə edirəm» deyə soruşdu. Peyğəmbər: «O, dərman deyildir, lakin o bir dərddir (Başqa rəvayətdə: Allah ümmətimin şəfasını haram olan şeydə

---

[15] Müslim 3/1587

[16] Səhih Əbu Davud 3128.

[17] İbn Məcə 3377, əl-Albani «Səhihul Cəmi» 6313.

[18] ***Başqa Rəvayətdə:*** Haydə b. Muaviyə - *radıyallahu anhu* – rəvayət edir ki, mən: «Ey Allahın Rəsulu! Övrət yerlərimizi kimdən qorumalıyıq?» deyə soruşdum. Peyğəmbər: «Xanımın və cariyən instisna hamıdan qorumalısan». Mən: «Ey Allahın Rəsulu! Hər kəs bir yerdə olduğu zaman örtünmək çətin olarsa necə davranmalıyam?» deyə soruşdum. Peyğəmbər: «Əlindən gəldiyi qədər hər kəsdən gizlənməyə çalış» deyə buyurdu. Mən: «Ey Allahın Rəsulu! Tək olsam necə, yenə də örtünməliyəm?» deyə soruşdum. Peyğmbər: «Allah insanlardan daha çox utanılmaya layiqdir» deyə buyurdu. Nəsəi 1/76.

[19] Həkim 4/288, Əhməd 3/339.

qoymayıb)» deyə buyurdu[20]. Əbu Hureyrə - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: «***Xamr*** - bu iki ağacdandır. Xurma və üzüm»[21]. Cabir b. Abdullah - *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – quru üzümlə xurmanı və (köhnə) xurma ilə təzə xurmanı qarışdıraraq (şərab) düzəltməkdən nəhy etdi»[22]. İbn Abbas - *radıyallahu anhu* – rəvayət edir ki, AbdulQeys[23] heyəti Rəsulullah – *sallallahu aleyhi və səlləm* – in hüzuruna gələrək dedilər: «Ya Rəsulullah! Bizlər Rabia qəbiləsindənik. Səninlə bizim aramızda Mudar kafirlərindən ibarət bir qəbilə maneə olmuşdur. Buna görə də sənin yanına yalnız Haram aylarda[24] gələ bilirik. Buna görə də bizə qəti bir əmr ver ki, onu yerinə yetirək və həm də geridə qalanlara onu dəvət edək Cənnətə girək. Rəsulullah – *sallallahu aleyhi və səlləm* – onlara dörd şeyi əmr etdi və dörd şeydən də çəkindirdi. Rəsulullah – *sallallahu aleyhi və səlləm* – buyurdu: «Bir və tək olaraq Allaha iman etməyinizi əmr edirəm. Bir və tək olaraq Allaha iman etməyin nə olduğunu bilirsinizmi?» Onlar Allah və Rəsulu daha gözəl bilir!». O, buyurdu: «Allahdan başqa ibadətə layiq haqq ilah olmadığına, Muhəmmədin onun Rəsulu olduğuna şəhadət etmək, namaz qılmaq, zəkat vermək və qənimətin 1/5-ni verməkdir. Sizləri Dubbadan, Hantemdən, Nakirdən və Muzzafərdən çəkindirirəm»[25].

---

[20] Müslim 1984.
[21] Müslim 1985.
[22] Müslim 1986.
[23] Bu heyət Hudeybiyyə sülhündən sonra Məkkə fəthindən bir az əvvəl Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in yanına gəlmişlər. Heyətin böyüyü Munziru b. Aiz əl-Əsəri idi. Munzirin üzündə qılınc və ya bıçaq izi olduğu üçün Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – onu əl-Əşəcc diyə ləqəbləndirmişdir. Bundan sonra o, kimsə AbdulQays Əşecci ləqəbi ilə şöhrət tapmışdır. Heyəti sayı barəsində bir çox rəqəmlər vardır. 14, 40, 50 nəfərə qədər olduğu da söylənilir.
[24] ***Haram Aylar – «Həqiqətən Allah yanında ayların sayı göyləri və yeri yaratdığı gündən bəri Allahın kitabında on ikidir. Onlardan dördü*** *(Rəcəb, Zülqədə, Zülhiccə və Məhərrəm)* ***haram aylardır. Bu doğru dindir. Ona görə də həmən aylarda özünüzə zülm etməyin. Müşriklərin hamısı sizinlə vuruşduqları kimi siz də onlarla vuruşun və bilin ki, Allah müttəqilərlədir!».*** *(ət-Tövbə 36).* Bu aylarda döyüşlər etmək, hücum etmək, ozünə zülm etmək qadağan edilmişdir. Məhz buna görə də bu ayları haram aylar adlandırırlar.
[25] Bu adları çəkilən dörd kəlimə o, qövmün içərisində şərab düzəltdikləri qabların adlarıdır. ***Dubba*** **–** içi ovulmuş balqabaqdır, ***Hantem*** **–** saxsıdan düzəldilmiş qabdır, ***Nakir*** **–** içi ovulmuş ağac parçasıdır ki, içərisinə kiçik xurmalardan atır.

## *İstənilən Növ Pendirin Yeməkdə İstifadə Edilməsi*

Alimlər heyvanların mədəsindən götürülərək pendirə qatılan qursağın ***"İnfaxa"*** yeyilməsində fikir ayrılığıdadırlar. Bir çox alimlər (çoxluq) qeyd edirlər ki: Müsəlmanların və Kitab Əhlinin hazırladıqları pendiri yemək olar, çünki qeyrilərnin (kafirlərin, bütpərəstlərin və s.) kəsdikləri heyvanların ətləri ölü (leş) sayıldığı üçün hazırladıqları pendirləri də yemək olmaz.

İkinci qrup alimlər: Əbu Hənifə və Hənbəlilərdən bəziləri müşriklərin belə hazırladıqları pendirin yeyilməsinə icazə vermişlər. Onlar qeyd edirlər ki: Ölü (leş) sayılan heyvanın qursağı və südü nəcis sayılmır[26]. Bu

---

Sonra içərisinə su tökərdilər. Bir müddətdən sonra onu şərab olaraq alırdılar. ***Muqayyər –*** qır sürtülən qabdır. Buxari, Müslim.

[26] ***Həmçinin:*** Ölü (leş) heyvanın Sümüyü, buynuuz, dırnağı, yunu, tükləri – canlı (ruhu) olmayan bütün qisimləri nəcis sayılmaz. Çünki onlar ölü heyvan hökmündə olmadığı kimi, heyvan həyatda ikən də canlı (ruhu) olan bir şey deyildir. Bu zaman onların satışına da icazə vardır (Aşlandıqdan sonra Dəri). İbnul Qasım, İmam Məlik – *rahmətullahi aleyhi* - rəvayət edir ki: "Sümüyün nə satılmasını, nə də alınmasını caiz bilmirəm. Filin dişləri (buynuzları) da eynilə. Ticarətinin edilməsi caiz deyildir. Fil dişindən düzəldilən daraqlar, yağ qabı kimi istifadə etmək olmaz. Ölü heyvanın parçası olan sümükdən düzəldilmiş yağ qabına necə yağ dökülür, sümükdən düzəldilmiş daraqla necə saqqal daranır? Digərləri isə İbn Vəhb – *rahmətullahi aleyhi* - və s. Suda qaynadıldıqdan sonra caiz görmüşlər. Dəri aşılanması kimi. İbn Qeyyim "Zədul Məad". *Doğrusunu Allah Bilir.* Lakin əti, qanı, dərisi – canlı olduğu üçün nəcis sayılır. Bütün elm əhli bu görüşdədirlər: İmam Məlik, Əbu Hənifə, İmam Əhməd, Əvzai, Davud, İbnul Munzir, Muzəni, Həsənul Bəsri, İbn Sirirn – *Allah Onlardan Razı Olsun* - və s. ***"Allah evlərinizi sizə məskən*** *(yaşayıb dincəlmə yeri)* ***etdi, heyvanların dərilərindən həm köç vaxtı, həm də bir yerdə qaldığınız zaman*** *(daşınması)* ***sizin üçün yüngül*** *(asan)* ***olan evlər-çadırlar düzəltdi, onların yunundan, tükündən və qılından müəyyən vaxta qədər*** *(ömrünüzün sonuna kimi və ya onlar köhnələnədək)* ***istifadə edəcəyiniz ev əşyası*** *(pal-paltar, xalça-palaz)* ***və*** *(satlıq) mal verdi". (ən-Nəhl 80).* İbn Abbas – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Meymunə – *radıyallahu anhə* - yə aid ölmüş bir qoyunun yanından keçirdi. Dedilər: "Dərisindən faydalanın". Orada olanlar: "Necə olur, o ölü (leş) bir heyvan" dedilər. Peyğəmbər: "Haram olan ancaq onun ətidir" deyə buyurdu. İmam Əhməd "Musnəd". Bu hədis ətdən başqa digər orqanların təmiz olduğunu bildirməkdədir. Yalnız İmam Şafii – *rahmətullahi aleyhi* - bu qisimlərin də nəcis olduğunu söyləmişdir. Dəlil olaraq əl-Adi "əl-Kamil" adlı əsərində İbn Ömər – *radıyallahu anhu* - dan mərfu olaraq əsər rəvayət edir ki: Dırnaqları, qanı və tükünü basdırın çünkü onlar ölüdür (leş)".

Zəif əsər. O, deyir ki: "Bu qisimlər də heyvana bitişik olub, onunla bərabər böyüyər və ölümüylə də nəcis olar".
***Həmçinin:*** Donuzun haram olması zahiri və batini bütün orqanlarına aiddir. Bütlərin satışına gəldikdə isə: Büt, Xaç, heykəl və s. Alət və əşyalar haram edilmişdir. Haram edilmə səbəbi isə kiminsə onları alaraq fitnəyə (şirkə) düşmə qorxusudur. Şirkə aparan vəsilə olduğu üçün qadağan edilmişdir. Bunun zərəri isə digər qadağan olunan şeylərin zərərində daha böyükdür. Bütün bunların gəliri də haramdır. Digər tərəfdən: Aşlandıqdan sonra ölü (leş) heyvanın dərisi faydalanmaq üçün satılırsa pulu halal, yemək üçün satılarsa haram olar. Ev eşşəyi və qatır kimi heyvanlar yeyilməsi haram edilmişdir. Eşşəklər və qatırlar üzərinə minmək üçün satıldıqda gəliri halal olduğu halda, yemək üçün satılarsa haram olur. Şərabçıya satılan üzümün pulunu yemək haramdır. Lakin üzümü yemək üçün alan bir kimsəyə satmaq və əldə edilən pul halaldır. Müsəlmanların üzərinə istifadə ediləcək deyə silah satmaq qadağandır, eyni zamanda silahı Allah yolunda cihad edəcək bir dəstəyə satmaqda əldə edilən qazanc isə halaldır. Geyinməsi haram olan bir kimsəyə ipək satmaq qazancı haram, geyinilməsində heç bir problem olmayan kimsəyə ipək satmağın qazancı isə halaldır. Hətta Əhli Kitaba satılsa da belə Şərab və donuzun satılması qadağandır. Qoy onlar bu işlə məşğul olsunlar. Bilal – *radıyallahu anhu* - Ömər – *radıyallahu anhu* - ya dedi: "Zimmilərin xaraclarını (cizyə vergisi) toplamaq üçün təyin etdiyi məmurlar xarac olaraq donuz və şərab alırlar". Ömər: "Onlardan şərab və donuz almayın. Lakin onlara (Zimmilərə) onları satdırınız və xarac pulunu götürün". Eyni rəvayət Ömər b. AbdulAziz – *rahmətullahi aleyhi* - dan gəlir. İbn Qeyyim "Zədul Məad", "Əmval" 62.
***Həmçinin:*** İstənilən heyvanın, hətta donuzun belə dərisi yalnız aşılandıqdan sonra təmiz hesab olunur. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "İstənilən dəri aşılandıqdan sonra təmiz olur". Müslim 1/105, Əbu Davud 4123, Tirmizi 1728, Nəsəi 3/173. İmam Sənani – *rahmətullahi aleyhi* - deyir ki: "Bu hədis açıq-aydın dəlildir ki, istənilən heyvanın dərisi aşılandıqdan sonra çöl və içəri tərəfdən təmizlənmiş olur. Buna da "***İstənilən dəri***" sözləri əyani sübutdur". "Subus Salam" 1/42. Bu da dəri barəsində olan 7 rəydən ən doğrusudur. Bu rəydə həmçinin olmuşlar: Əli b. Abu Talib, İbn Məsud, Davud, Abu Yusuf, Sanani, Şovkani və Şeyx əl-Albani – *Allah onlardan razı olsun* -. Bəzi alimlər qeyd edirlər ki: Hədisdə söhbət yalnız əti yeyiləsi heyvanların dərisindən ***"İhab"*** gedir. Lakin bu sözlərin heç bir əsası yoxdur. Necə ki, bu haqda İmam Şovkani – *rahmətullahi aleyhi* - "Neylul Əvtar" da qeyd edir: "Hədisi bu cür anlamaq Nadr b. Şamilin dediklərinə də ziddir. ***İhab*** **–** aşılanmış dəridir. Bu da ən səhih olan rəydir. Dilçilər də öz kitablarında buna işarə etmişlər. əs-Səhih, Qamus, Nihayə və s. Əgər biz bu kitablar yönəlmiş olsaq ***İhab*** – sözünün yalnız yeyilməsi icazə verilən heyvanların dərisi olmadığını görərik". Bütün bu deyilənlərdən aydın olur ki, istənilən növ heyvanın dərisi aşılandıqdan sonra təmiz sayılır. Qadağa yalnız vəhşi köpək dişləri olan heyvanların dərilərindən istəfadə etməyə gəlib.

da səhabələrin söz və əməllərinə əsaslanaraq deyilən ən səhih rəydir. “Əhkamul Quran” 1/168, “Bahrur Raik” 1/112. Ömər – *radıyallahu anhu* - dan ölü (leş) heyvanın mədəsindən götürülərək tərkibinə qursaq qatılmış pendir barəsində soruşdular o: “Allahın adını zikr edərək yeyin” deyə cavab verdi”. İbn Əbi Şeybə 5/130, AbdurRazzaq 4/538, İmam Əhməd “Səhih”. Həmçinin: Təlhə b. Ubeydullah – *radıyallahu anhu* – bıçaq ilə bir dilim pendir kəsdi və Allahı adını zikr edərək yedi”. İbn Əbi Şeybə 5/131. ***Həmçinin:*** Salman Farisi və Həsən b. Əli – *radıyallahu anhum* – dan belə rəvayətlər varid olmuşdur. İbn Teymiyyə – *rahmətullahi aleyhi* - deyir ki: “Bütpərəstlərin hazırladıqları pendiri yemək olar. Çünki səhabələr İraqı istila etdikləri (aldıqları) zaman atəşpərəstlərin pendirlərini yeyirdilər”. “Məcmuu Fətava” 21/101.

## *Köpək Dişi Olan Heyvanların Yeyilməsi Qadağandır*

Əbu Hureyrə – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Köpək dişi olan vəhşi heyvanların yeyilməsi qadağandır”. Müslim 1933. Bura daxildir: Aslan, Pələng, Canavar, Tülkü, Ayı, Fil və s. İmam Əhməd – *rahmətullahi aleyhi* - deyir ki: “Fil müsəlmanların qidasından sayılmaz”. “Əhkamu Zəbaih” 139.

Bu qadağadan istisnadır Kaftar (Goreşən): İbn Əbu Ammar rəvayət edir ki, bir Cabir – *radıyallahu anhu* - dan soruşdum: “Kaftarı ovlamaq olarmı?”. O: “Bəli” dedi. Mən: “Allahı Rəsulu buna icazə veribmi?”. O: “Bəli” deyə cavab verdi. Əbu Davud 3801, Tirmizi 851, Nəsəi 5/191, əl-Albani “Səhih”[27].

---

***Həmçinin:*** Qadağandır köpək dişləri olan heyvanların dərisindən istifadə etmək geyimdə və üstündə oturmada. Valid b. Əbu Malik – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – qadağan edib vəhşi heyvanların dərisindən istifadə etməyi”. Həkim, əl-Albani “Səhih Cəmi” 6953, “Subus Salam” 1/42-44, Şovkani “Neylul Əvtar” 1/55-59, əl-Albani “Samrul Mustatab” 1/34. Huzeyfə – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – qızıl və gümüş qablardan içməyimizi, yeməyimizi, ipək və atlas geyinməyimizi və bunların üzərində oturmağımızı bizə qadağan etdi”. Buxari 5232. Muaviyə – *radıyallahu anhum* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ipək və pələng dərisi ilə örtülmüş miniklərə minməyimizi qadağan etdi”. Əbu Davud 4129. Əbu Məlih atasından rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – vəhşi heyvanların dərilərindən istifadə etməyi qadağan etmişdir (Başqa rəvayətdə: Yataqları bəzəməyi də qadağan etmişdir”). Əbu Davud 4132, Tirmizi 1771, Nəsəi 7/176.

[27] Kaftarın qadağan olunması barəsində Tirmizidə gələn hədis isə zəifdir.

İcazəlidir yemək ev və çöl dovşanını: Ənəs – *radıyallahu anhu* - rəvayət edir ki, günlərin birində insanlar Marr az-Zahranədə dovşanı qovaraq tutmaq istəyirdilər. Lakin yorulub əldən düşdülər. Mən isə qaçaraq onu tutdum. Dovşanı Əbu Təlhə – *radıyallahu anhu* - nun yanına gətirdim. Əbu Təlhə – *radıyallahu anhu* - onu kəsərək budunu (arxa ayaqlarını) Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – göndərdi". Buxari 2672, Müslim 1953.

Bir gün Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in yanında kirpi barəsində söz etdilər. Peyğəmbər: "Bu – nə isə iyrənc (pis bir) şeydir". Əhməd, Əbu Davud, Beyhəqi, İbn Həcər "Zəif" hədis. İmam Sənani – *rahmətullahi aleyhi* - deyir ki: "Bu məsələdə səhih rəy kirpi ətinin yeyilməsini icazə verən alimlərin rəyidir. Çünkü kirpi ətinin yeyilməsini qadağa edən səhih dəlilin olmamasıdır. Bu məsələdə özül (təməl) odur ki, hər bir şey halaldır, qadağan olunandan başqa". "Subus Salam" 4/108.

## *Caynaqlı Quşların Yeyilməsi Qadağandır*

İbn Abbas – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – köpək dişi olan vəhşi heyvanların və caynaqlı quşların yeyilməsini qadağan etmişdir". Müslim 1934. Bura daxildir: Qartal, Qırğı, Şahin, Qızılquş və s.

Toyuğun caynaqları olsa da belə yeyilməsi icazəlidir. Əbu Musa – *radıyallahu anhu* - rəvayət edir ki, mən Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in toyuq yediyini gördüm". Buxari 5517, Müslim 1649.

Bura aiddir: Sərçə, göyərçin və s. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Sərçə kəsdiyi zaman belə rəhmli olan kimsəyə Allah Qiyamət günü rəhm edər". Təbərani "Kəbir" 7915, əl-Albani "Həsən".

## *Ev Eşşəyi, Qatır, At*

Cabir – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Xeybər günü ev eşşəklərinin ətini yeməyi qadağan, atın ətini isə halal etdi". Buxari 4219, Müslim 1941. Vəhşi çöl eşşəklərinə gəldikdə isə onların yeyilməsinə icazə verilmişdir. Əbu Qatədə – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən soruşdum: "Ya Rəsulallah! Biz ovda vəhşi çöl eşşəyini ovladıq və əti hələ də bizdə qalmaqdadır". Peyğəmbər: "Qalan ətidə yeyin (Başqa rəvayətdə: Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – onun ətindən yemişdir)". Buxari 1824, Müslim 1196. Cabir b. Abdullah – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Xeybər günü eşşək ətini, Qatırı, köpək dişi olan vəhşi heyvanları və caynaqlı quşların ətini yeməyi qadağan etmişdir". Əhməd 3/323, Tirmizi 4/61.

İmam Nəvəvi – *rahmətullahi aleyhi* - deyir ki: "İmam Şafii – *rahmətullahi aleyhi* - və Şafii məzhəbindən olanlardan bir qrupu Qatırı və eyni zamanda bu yolla əmələ gəlmiş heyvanların (Mələz – hibrit, iki müxtəlif cinsli növün və ya sortun cütləşməsindən əmələ gələn heyvan və ya bitki) yeyilməsini qadağan edirdilər...". "Məcmua" 9/27.

Əsmə b. Əbu Bəkr – *radıyallahu anhə* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in zamanında biz Mədinədə at kəsib yedik". Buxari 5511,5512, Müslim.

## *Müxtəlif Həşəratlar və Meymun*

İmam Şafii, Əhməd və s. alimlər bu ayəyə əsaslanaraq: ***"(O** Peyğəmbər) **onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz** (pak) **nemətləri halal, murdar** (napak) **şeyləri haram edər...".*** (əl-Əraf 157). Qadağan ediblər yemək: Milçək, Ağcaqanad, Hörmüçək, Eşşəkarısı və s. Çəyirtkə istisnadır: Abdullah b. Auf – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ilə bərabər yeddi (altı) döyüşdə iştirak etdik, hamısında da çəyirtkə yemişdik". Buxari 5495, Müslim 1952.

Hafiz b. AbdulBər – *rahmətullahi aleyhi* - deyir ki: "Meymunun satılmasının və yeyilməsinin qadağan edilməsi barəsində biz alimlər arasında heç bir fikir ayrılığı olduğunu bilmirəm". "Şərhul Kəbir" 11/68.

## *Heyvanları Mələz Etmək*

İbn Ömər – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – atları və digər heyvanları mələz etməyi qadağan etmişdir (Mələz – hibrit, iki müxtəlif cinsli növün və ya sortun cütləşməsindən əmələ gələn heyvan və ya bitki)". İmam Əhməd.

## *Heyvanları Döyüşdürmək*

Mücahid – *radıyallahu anhu* - rəvayət edir ki, İbn Ömər – *radıyallahu anhu* – heyvanları döyüşdürməyi yaxşı işlərdən saymazdı". Buxari "Ədəbul Mufrad" 1232. Əbu Məsud əl-Ənsari – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – itdən gələn gəliri (ticarətindən, döyüşdürməkdən), zinakarın qazancını və kahinlikdən gələn pulu götürməyi (xərcləməyi) qadağan etmişdir". Buxari 2237, Müslim 1567.

## *Xoruza Söymək*

Zeyd b. Xalid əl-Cuheyni – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Xoruzu söyməyin. Çünki o, namaza oyadır". Əbu Davud 5101.

## *Öldürülməsi Əmr Olunan Hər Bir Şeyin Yeyilməsi Də Qadağandır*

Aişə – *radıyallahu anhə* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Canlı məxluqların beş növü vardır ki, onların hər biri zərər gətirər. Bu səbəbdən də onları həm Haram olan torpaqda (Məkkədə), həm də ondan kənarda öldürmək olar. Onlar – Əqrəb, Çalağan, Qarğa, Siçan və vəhşi İtdir". Buxari 3314, Müslim 1198.

Həmçinin hədislərdə öldürülməsi əmr olunanlar içərisində: Qara it, Kərtənkələ, İlan və s. əmr edilmişdir.

Sad b. Əbu Vaqqas – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – kərtənkələlərin[28] öldürülməsini əmr etdi". Müslim 2238. Lakin bu hədisdə söhbət kiçik həcimli kərtənkələlərdən gedir. O, ki qaldı böyük kərtənkələ sayılan Varana onu yemək olar. İbn Ömər – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən Varanın yeyilməsi barəsində soruşdular. O: "Mən onu yemirəm, lakin qadağan da etmirəm". Buxari 5536, Müslim 1943.

Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "İlan və əqrəb öldürün. Hətta namazda olsanız da belə". "Səhihul Cəmi" 1151. Lakin əgər İlan evə daxil olubsa onu öldürmək olmaz. Çünki Cin ola bilər. Buna görə də üç gün ərzində onun evdən çıxmasını tələb etmək lazımdır. Çıxmadığı təqdirdə onu öldürmək olar. Çünkü o, şeytandır. Aişə – *radıyallahu anhə* - rəvayət edir ki, Cəbrail - *əleyhissəlam* – gəlməsi haqqında Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ə söz verdi. Nəhayət vəd edilən vaxt gəldikdə, lakin Cəbrail - *əleyhissəlam* – hələdə gəlməmişdi. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – əlində dəyənək olduğu halda gözləməkdə idi. Dəyənəyi əlindən atdı və: "Allah vədindən dönməz, Rəsulları da dönməzlər" deyə buyurdu. Sonra arxa tərəfə döndükdə çarpayının altında bir köpək balasını gördü. O: "Ya Aişə! Bu köpək bura nə vaxt girmişdir?" deyə buyurdu. Aişə: "Allaha and olsun ki, bilmirəm" dedi. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – köpəyin çıxarılmasını əmr etdi, o da çıxartı. Ondan sonra Cəbrail - *əleyhissəlam* – gəldi. Peyğəmbər: "Mənə vəd etdiyin vaxt gələcəyini bildirmişdin, mən də

---

[28] İbrahim - *əleyhissəlam* – oda atıldığı zaman bütün heyvanlar kömək məqsədilə odun söndürülməsinə çalışırdılar. Yalnız sürünənlərdən olan kərtənkələdən başqa. Əbu Hureyrə – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Kim kərtənkələni bir zərbəyə öldürərsə ona yüz savab. Kim iki zərbəyə öldürərsə ona birincinin yarısı qədər (əlli savab), kimdə üç zərbəyə öldürərsə ona da ikincinin yarısı qədər savab yazılar". Müslim.

səni gözlədim, lakin gəlmədin” deyə buyurdu. Cəbrail: “Mənim gəlməyimin qarşısını evində olan köpək almışdır. Biz mələklər içində köpək və surət olan evə girmərik (Başqa rəvayətdə: Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – o, günü səhərə qədər itlərin öldürülməsini əmr etdi. Hətta o, dərəcəyə çatdı ki, kiçik baxçaları qoruyan itlərin də öldürülməsini əmr edir, böyük baxçaları qoruyan itlərə isə dəymirdilər)[29]». Müslim 2104,2105.

---

[29] Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Önündə palan (sütrə) olmayan bir kimsənin namazını həddi-buluğa çatmış qız, ulağ və (qara) it poza bilər”. Əbu Zərr: “Ya Rəsulallah! Qara itlə, qırmızı itin nə fərqi nədir?” deyə soruşdum. Peyğəmbər: “Qara it şeytandır” deyə buyurdu. Müslim, Əbu Davud. İbn Ömər – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Hər kim ov itindən, qoyun itindən və ərazini qorumaq üçün saxlanılan itdən başqa (məqsədlər) üçün saxlayarsa hər gün o, kimsənin savabından iki qrat savab azalar”. Buxari 2322, Müslim 1575,1559, 2104. İbn Ömər – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – köpəklərin öldürülməsini əmr edərkən buyurdu: “İlanları və Köpəkləri öldürün. Xüsusən də ilanlardan üzərində iki ağ cizgili cinsi ilə və bir də ən pisi olan quyruqsuz (Zınqırov) ilanını öldürün. Çünki ilanların bu iki cinsi gözün nurunu aparır və hamilə qadının uşağının düşməsinə səbəbdir”. İbn Ömər – *radıyallahu anhu* – bütün ilanları öldürürdü. Əbu Lubadə əl-Bədri, İbn Ömər – *radıyallahu anhu* – ya: “Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ev ilanlarını öldürməyi qadağan etmişdir hədisini rəvayət etdikdən sonra o, da bu əməlindən vaz keçdi”. Müslim 2233. Zəməhşəri – *rahmətullahi aleyhi* - deyir ki: “Cann cinlərin atasıdır. Adəm də bütün bəşəriyətin atasıdır. Cann xüsusi bir qövmdür ki, insanlardan əvəl yaradılmışdır. Canın bir növü də ilan adıdır ki, gözləri qara və əksər evlərdə dolaşırlar və heş kimə də zərər verməzlər”. İbn Məsud – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ilə bərabər Minada bir mağarada idik (Başqa rəvayətdə: Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Ehramlı halda Minada bir ilan öldürülməsini əmr etmişdir). Bu vaxt ona ***Vəl Mursələti Urfə*** - surəsi nazil olmuşdur. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in ağzından ilk alan kimsələr idik. Bu an birdən-birə üstümüzə bir ilan gəldi. Peyğəmbər: “Bu ilanı öldürün” deyə buyurdu. Biz də onu öldürməyə çalışdıq, lakin ilan qaçdı. Peyğəmbər: “Allah sizləri ilanın şərrindən qoruduğu kimi ilanı da sizin şərrinizdən qorudu” deyə buyurdu. Müslim 2234,2235. Əbu Səid əl-Xudri – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Mədinədə müsəlman olmuş cinlərdən bir camaat vardır. Hər kimi evində uzun ömürlü ev ilanları varsa onlardan bir şey gördükdə üç gün elan edib qovun (Başqa rəvayətdə: Üç dəfə qovun). Gedərsə nə gözəl, əgər bundan sonra da sizə görsənərsə artıq onu öldürün. Çünki o, şeytandır”. Müslim 2236.

***Həmçinin:*** Əbu Məsud əl-Ənsari – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – itdən gələn gəliri (ticarətindən, döyüşdürməkdən), zinakarın qazancını və kahinlikdən gələn pulu götürməyi (xərcləməyi) qadağan etmişdir”. Buxari 2237, Müslim 1567. Əbu Zubeyr – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – it və pişiyin qazancını qadağan etmişdir". Müslim 1569, Əbu Davud 3479, Tirmizi 1279. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Qazancın ən şərlisi fahişənin qazancı, itdən olan qazanc və (beldən qan alanın) Hicamaçının qazancıdır". Müslim 1567. Əbu Hureyrə – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* –: "İtdən gələn gəliri qadağan etdiyi halda ov iti müstəsnadır" deyə buyurdu. Tirmizi 1281, əl-Albani "Həsən", Nəsəsi 7/309. H. 4806. Bir çox alimlər qadağan etdiyi halda, digərləri ov, qorumaq məqsədilə icazə vermişlər. İbn Qeyyim "Zədul Məad". *Allah Daha Doğru Bilir*!

Kəb b. Məlik – *radıyallahu anhu* - nun qızı Kəbşə rəvayət edir ki, Əbu Qatadə – *radıyallahu anhu* - nun oğluna nigahlanmışdım. Əbu Qatadənin yanına gəldim və ona dəstəmaz suyu gətirdim. Bu an bir pişik gələrək o, sudan içməyə başladı. Əbu Qatadə qabı əydi və pişik suyu içib bitirdi. Əbu Qatadə mənim ona baxdığımı gördükdə: "Ey qardaşımın qızı! Təəccübləndinmi?" dedi. Mən: "Bəli" dedim. O: "Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: Pişik nəcis deyildir, o ətrafımızda dolaşan bir heyvandır" deyə buyurdu. Əbu Davud 75, Nəsəi 67, Tirmizi 92, İbn Məcə 367, əl-Albani "Səhih". Əbu Hureyrə – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Birinizin qabından it su içərsə (və ya o, qaba ağzını soxarsa) o, qabı boşaltsın və birincisi torpqla olmaq şərtilə 7 dəfə yusun (Başqa rəvayətdə: İt bir qaba ağzını soxarsa onu 7 dəfə yuyun, 8-ci dəfə isə torpaqla ovun)". Müslim 279, Əbu Davud "Taharət" 37. Əbu Hureyrə – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "İtin yaladığı qab əvvəldə və ya sonda torpaqla olmaq üzərə 7 dəfə yuyulur. Pişiyin yaladığı qab isə bir dəfə yuyulur". Tirmizi 91, Nəsəi 63, əl-Albani "Səhih".

***Həmçinin***: Şərab barəsində də hökük bu cürdür: Bir kimsə Üzüm bağlarını onlardan şərab düzəldiləcək deyə qoruyarsa qadağandır. Lakin digər məqsədlər üçün istifadə edilərsə heç bir beis yoxdur. Həmçinin müsəlman bir kimsənin şərab daşıması (hər-hansısa bir dükandan alması), donuz daşıması qadağan edilmişdir. Bunun müqabilində zəhmət haqqı da almamalıdır. Bəzi alimlər isə zəhmət haqqının ödənliməsini də söyləyirlər. Çünki Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – şərab üçün üzüm suyunu sıxana və sıxdırana da lənət etmişdir. Halbuki o, kimsə sadəcə üzüm sıxmışdır. Lakin bunu edərkən onu şərab üçün istifadə ediləcəyini bilərsə lənəti qazanmış olar. Həmçinin bu işdə Allahı qəzəbləndirən bir əmələ vasitəçilik də vardır. İbn Qeyyim "Zədul Məad".

***Həmçinin***: Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – hicamaçının qazancının pis olduğunu və sahibinə o, qazancını dəvəsinə və kölısinə yedirtməsini əmr etmişdir". Əbu Davud 3422, Tirmizi 1277, İbn Məcə 2166, əl-Albani "Səhih".

## *Öldürülməsi Qadağan Olunan Hər Bir Şeyin Yeyilməsi Də Qadağanır*

İbn Abbas – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – qarışqanın, arının, şanapipik (hop-hop, hüd-hüd, şinəbub), hörümçək quşu (sərçə fəsiləsindən bir quş) öldürülməsini qadağan etmişdir". Əhməd 1/332, Əbu Davud 5267, əl-Albani səhih. Əbu Hureyrə – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "(Ağac altında dincələn) Peyğəmbərlərdən birini bir qarışqa dişlədi və o, qarışqa yuvasının yandırılmasını əmr etdi. Allah Peyğəmbərə: "Bir qarışqanın səni dişləməsindən ötrü Allahı təsbih edən ümmətlərdən bir ümməti həlak etdin?" deyə vəhy etdi. Müslim 2241. Qadağndır öldürmək: Şanapipiyi, Hörmüçək quşu, Arı, Qarışqa, Quru və su qurbağasını.

İmam Beyhəqi – *rahmətullahi aleyhi* - deyir ki: "Bu hədis açıq-aydın dəlildir ki, öldürülməsi qadağan olunan heyvanların yeyilməsi qadağandır. Əgər bunların yeyilməsinə icazə verilsəydi Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – onların öldürülməsini qadağan etməzdi". "Subus Salam" 4/107.

AbdurRahman b. Osman rəvayət edir ki, bir Təbib Allahın Rəsulu – *sallallahu aleyhi və səlləm* – dən qurbağanı öldürərək ondan dərman hazırlanması barədə soruşduqda o: "Qurbağanı öldürməyi qadağan etdi". Əhməd 15197, Darimi 1998. Abdullah b. Amr – *radıyallahu anhu* – deyir ki: "Qurbağaları öldürməyin. Çünki onların vaqqıltısı (qurultusu) Allahı mədh etmələridir". Beyhəqi "Sunənul Kubra" 19166.

---

Digər tərəfdən isə: Humeyd rəvayət edir ki, Ənəs b. Məlik – *radıyallahu anhu* - da Hicamanın qazancı barədə soruşuldu. O: "Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – qan aldırdı. Qanı alan Əbu Taybe idi. Ona iki mudd miqdar buğda (xurma) verdi. Peyğəmbər: "Ən gözəl müalicə üsulu Hicama və hind buhurudur. Uşaqlarınızın (boğazlarına) sıxmaqla işkəncə verməyin" deyə buyurdu. Müslim 1577. Bu iki hədisin arasını cəm etmək bir çox fəqihlərdə problem olmuşdur. Bəziləri ikinci rəvayətin birincinin hökmünü qaldırdığını söyləmişlər. Hicamaçının qazancı pisdir – sözüylə Verilməsi pisdir deyilməmişdir. Pisliyi alan üçündür (tələb edən). Bu halda onun qazancı pis olur, haram olmaz. Necə ki, soğan və sarmsaq üçün də pisdir deyilmişdir. Lakin yeyilməsi mübahdır. Qısaca Hicamaçını qazancının pis olması soğan və sarmısağın pis olması kimidir. Lakin birinin qoxusu pisdir, digərinin isə qazanc səbəbi pisdir. İbn Qeyyim "Zədul Məad".

## *Nəcasət Yeyən Heyvanın Yeyilməsi Qadağandır*

İbn Ömər – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – nəcasət yeyən heyvanların ətini yeməyi və südünü içməyi nəhy (qadağan) etmişdir". Əbu Dvaud 3719, Tirmizi 1825, Həkim. İbn Ömər – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – pis (təmiz olmayan) bir şeyi yeyən dəvəyə minməyi belə qadağan etmişdir". Əbu Davud 2558,3769, Nəsəi 4337.

Bura həmçinin yeyilməsi halal olan digər heyvanlar: Dəvə, İnək, At, Toyuq, Qoyun və s. aiddir. Bu cür nəcis yeyən heyvanları minikdə istifadə etmək, yemək, satmaq olmaz onlar təmiz yem yeyib təmizlənənə qədər. Toyuğun təmizlənməsi üç gün toyuq hinində saxlanmaqla olur. Necə ki, bunu İbn Ömər – *radıyallahu anhu* – edirdi. İbn Əbi Şeybə 4660. Böyük mal-qara heyvanlarına gəldikdə isə onların təmizlənməsi qırx gün ərzində olur. "Səhih Fiqh Sunnə" 2/344.

## *Satılması Qadağan Olunan Hər Bir Şeyin Yeyilməsi Də Qadağandır*

Əbu Zubeyr – *radıyallahu anhu* – deyir ki, Cabir – *radıyallahu anhu* – dan it və pişiyin satışı barəsində soruşdum". O: "Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bunu qəti olaraq qadağan etdi".Müslim 1569.

Cabir b. Abdullah – *radıyallahu anhu* – rəvayət edir ki, Məkkənin fəthi günü Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Məkkədə idi və o buyurdu: "Həqiqətən Allah və Rəsulu içkini, murdar (ölmüş) heyvanın (leşini), donuzun və bütlərin satışını haram etmişdir". Buxari 2236, Müslim 3/71, Səhih Əbu Davud 977. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Allah bir şeyi haram etdikdə (onun satışını) ondan gələn gəliri də haram edir". Səhih Əbu Davud 3488, Daraqutni 3/7.

## *Açıq-Aydın Bədənə Ziyanı Olan Hər Bir Şeyin İstifadə Edilməsi Də Qadağandır*

***"Ey iman gətirənlər! Qarşılıqlı razılıqla edilən alış-veriş müstəsna olmaqla, bir-birinizin mallarını haqsız bəhanələrlə** (haqsız yerə) **yeməyin və özünüzü öldürməyin! Həqiqətən, Allah sizə qarşı mərhəmətlidir!".*** (ən-Nisa 29). Ubadə, İbn Abbas, Abu Səid, Aişə, Əbu Hureyrə və Cabir – *Allah onlardan razı olsun* – rəvayət edirlər ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Özünə və başqalarına zərər vurma". Əhməd 5/326, İbn Məcə 2340, Təbərani 1/163, əl-Albani səhih.

İmam İbn Həzm – *rahmətullahi aleyhi* - deyir ki: "Nə ki, açıq-aydın sağlamlığa zərərdi qadağandır və nə ki, sağlamlığa zərəri yoxdur istifadəsi icazəlidir". "Muhəllə" 7/430.

## Nəcis Sayılan Hər Bir Şeyin İstifadəsi Qadağandır

İbn Həzm – *rahmətullahi aleyhi* - deyir ki: "Alimlər ittifaq ediblər ki, nəcis olan hər bir şeyin yeyilməsi və içilməsi qadağandır". "Maratibul İcma" 39. İbn Teymiyyə – *rahmətullahi aleyhi* - deyir ki: "Nəcis olan hər bir şeyin yeyilməsi qadağandır, lakin nə ki, qadağan olunmuşsa onların hamısı nəcis deyildir". "Məcmuu Fətava" 21/542.

## Heyvanla Yaxınlıq Edən

Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Kim heyvanla yaxınlıq edərsə onu da, heyvanı da öldürün". Buluq əl-Məram 1214, Əbu Davud 4464, Tirmizi 1455, İbn Məcə 2564, Həkim 4/355, Beyhəqi 8/274, Musnəd 1/269.

## Zərurət Halında (Ehtiyaci Ödəyənə Qədər) Haram Olan Şeylərin Yeyilməsinə Rüxsət Verilməsi

"***O*** *(Allah)* ***sizə ölmüş heyvanı,*** *(axar)* ***qanı, donuz ətini və Allahdan başqasının adı ilə*** *(bütlərin və s. adı ilə)* ***kəsilənləri*** *(yeməyi)* ***qəti haram etmişdir. Lakin naəlac qaldıqda*** *(başqasının malını)* ***zorla mənimsəmədən və həddi aşmadan*** *(zəruri ehtiyacı ödəyənə qədər)* ***bunlardan yeməyə məcbur olan kimsənin heç bir günahı yoxdur. Allah bağışlayandır, mərhəmətlidir!".*** (əl-Bəqərə 173). Bu və digər ayələrdən belə nəticə çıxır: ***əd-Darura Tubihul Mahzurat*** – zərurət qadağanı icazə verilən edir. Lakin hər bir zərurət də ehtiyac sayılmır. İbn Munzir – *rahmətullahi aleyhi* - deyir ki: "Alimlər ittifaq ediblər ki, zərurət halında ölü (leş) heyvanı yemək belə icazəlidir". "İcma" 102.

AbdurRahman əs-Sədi – *rahmətullahi aleyhi* - bu ayəsinin təfsirində deyir ki: "Allah bu ayədə haram olan şeyləri sadalıyaraq insanlığa rəhmətini göstərmiş və onları zərərdən qorumuşdur. Lakin buna baxmayaraq insan zərurət halında (yemək olmadığı) halda aclıq zamanı, məcburiyyət qarşısında qalaraq bu şeyləri yeyərsə bunda günah yoxdur. Lakin bu halda o, haramı arzu etməməli, zəruri ehtiyacını ödədiyindən artıq yeməməli, israf etməməlidir. Buna görə də insana qadağan edilmişdir özünü aclığa məruz qoyaraq əziyyət verməsi və həlak etməsi. Vacibdir ki, aclığını ödəsin. Əgər özünü aclıqla ölüm həddinə çatdırarsa bu zaman özünə qəsd etmiş sayılar...". "Taysirul Kərimul Rahmən" 68.

## *Səbəbsiz Yerə Heyvanları Öldürmək Qadağan Edilmişdir*

İbn Ömər – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "İnsanlardan bir kimsə haqqı olmadığı halda bir sərçəni belə öldürərsə mütləq Qiyamət günü bu haqda soruşulacaqdır". Onlar: "Ya Rəsulallah! Onun haqqı nədir?" deyə soruşdular. Peyğəmbər: "Kəsib yemək, başını kəsib tullamamaq". Nəsəi 7/239, Əhməd 4/389, əl-Albani "Səhih Tərğib" 1/631.

## *Qurbanlıq Heyvanlarına Qarşı Mərhəmətli Olmaq*

İbn Abbas – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – (ona baxdığı halda) ayağını qoyunun üzünə qoyaraq bıçağını itləyən bir kimsənin yanından keçirdi. Peyğəmbər: "Nə üçün sən öz bıçaqını heyvanı yerə yıxmamışdan öncə itləməmişdin. Məgər sən onu iki dəfə öldürmək istəyirsən". Təbərani "Kəbir" 3/140, "Əvsat" 1/31, əl-Albani səhih.

Əbu Yəla Şəddad b. Əus – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Şübhəsiz ki, Allah hər bir şeydə ehsanı yazmışdır. Bu baxımdan da öldürdüyüünüz zaman gözəl şəkildə öldürün. Kəsdiyiniz zaman gözəl bir şəkildə kəsin. Sizdən (heyvanı kəsən şəxs) bıçağını yaxşıca itləsin və kəsəcəyi heyvanı rahatlasın". Müslim 1955. Bəra b. Azim – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ayağa qalxaraq buyurdu: "Dörd cür heyvandan qurban kəsmək olmaz: Bir gözü kor, xəstə, axsaq və qoca olan heyvanı...". "Buluq əl-Məram" 1351. Əli – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – mənə onun qurbanlıq heyvanlarına baxmağımı və bu heyvanların ətlərini, dərilərini kasıblara paylamağı və qəssablara bu heyvanlardan heç bir şey verməməyi əmr etdi". "Buluq əl-Məram" 1354. Əbu Umamə – *radıyallahu anhə* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Kim bir qurbanlıq heyvanına rəhm edərsə Allah da Qiyamət günü ona rəhm edər". Buxari "Ədəbul Mufrad" 381.

## *Ümumiyyətlə Heyvanlara Qarşı Mərhəmətli Olmaq*

İbn Ömər – *radıyallahu anhu* - bir gün canlı bir quşu (toyuğu) hədəf edərək ox atan Qureyşli cavanların yanından keçirdi. Hədəfə dəyməyən hər bir ox qarşılığında quşun sahibinə bir ox verirdilər. Cavanlar İbn Ömər – *radıyallahu anhu* - nu gördükdə dağılışdılar. İbn Ömər: "Kim bunu edib? Allah bunu edənə lənət etsin. Çünki Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – canlı bir heyvanı hədəf edəni lənət edib". Buxari 5515,

Müslim 1958. Ənəs – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – heyvanları hədəf edib öldürmək üçün saxlamağı qadağan etmişdir". Buxari 5513, Müslim 1956. İbn Ömər – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Bir qadın evində həps etdiyi pişiyə görə Cəhənnəmə düşdü. Pişiyi həps edərək nə yemək vermiş, nə də onun özü üçün ov etməsinə izn vermişdir (Başqa rəvayətdə: "Fahişə bir qadın isti bir gündə quyunun ətrafında fırlanan və süsüzlüqdan dilini çıxarmış bir köpək gördü. Qadın ayaqqabısını çıxarıb (quyudan su götürərək) köpəyə verdi. Bu səbəblə qadın bağışlandı". Müslim 2242, 2245. Əbu Hureyrə – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Bir kişi yolla gedərkən susadı. O, bir quyu tapıb içinə güşdü. Doyunca su içib bayıra çıxdıqda bir itin ləhlədiyini, susuzluqdan yaş torpaq yaladığını görüb öz-özünə: "Mən susadığım kimi bu it də susamışdır – deyib quyuya düşüb ayaqqabılarını su ilə doldurdu. Sonra onu ağzı ilə tutub (quyunun divarlarından yapışaraq yuxarı qalxıb) itə su verdi". Allah onu (bu əməlinə görə) bağışladı. Səhabələr: "Ey Allahın Rəsulu! Heyvanlara görə də bizə savab vardır?" deyə soruşdular. Peyğəmbər: "Hər bir canlıya edilən yaxşılığa görə savab vardır" deyə buyurdu. Buxari 5515, Müslim 1958. Buxari "Ədəbul Mufrad" 379. Abdullah – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bir yerə qonaq gəlmişdi. Bir nəfər sərçənin yumurtasını götürmüşdü. Sərçə gəlib Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in başı üzərində qanad çalmağa başladı. Peyğəmbər: "Hansınız bu quşun yumurtasını götürməklə ona əziyyət vermisiniz?" deyə buyurdu. Bir nəfər: "Ey Allahın Rəsulu! Onun yumurtasını mən götürmüşəm" dedi. Peyğəmbər: "Quşa rəhm etmək üçün (yumurtanı) yerinə qoy" deyə buyurdu. Buxari "Ədəbul Mufrad" 382. İbn Məsud – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ilə birlikdə səfərlərin birində idik. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ehtiyacı üzündən bizdən ayrıldı. İki balası olan bir quş gördük. Quşun balalarını götürdük. Anası başımızın üzərində dolaşmağa başladı. Geri qayıdan Peyğəmbər – *sallallahu aleyhi və səlləm* –: "Balalarını götürərək bu heyvana əziyyət verən kimdir? Balalrını ona qaytarın" deyə buyurdu. (yenə bir səfərdə) Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – yandırdığımız qarışqa yuvasını gördü. Peyğəmbər: "Bu yuvanı kim yandırmışdır" deyə buyurdu. Biz yandırdıq – dedik. Peyğəmbər: "Heç kimsənin atəşlə əzab verməsi düzgün deyildir. Atəşlə yalnız atəşin Rəbbi Allah əzab edir" deyə buyurdu. Əbu Davud 2675. Cabir – *radıyallahu*

*anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bağlı olan heyvanı daşqalaq edərək öldürməyi qadağan etmişdir". "Buluq əl-Məram" 1328.

## Ov Iti Və Onun Hökmü

Əgər qurbanlıq heyvanı kəsilən zaman qaçarsa və ya ov zamanı qaçan heyvana Allahın adını zikr edərək atəş açılarsa bu zaman güllə harasına dəyməsindən aslı olmayaraq yeyilməsi halaldı, hətta ölsə də belə. Rafii b. Hədic – *radıyallahu anhu* - rəvayət edir ki, bir gün Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ilə birlikdə Zul Huleyfə adlanan yerdə idik. Dəvələrdən biri qaçdı. Həmən anda atları olmadığı üçün insanlar onun ardıyca qaçmağa başladılar, lakin yorulub əldən düşdülər. Orada olanlardan biri dəvəyə ox atdı və Allahın izni ilə dəvə dayandı. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Həqiqətən bu heyvanlardan bəziləri vəhşiləşərək vəhşi heyvanlara bənzəmişlər. Əgər onlardan hər hansı biri sizə itaət etməzsə onunla bu cür rəftar edin". Buxari 2448, Müslim 1986.

Adiy b. Hatim – *radıyallahu anhu* - rəvayət edir ki, bir gün Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən lələkli ox vasitəsilə öldürülmüş ov quşu barəsində soruşdum o: "Oxun iti tərəfi ilə öldürülmüş şikarı yemək olar, o ki, qaldı oxun saplağıyla vurularaq öldürülmüş heyvana bu – Vaqizdir (İti tərəfi olmayan daş, ağac və ya ucu iti olmayan bir şeylə öldürülmüş heyvan. Bu cür əti yemək haramdır "Vaciz" 1/404)". Sonra Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən ov iti vasitəsilə öldürülmüş ov quşları barəsində soruşdum o: "Sənin üçün ovladığı şeyi yeyə bilərsən, çünki bu kəsilmiş heyvanın hökmündədir. Əgər itinin yanında başqa bir iti də görsən və səndə şübhə yaransa ki, o da sənin itinlə bərabər bu ovda iştirak edib və ov quşunu parçalayıb, onda bu ətdən yemə. Çünki sən Allahın adını yalnız öz itinin üzərində zikr edərək buraxmısan, digər itin üzərində yox". Buxari 5375, Müslim 3/1529. "Buluq əl-Məram" 1335.

Əbu Sələbə əl-Xuşani – *radıyallahu anhu* - rəvayət edir ki, bir gün Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən: "Ya Rəsulallah! Biz Kitab Əhlinin hakimiyyəti altında olan torpaqlarda yaşayırıq. Onların qab-qacaqlarından yeməkdə istifadə edə bilərikmi? Həmçinin bu torpaqlarda çoxlu ov quşları olduğu üçün biz oxlar vasitəsilə, həmçinin öyrədilmiş ov itləri və öyrədilməmiş ov itləri ilə də ov edirik. Bunlardan hansını mən yeyə bilərəm". Peyğəmbər: "Kitab Əhlinə gəldikdə əgər başqa bir şey tapa bilərsinizsə onların qablarından istifadə etməyin. Əgər tapa bilməsəniz onların qablarını yuyub istifadə edin. Sən Allahın adını zikr edərək öz

oxun vasitəsilə və öyrədilmiş ov iti vasitəsilə ovladığın ov quşlarının ətini yeyə bilərsən. Həmçinin öyrədilməmiş itin vasitəsilə də ovladığın ov quşlarının ətini də yeyə bilərsə əgər canı çıxana qədər ona çatıb Allahın adını zikr edərək kəssən". Buxari 5478.

Adiy b. Hatim – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – mənə buyurdu: "Əgər itini ova göndərsən Allahın adını zikr et. Əgər it sənin üçün şikarı tutsa və səndə şikara sağ ikən yetişsən onu kəs. Yox əgər sən şikara yetişdikdə şikar (it tərəfindən toxunulmamış) lakin ölmüş görsən, onu ye. Əgər itinin yanında başqa bir iti görsən və şikar ölmüş olsa o, zaman yemə, çünki şikarı hansı itin öldürdüyünü bilməzsən. Ox atarkən Allahın adını zikr et! Bundan sonra sən hədəfi gözdən itirsən və (bir müddətdən sonra) tapdığın zaman şikarın üzərində öz oxundan başqa bir iz görməsən ye onu əgər istəsən. Əgər şikar suda batsa onu yemə". Buxari, Müslim, "Buluq əl-Məram" 1334.

Adiy b. Hatim – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Əgər sən ov itini Allahın adını zikr edərək buraxsan, o da sənin üçün ov quşlarından ovlayıb öldürsə bu əti yeyə bilərsən. Lakin ov iti macal tapıb şikardan nə isə yesə bu ətdən yemə çünki (bu o, deməkdir ki) o, bunu özü üçün ovlayıb. Əgər ov zamanı Allahın adı zikr edilmədən müxtəlif itlər iştirak edərək şikarı tutub parçalayarlarsa bu əti yemə, çünki sən bilmirsən hansı it şikarı öldürüb. Əgər ov quşunu ox ilə vurub (öldürsən), bir və ya iki gündən sonra onu üzərində öz oxundan başqa bir iz tapmadığın halda görsən onu yeyə bilərsən. Əgər şikarı suda ölmüş tapsan yemə!". Buxari.

Əbu Sələbə – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Oxu atdıqdan sonra şikarı gözündən itirsən və çürüməmişdən qabaq şikarı tapsan yeyə bilərsən". Müslim, "Buluq əl-Məram" 1336.

Cabir b. Abdullah – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* - Qadağan edib bağlı heyvanı öldürməyi". Müslim, "Buluq əl-Məram" 1342.

# HANSI SƏBƏBDƏN QURBANLIQ KƏSİLİR

## *Yemək Və Ticarət Üçün*

***"Sizin üçün minməyə heyvanlar yaradan Allahdir. onlardan yedikləriniz də var"***. (əl-Mumin 79). ***"Məgər** (Məkkə müşrikləri)* ***Bizim Öz əllərimizlə** (Öz qüdrətimizlə)* ***onlar üçün davarlar yaratdığımızı və özlərinin də onlara sahib olduqlarını görmürlərmi?! Bunları** (bu davarları)* ***onların ixtiyarına verdik. Onlardan mindikləri də var, ətini***

***yedikləri də. Onların** (o heyvanlarda başqa-başqa) **mənfəatləri və içəcəkləri** (südləri) **də var. Hələ də şükür etməzlərmi?”.*** (Yasin 71-73).

## *Qurban Bayramında Kəsilən Qurbanlıq*

***“Ona görə də** (bu nemətlərə şükür edərək) **Rəbbin üçün namaz qıl və qurban kəs!”.*** (əl-Kövsər 2).

## *Həcc Ibadəti Zamanı Kəsilən Qurbanlıq*

***“Biz qurbanlıq dəvələri də Allahın nişanələrindən** (Onun haqq dininin əlamətlərindən) **etdik. Sizin üçün bu qurbanlarda** (dini və dünyəvi) **xeyir vardır. Artıq onları ayaq üstə durduqları** (sol əli bağlı, sağ əli və iki ayağı açıq vəziyyətdə olduqları) **halda kəsərkən üstlərində Allahın adını çəkin** (bismillah deyin)**. Onlar böyrü üstə düşən** (canları çıxdığı) **zaman** (ətindən) **özünüz də yeyin,** (yanınızda olub utandığından) **əl açmayana** (lakin verilənə etiraz etməyənə) **və dilənçiyə də yedirdin. Onları** (qurbanlıq heyvanları) **sizə belə ram etdik ki, bəlkə,** (nemətimizə) **şükür edəsiniz!”.*** (əl-Həcc 36).

## *Övlad Dünyaya Gəlməsi Səbəbilə Kəsilən Qurbanlıq – Əqiq*

Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Kim öz övladlarına görə qurbanlıq kəsmək istəyirsə onda oğlan uşağına görə iki, qız uşağına görə isə bir qoyun kəssin”. Əbu Davud 2842, Nəsəi 4156. Aişə – *radıyallahu anhə* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – oğlan uşağının dünyaya gəlməsi səbəbilə iki eyni cür qoyunun, qız uşağının doğulması səbəbilə isə bir qoyunun kəsilməsini əmr etmişdir”. Tirmizi, Əbu Davud, Əhməd, “Buluq əl-Məram” 1385. İbn Abbas – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Həsən və Hüseyn – *radıyallahu anhum* - doğulması münasibətilə hər biri üçün bir (iki) qoç kəsdi”. “Səhih Əbu Davud” 2841. Səmura – *radıyallahu anhə* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Hər bir oğlan üşağı qurbanlıq kəsilənə qədər girov hesab olunur. Dünyaya gəldiyinin yeddinci günü onun qurbanlığı kəsilməli, saçı qırxılmalı və adı qoyulmalıdır”. Əhməd, Əbu Davud, Tirmizi, Nəsəi, “Buluq əl-Məram” 1360, əl-Albani – *rahmətullahi aleyhi* - “İrvalul Ğəlil” 1165 deyir ki: “Sünnəyə uyğun olaraq doğulan körpəyə görə yeddinci, on dördüncü və iyirmi birinci günü qurbanlıq kəsmək yaxşıdır. Lakin ən gözəli yeddinci günü qurbanlıq kəsilir, saçı qırxılır və adı qoyulur”. Salman b. Amir əd-Dabbi – *radıyallahu anhu* - rəvayət edir

ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Yeni doğulan oğlan uşağı üçün qurban kəsmək lazımdır". Buxari 5472.

## *Nəzir Dedikdə Kəsilən Qurbanlıq*

***"Onlar** (Cənnətə nail olacaq müttəqilər) **elə kimsələrdirlər ki, verdikləri sözü** (etdikləri nəziri) **yerinə yetirər və dəhşətli** (aləmi) **bürüyəcək** (şəri hər tərəfə yayılacaq) **gündən** (Qiyamət günündən) **qoxarlar.".*** (əd-Dəhr 7).

## *Qonaqlıq Səbəbilə Kəsilən Qurbanlıq*

***"**(Ya Rəsulum!) **İbrahimin möhtərəm qonaqlarının** (mələklərin) **söhbəti sənə gəlib çatdımı? Onlar** (İbrahimin) **yanına gəlib salam verdikdə** (İbrahim) **salamı alıb** (öz-özünə)**: "Bunlar tanımadığım kimsələrdir!" – dedi. O** (bir bəhanə ilə) **ailəsinin yanına getdi və bir buzov** (kəsib qızardaraq) **gətirdi. Onu qabaqlarına** (qonaqların qabağına) **qoyub: "Bəlkə, yeyəsiniz!" – dedi."*** (əz-Zariyyat 24-27).

Lakin fərq vardır qonağın gəlməsi münasibətilə qonaqlıq üçün qurbanlıq kəsmək və qonaq üçün (onun naminə, xatirinə) qurban kəsmək. İkinci əməl qadağandır.

## *Evlənmək Münasibətilə Kəsilən Qurbanlıq*

Ənəs – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – AbdurRahman b. Auf – *radıyallahu anhu* – nu sarı izlərlə gördüyü zaman buyurdu: "Sən evlənmisən?". O: "Bəli". Peyğəmbər: "Kiminlə?". O: "Ənsarlardan bir qadın ilə". Peyğəmbər: "Nə qədər ona Mehr verdin?". O: "Xurma çəyirdəyi ağırlığında qızıl". Peyğəmbər: "Bir qoyun da olsa belə qonaqlıq verməyin məsləhətdir". Buxari 2048.

## *Sədəqə Üçün Kəsilən Qurbanlıq*

Aişə – *radıyallahu anhə* - rəvayət edir ki, qurbanlıq kəsdiyimiz zaman bir hissəsini sədəqə üçün ayırdıq. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Qurbanlıqdan bir şey qaldımı?". Mən: "Kürəkciyindən başqa heç nə qalmayıb" dedim. Peyğəmbər: "Hər bir şey qalıb kürəkciyindən başqa". Tirmizi, "Səhih Silsilə" 2544.

# ALLAHDAN QEYRİSİNƏ QURBAN KƏSİLMƏZ

***Zəbh*** – müəyyən bir şəkildə qan axıdmaq məqsədilə canın çıxması deməkdir. Bu da bir neçə şəkildə olur. Saleh Əli Şeyx – *rahmətullahi aleyhi* - "Şarh Kitabu Tovhid" deyir ki: "Qurban kəsmək dörd qismdir:

1. Nə vaxt qurbanlıq kəsilir Allahın adı ilə və Allah üçün. Bu xalis Tövhiddir.

Allahın adı ilə, təzim olaraq, onun önündə zəlil olaraq və Ona yaxınlaşmaq məqsədilə ibadət olaraq kəsilən heyvan. Belə bir ibadət Uca Allahın buyurduğu şəkildə sadəcə Allah üçün edilir. ***"Ona görə də** (bu nemətlərə şükür edərək)* ***Rəbbin üçün namaz qıl və qurban kəs!".*** (əl-Kövsər 2). ***"De: "Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən ilk müsəlmanam!".*** (əl-Ənam 162-163).

2. Nə vaxt qurbanlıq kəslir Allahın adı ilə, lakin Allah üçün kəsilmir. Bu Uluhiyyətdə şirkdir. ***"**(Müşriklər)* ***Allah üçün Onun yaratdığı əkindən və davardan pay ayırıb öz** (batil)* ***inanclarına görə: "Bu, Allahın və bu da** (Allaha)* ***şərik qoşduğumuz bütlərin!" – dedilər. Onların bütləri üçün ayrılmış hissə Allaha çatmaz, Allah üçün ayrılmış hissə isə bütlərə çatardı. Onların verdikləri hökm necə də pisdir!".*** (əl-Ənam 136).

3. Nə vaxt qurbanlıq Allah üçün kəsilir, lakin Allahın adı ilə kəsilmir. Bu Rububiyyətdə şirkdir. ***"Üstündə Allahın adı çəkilməmiş heyvanların ətindən yeməyin. Bu, şübhəsiz ki, günahdır. Həqiqətən, şeytanlar öz dostlarına sizinlə mücadilə etmək üçün*** *(çirkin fikirlər və yaramaz əqidələr)* ***təlqin edirlər. Əgər onlara itaət etsəniz, şübhəsiz ki, siz də müşrik olarsınız".*** (əl-Ənam 121).

4. Nə Allahın adı ilə kəsilir, nə də Allah üçün. Bu da büstbütün şirkdir. Amir b. Vəsilə deyir ki: "Bir dəfə Əli b. Əbu Talib – *radıyallahu anhu* – nun yanında idim. Bir kişi onun yanına gələrək soruşdu: "Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – sənə sirr olaraq bir şey deyibmi?". Əli – *radıyallahu anhu* – qəzəbli halda: "Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – gizli olaraq mənə heç bir şey deməyib. Yalnız bu dörd şeydən başqa". Kişi: "Ey Əmirəlmöminin onlar nədir?" deyə soruşdu. Əli: "Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Allahdan qeyrisinə qurban kəsənə Allah lənət etsin...". Müslim 1978, 13/50. Tarih b. Şihban (Salman Farsi) – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Bir kişi bir milçəyə görə Cənnətə, başqa bir kişi isə bir milçəyə görə Cəhənnəmə düşdü". Səhabələr: "Ey Allahın Rəsulu! Bu necə ola bilər?" deyə soruşdular. Peyğəmbər: "İki nəfər bütə sitayiş edən bir tayfanın yanından keçirdi. Onlar heç kimə həmən bütə qurban kəsməmiş oradan keçməyə icazə vermirdilər. Bütpərəstlər həmin iki nəfərdən birinə dedilər: "Qurban kəs!". O: "Mənim qurban verməyə heç nəyim yoxdur" dedi. Onlar: "Heç olmsa bir milçək qurban et!" dedilər. O, da milçəyi bütə qurban etdi və ona yoluna davam etməyə icazə verdilər və o, kimsə (öldükdə) Cəhənnəmə düşdü. Bütpərəstlər ikinci kişiyə də dedilər: "Qurban kəs!". O: "Mən Allahdan

başqa heç kimə qurban kəsmirəm" dedi. Onun boynunu vurdular və o, kimsə Cənnətə daxil oldu". Əhməd "Zuhd" 15, İbn Əbi Şeybə 13084 zəif hədis.

# HEYVANIN ƏTİNİN YEYİLMƏSİNƏ İCAZƏ VERİLMƏSİ ÜÇÜN ZƏRURİ (VACİB) ŞƏRTLƏR

## *Yeyilməsinə Icazə Verilən Ət MəhsullarI Iki Qismə Bölünür:*

1 Bu o, ət məhsullarıdır ki, onların yeyilməsi üçün heç bir şərt lazım deyil. Bu da suda yaşayan heyvanların ətləridir.

2 Bu da o, heyvanlardır ki, ətlərinin yeyilməsinə icazə verilmişdir, lakin müəyyən şərtlərdən sonra. Necə ki, şəriətə uyğun olaraq onların kəsilməsidir. Bu da aiddir kim kəsir və necə kəsir.

## *Birinci Şərt – Heyvanı Kəsən Müsəlman, Yəhudi Və Xaçpərəst Olmalıdır*

***"Bu gün pak nemətlər sizə halal edilmişdir. Kitab əhlinin yeməkləri sizə, sizin yeməkləriniz isə kitab əhlinə halaldır. Möminlərin, həmçinin sizdən əvvəl kitab verilmişlərin*** *(Yəhudilərin və Xaçpərəstlərin)* ***azad və ismətli*** *(özlərini zinadan və nəfslərini haram şeylərdən qoruyan)* ***qadınları mehrlərini verdiyiniz, namuslu olub zina etmədiyiniz və aşna saxlamadığınız təqdirdə*** *(evlənmək üçün)* ***sizə halaldır. İmanı dananın bütün işləri boşa çıxar və o, axirətdə zərər çəkənlərdən olar!"*** (əl-Maidə 5). İbn Abbas – *radıyallahu anhu* – deyir ki: "***Kitab əhlinin"*** – deyildikdə onların kəsdikləri heyvanlar nəzərdə tutulur". Buxari 4/636.

Bir nəfər Əbu Darda – *radıyallahu anhu* – dan yemək üçün verilmiş, lakin "Carcas" kilsəsində kəsilmiş qoyun barəsində soruşdu. Onu yeyə bilərəmmi? Əbu Darda: "Həqiqətən onlar Kitab Əhlidirlər, onların yeməkləri bizə halal edildiyi kimi, bizim yeməklər də onlara halal edilmişdir və o, ətdən yeməyi ona əmr etdi". Təbəri 6/66, əl-Albani səhih. ***Həmçinin:*** İbn Məsud, Əbu Umamə, Mucahid, Said b. Cubeyr, İkrimə, Ata, İbrahim ən-Nəhai – *Allah onlardan razı olsun* – bu sözləri demişlər. Təfsir İbn Kəsir 2/19.

Kitab Əhli tərəfindən kəsilmiş heyvanın yeyilməsinin icazə verilməsində bütün müsəlman alimlərinin İcma etdiklərini İbn Munzir, İbn AbduBər, İbn Qudamə və İmam Nəvəvi – *Allah onlardan razı olsun* – öz əsərlərində qeyd etmişlər. Buna yalnız Xəvariclər müxalif olmuşlar.

## *Qadın Və Uşaq Tərəfindən Kəsilmiş Qurbanlıq*

***Həmçinin:*** Müsəlman, Yəhudi və Xaçpərəst qadın tərəfindən kəsilmiş heyvanın ətini də yemək olar. Kəb b. Məlik – *radıyallahu anhu* - rəvayət edir ki, bir qadın iti bir daşla qoyunu kəsir və bu haqda Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən soruşur. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – həmən ətdən yeməsini buyurur”. Buxari 5504, Müslim.

***Bu hədisdə olan faydalardan:*** Qadının qurban kəsməsinə icazə verilməsi, həmçinin əgər bıçaq olmadıqda iti daşla da kəsməyin icazəli olmasıdır. İbrahim ən-Nəhai – *rahmətullahi aleyhi* - deyir ki: “Qadının və uşağın qurbanlıq heyvanını Allahın adını zikr edərək kəsməsində heç bir problem yoxdur”. İbn Həcər “Fəthul Bəri” 9/575. İbn Munzir – *rahmətullahi aleyhi* - deyir ki: “Alimlər ittifaq ediblər ki, qadın və uşaq tərəfindən kəsilmiş qurbanlığın yeyilməsində heç bir problem yoxdur”. “İcma” 43.

## *Mürtəd, Kafir, Zındıq, Dinsiz Və Müşriklərin Kəsdikləri Heyvanların Ətlərinin Yeyilməsi Qadağandır*

İbn Abbas – *radıyallahu anhu* - deyir ki: “Əgər heyvanı Məcusi (odpərəst) kəsərsə, hətta Allahın adını zikr etsədə belə - o, ətdən yeməyin”. AbdurRazzaq 8548, İbn Həcər səhih.

İmam Qurtubi – *rahmətullahi aleyhi* - deyir ki: “O, ki qaldı Məcusilər tərəfindən kəsilmiş heyvanlara bütün alimlər ittifaq ediblər (yalnız müxalif olanlardan başqa) onların kəsdikləri heyvanların ətlərini yemək və qadınlarına evlənmək qadağandır. Çünki onlar Kitab Əhli deyillər”. “Təfsir Qurtubi” 6/77.

## *Nə Üçün Kitab Əhlinin Kəsdiyi Heyvanların Ətlərini Yemək Halaldır, Halbuki Onlar Kafirdirlər?*

Kitab Əhli olan kimsələr (Yəhudi və Xaçpərəstlər) digər kafirlərdən fərqlənirlər. Çünki onlara Peyğəmbərlər gəlmiş, onlara Səməvi kitablar nazil olmuş (Zəbur, Tövrat, İncil), bu Peyğəmbərlərə iman gətimişlər və s. səbəblər. Lakin sonradan onlar bu kitabları təhrif edib doğru yoldan azmışlar. Buna görə də Allah onların qadınları ilə evlənməyə icazə vermiş və kəsdikləri heyvanların ətlərini yemyi də müsəlmanlara halal etmişdir. “Təfsir Təbəri” 3/467, “Təfsir əs-Sədi” 209. Lakin müsəlman qadına haramdır Kitab Əhli olan bir kimsəyə ərə getmək. Bu cur nigah doğru deyildir.

## *İkinci Şərt – Ağlı Başında Olmalıdır*

Heyvanı kəsən kimsə ağıllı-başlı olmalı, dəli və içkili olmamalıdır. Kəsən kimsə bilməlidir kimin üçün qurbanı kəsir və kimin adı ilə bunu edir. “Muğni” 8/581.

## *Üçüncü şərt – Kəsilən Heyvan Yalnız Allah Rızası Üçün Kəsilməlidir*

***“De: “Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən ilk müsəlmanam!”.*** (əl-Ənam 162-163). Amir b. Vəsilə deyir ki: “Bir dəfə Əli b. Əbu Talib – *radıyallahu anhu* – nun yanında idim. Bir kişi onun yanına gələrək soruşdu: “Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – sənə sirr olaraq bir şey deyibmi?”. Əli – *radıyallahu anhu* – qəzəbli halda dedi: “Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – gizli olaraq mənə heç bir şey deməyib. Yalnız bu dörd şeydən başqa”. Kişi: “Ey Əmirəlmöminin onlar nədir?” deyə soruşdu. Əli: “Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Allahdan qeyrisinə qurban kəsənə Allah lənət etsin...”. Müslim 1978, 13/50.

***Həmçinin:*** Qurbanlıq heyvanını kəsmək olmaz müşriklərin bütlərinin olduğu yerdə və bayramlarının kerildiyi yerlərdə. Sabit b. Dahhaq – *radıyallahu anhu* - rəvayət edir ki, bir nəfər Buvanə adlanan yerdə dəvə qurban kəsməyi nəzir etmişdi və Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in bu haqda fikrini soruşduqda o: “Orada cahiliyyə dövründə insanların ibadət etdiyi büt olubmu?”. O, kimsə: “Xeyr” olmayıb. Peyğəmbər: “Orada müşriklərin hansısa bayramı keçirilibmi?”. Adam: “buyurdu: “Yox” keçirilməyib”. Bu zaman Peyğəmbər: “Əhdinə əməl et”. Əbu Davud 3313 Təbərani 1/134, əl-Albani səhih.

## *Dördüncü Şərt – Qurbanlıq Kəsilən Zaman Allahın Adını Zikr Etmək*

Bu haqda ixtilaf vardır. Bir qrup alimlər ***Bismilləh*** kəliməsinin deyilməsini Sünnə (müstəhəb), digərləri isə bunu vacib biliblər. Sünnə (müstəhəb) deyən Şafiilər bu hədisə əsaslanmışlar: Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Müsəlman bir kimsənin kəsdiyi heyvan halaldır, hətta Allahın adını zikr etsədə, etməsədə belə”. Əbu Davud “Marasil” 378, əl-Albani “İrva” 2537 zəif hədis.

Lakin bu məsələdə ən səhih rəy qurban kəsilərkən ***Bismilləh*** deyilməsinin vacib olduğunu deyənlərin rəyidir. Bu da Quran və Sünnə ilə öz təsdiqini tapmışdır. ***“Əgər siz Allahın ayələrinə inanan***

***kimsələrsinizsə, üstündə Onun adı çəkilmiş*** *(Bismillah deyilərək kəsilmiş)* ***heyvanları yeyin! Sizə nə olub ki, üstündə Allahın adı çəkilmiş*** *(heyvanların)* ***ətindən yeməyəsiniz? Halbuki məcburiyyət qarşısında*** *(yeməli)* ***olduğunuz şeylər istisna edilməklə, sizə haram buyurduqların artıq O*** *(Allah)* ***müfəssəl şəkildə sizə bildirmişdir. Şübhəsiz ki, çoxları*** *(şəriəti)* ***bilmədiklərindən nəfslərinin istəklərinə uyaraq*** *(xalqı)* ***düz yoldan azdırarlar. Rəbbin həddi aşanları ən yaxşı tanıyandır!".*** (əl-Ənam 118-119). ***"Biz qurbanlıq dəvələri də Allahın nişanələrindən*** *(Onun haqq dininin əlamətlərindən)* ***etdik. Sizin üçün bu qurbanlarda*** *(dini və dünyəvi)* ***xeyir vardır. Artıq onları ayaq üstə durduqları*** *(sol əli bağlı, sağ əli və iki ayağı açıq vəziyyətdə olduqları)* ***halda kəsərkən üstlərində Allahın adını çəkin*** *(Bismillah deyin)*. ***Onlar böyrü üstə düşən*** *(canları çıxdığı)* ***zaman*** *(ətindən)* ***özünüz də yeyin,*** *(yanınızda olub utandığından)* ***əl açmayana*** *(lakin verilənə etiraz etməyənə)* ***və dilənçiyə də yedirdin. Onları*** *(qurbanlıq heyvanları)* ***sizə belə ram etdik ki, bəlkə,*** *(nemətimizə)* ***şükür edəsiniz!".*** (əl-Həcc 36).

Ummu Sələmə – *radıyallahu anhə* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Qurbanlıq heyvanlarını kəsin Allahın adını zikr edərək". Nəsəi 4368, İbn Məcə 3152, əl-Albani səhih. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Mən sizin öz bütləriniz üçün kəsdiyiniz heyvanların ətindən yemirəm və mən Allahın adı ilə kəsilməyən heyvanın ətindən də yemirəm". Buxari 4/58.

Qurbanlıq heyvanının kəsilməsində Allahın adını zikr edərək kəsməyi vacib görənlər özləri də iki fikrə ayrılıblar. Əgər bir müsəlman qəsdli olmadan ***Bismilləh*** kəliməsini deməyi unudubsa. Bu əti yemək olar, yoxsa yox? Allahın adı zikr olunmadan kəsilən heyvanın ətinin yeyilməsini qadağan edən alimlər deyirlər ki: "Kəsilən heyvanın ətinin yeyilməsinin halal olması üçün onun üzərində Allahın adının zikr olunmasına görədir. Buna görə də bir kimsə ***Bismilləh*** deməyi unudarsa (qəsdli olmadan) bu ətdən yemək olmaz". ***"Üstündə Allahın adı çəkilməmiş heyvanların ətindən yeməyin. Bu, şübhəsiz ki, günahdır...".*** (əl-Ənam 121). Lakin İbn Abbas – *radıyallahu anhu* - bu ayənin təfsirində deyir ki: "Bu ayədə söhbət Allah üçün kəsilməyən heyvanlardan gedir". Buna görə də qəsdli olmadan Allahın adı ilə kəsilməyən heyvanın əti halaldı. Bu fikirdə olub: Əli, İbn Abbas, Sad b. Museyyib, Ata, Tavus, Həsənul Bəsri – *Allah onlardan razı olsun* - və s. "Bidayatul Muctəhid" 1/448. İbn Abbas – *radıyallahu anhu* - deyir ki: "Hər bir müsəlmanda Allahın adı vardır (Başqa rəvayətdə: Müsəlmanın bu adı daşıması ona kifayətdir). Heyvanı kəsdiyi zaman Allahın adını zikr etməyi unudarsa qoy o, ətdən yesin

(Başqa rəvayətdə: Yediyi zaman ***Bismilləh*** desin). Lakin heyvanı Allahın adını zikr edərək Məcusi kəssə o, ətdən yeməyin". Daraqutni 4/296, AbdurRazzaq 8548, "Buluq əl-Məram" 1345, İbn Həcər "Fəthul Bəri" 9/624 səhih, əl-Albani "İrva" 2547 zəif.

İmam ət-Təbəri – *rahmətullahi aleyhi* - deyir ki: "Müsəlman bir kimsənin unutqanlıqdan ***Bismilləh*** deмədən kəsdiyi heyvanın ətini yemək olmaz deyənlərin sözləri haqdan çox uzaqdır və onlar Əhli Sünnətin olduğundan əyilmişlər". "Təfsir Təbəri" 1/52, 8/21. Lakin bir kimsə qəsdli şəkildə (***Bismilləh***) deməyin vacib olduğunu bildiyi halda Allahın adını zikr etməzsə o, ətdən yemək olmaz. İbn AbdulBərr – *rahmətullahi aleyhi* - deyir ki: "Kim kəsilən heyvan üzərində Allahın ismini zikr etməyi unudarsa bu ona zərər verməz və yeməsində bir beis yoxdur. Əgər Bismilləhi qəsdən tərk edərsə İmam Məlikə görə kəsdiyi yeyiməz. Əhli Mədinə və digərlərindn belə deyənlər vardır: "Nə qəsdən nə də unudaraq Bismilləhi tərk etmək müsəlmana zərər verməz. Çünki o, milləti və dini üzərinə qalmışdır. Görmürsənmi məcusi Allahın ismini zikr etsə də belə ona faydası olmur". İbn AbdulBərr "əl-Kəfi" 179.

Sünnəyə uyğun olaraq isə qurbanlıq heyvanı kəsərkən: "***Bismilləh – Allahu Əkbər – Allahummə Təqabbəl Minni*** - Allaın Adı ilə, Allah Böyükdür, Ya Rəbbim! Məndən qəbul et". Müslim 3/1557, 9/287. Həmçinin müsəlman öz qurbanlıq heyvanına ailəsini də qata bilər. Necə bunu Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – edərdi: ***"Allahummə həzə Anni Və An Əhl Beyti –*** Ya Rəbbim! Bu Məndən və ailəmin adındandır!". Əhməd, Bəzzar, Təbərani, əl-Albani "İrvalul Ğəlil" 4/251.

## *Kitab Əhlinin Qurban Kəsərkən Allahın Adını Zikr Etmələri*

İmam əş-Şabii – *rahmətullahi aleyhi* - deyir ki: "Allah Kitab Əhlinin kəsdiyi heyvanların ətlərini bizlərə yeməyi halal etmişdir, onların kəsdikləri zaman nə deyəcəklərini bildiyi halda". Ata – *rahmətullahi aleyhi* - deyir ki: "Xəçpərəstin kəsdiyini yeyin, hətta o, İsa - *əleyhissəlam* – ın adı ilə kəsmiş olsa da belə. Çünki Allah bizlərə onların kəsdikləri heyvanların ətlərini yeməyi halal etmişdir, onların kəsdikləri zaman nə deyəcəklərini bildiyi halda". "Təfsir Qurtubi" 6/74.

Bu məsələdə ən gözəl və doğru rəy İmam Zuhri və Həsənul Bəsri – *rahmətullahi aleyhi* – nin dedikləridir: "Əgər sən (qulağınla) eşitsən ki, onlar heyvanı Allahdan qeyrisinin adı ilə kəsiblər, yemə! Yox əgər sən eşitməmisənsə o, zaman ye! Çünki Allah bunu sənə icazə verib, onların

kafir olduğunu bildiyi halda". "Fəthul Bəri" 9/552, "Təfsir Beydavi" 2/298.

## *MƏCUSİ VƏ RAFİZİLƏRİN KƏSDİKLƏRİ YEYİLİRM?*

Əbu Muhəmməd əl-Bəğavi – *rahmətullahi aleyhi* - deyir ki: "(Alimlər) iki Kitab əhlindən başqa məcusilərin kəstiklərinin və qadınlarıyla evlənməyin haram oldğunda ittifaq etmişlər". "Məalimut Tənzil" 4/35. İbn Qudəmə – *rahmətullahi aleyhi* - deyir ki: "Bütlərə, daşlara. Ağaclara və heyvanlara tapılan (ibadət) edən kimsələr kimi Əhli Kitabdan başqa kafirlərin qadınları və kəstiklərinin haram olduğunda elm əhli arasında ixtilaf yoxdur (Pəndir bundan istisnadır)". "Muğni" 13/298, İmam Qurtubi "Təfsirul Quran" 7/318. Hənəfi alimlərindən olan Əhməd əl-Quduri – *rahmətullahi aleyhi* - deyir ki: "Müsəlmanın və Kiab əhlinin kəsdiyi halaldır. Məcusinin, mürtədin, bütpərəstin və ehramlının kəsdiyi yeyilməz. Əgər kəsən qəsdli olaraq Bismilləhi tərk edərsə kəsdiyi yenyilməz, əgər unudaraq tərk edərsə yeyilər". "əl-Muhtasar" 206. Məcusilərin və şirk əhlinin kəsdiklərindən başqa yeyinti məhsullarında bir problem yoxdur. İbn AbdulBər deyir ki: "Müsəlmanlardan və Əhli kitabdan başqasının kəsdiyi caiz deyildir. Yəhudi və Nəsrani olsa belə mürtədin kəsdiyi yeyilməz. Kitab əhlindən başqa digər kafirlər – məcusilər, bütpərəstlər kəsdikləri haramdır". "əl-Kəfi" 181, İmam Şəfii "əl-Umm" 7/410. İmam Nəvəvi – *rahmətullahi aleyhi* - deyir ki: "Əshabımız (Şafiilər) demişlər: Evlilik və kəsim bir-birinə bağlıdır, ayrılmazdır. Kiminlə nigah etmək halaldırsa onun kəsdiyi də halaldır. Nigahlanması halal olmayanın kəsdiyi də halal deyildir. İbn Abbas – *radıyallahu anhu* - deyir ki: "Sadəcə Yəhudi və Nəsranilərin kəsdikləri halal edilmişdir. Çünki onlar Tövrat və İncilə iman etmişlər". İmam Əhmədin – *rahmətullahi aleyhi* - oğlu atasından: "Məcusilərin kəstikləri barədə soruşdum. Atam: "Onların kəsdikləri yeyilməz. Müsəlman olana qədər kəsdikləri yeyilməz, qadınları ilə nigah edilməz". Mən, atama: "Ömər – *radıyallahu anhu* -: Onlarla Əhli Kitaba davrandığınız kimi davranın dediyini" söylədim. Atam: "Bu sadəcə cizyəyə aiddir. Peyğəmbərin – *sallallahu aleyhi və səlləm* – səhabələrindən altı kişi onların kəsdiklərini qadağan etmişlər. İbn Abbas, İbn Məsud, Əli, Cabir İbn Abdullah – *Allah onlardan razı olsun* - və s.". İbn Qudamə – *rahmətullahi aleyhi* - deyir ki: "Elm əhli Məcusilərin kəsdiklərinin haramlığında icma etmişlər". "Məsail" 264, "İcma". İbn Məsud – *radıyallahu anhu* - deyir ki: "Müsəlmanların heyvan kəsmədikləri

ölkəərdə qonaq olacaqsınız. Onlar Nabatlar və Farslardır. Ət aldığınız zaman Yəhudi və ya Nəsrani olduğunu soruşun. Əgər Yəhudi və Nəsranidirsə yeyin. Çünki onların yeyəcəkləri sizə halaldır”. AbdurRazzaq “Musənnəf” 4/487/8578, İbn Əbi Şeybə “Musənnəf” 17/420/33362, İbn Qudamə “Muğni” 13/297. Əta – *rahmətullahi aleyhi* - deyir ki: “Hər müsəlmanın – kiçik, böyük, qadın və ya qız uşağının kəsdiyini ye. Lakin Məcusinin kəsdiyini yemə”. İbn AbdulBərr “əl-İztizkar” 15/220/21656.

Əhməd İbn Yunus – *rahmətullahi aleyhi* - deyir ki: “Əgər bir Yəhudi və Bir Rafizi qoyun kəsərsə mən bir Yəhudinin kəsdiyini yeyər, lakin Rafizinin kəsdiyini yemərəm. Çünki İslamdan çıxmışdır”. İbn Teymiyyə “Sərimul Məslul” 1/570. Əbu Bəkr İbn Hani – *rahmətullahi aleyhi* - deyir ki: “Kitab əhlinin kəsdiyinin yeyilməsi kimi, mürtədin kəsdiyinin yeyilməməsi kimi, Rafizi və Qədərinin də kəsdiyi yeyilməz. Çünki onlar mürtəd hökmündədirlər. Zimmət əhli isə dinləri üzərə qəbul edilir və onlardan cizyə alınır”. Əbu Abdullah əl-Buxari – *rahmətullahi aleyhi* - deyir ki: “Mən Cəhminin və ya Rafizinin arxasında namaz qıldım, və ya Yəhudi və ya Xristianın arxasında mənim üçün eynidir. Onlara salam verilməz, xəstəsi ziyarət edilməz, qadınlarıyla evlənilməz, cənazələri təqib edilməz və kəsdikləri yeyilməz”. “Əfalul İbad”, Beyhəqi “əl-Əsma Vəs Sifət”. İbn Batta – *rahmətullahi aleyhi* - deyir ki: “Rafizilərin qadınlarıyla evlənilməz və kəsdikləri yeyilməz. Çünki onlar Riddət əhlidir”. “əl-İbanə” 177.

## ***Beşinci Şərt – Qurbanlıq Heyvanının Qanını Axıdmaq, Boğazını Və Qida Borusunu Kəsmək***

Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Qanı axıdılmış və Allahın adı ilə zikr edilmiş heyvanın ətindən yeyin”. Buxari 2488.

Qurbanlıq heyvanının ətinin yeyilməsi üçün qanının axıdılması vacib şərtlərdən biridir. Ata – *rahmətullahi aleyhi* - deyir ki: “Qurbanlıq – iki boğaz damarının kəsilməsidir”. İbn Abbas – *radıyallahu anhu* - deyir ki: “Qurbanlıq heyvanının kəsildiyi yer – boğazıdır”. İbn Ömər, İbn Abbas və Ənəs – *Allah onlardan razı olsun* – deyirlər ki: “Əgər qurbanlıq heyvanın bütün başını kəsib qoparsan bunda heç bir problem yoxdur”. Buxari 4/573.

İmam Əhməd – *rahmətullahi aleyhi* - deyir ki: “Qurbanlıq heyvanlarını mərhəmətli şəkildə kəsiləcəyi yerə gətirmək, bıçaqı gizlətmək və yalnız kəsilən anda çıxarılmalıdır”. “Cəmiul Ulumul vəl Hikəm” 157. İmam Nəvəvi – *rahmətullahi aleyhi* - deyir ki: “Bir heyvanı

digərinin yanında kəsmək olmaz". "Şərh Müslim" 13/93. Həmçinin alimlər deyirlər ki: "Kəsiləcək heyvanı sol böyürü üstə uzatmaq (bu kəsməyi asanlaşdırır), bu zaman heyvanın başı onun sol əlində, bıçaq isə sağ əlində olur". "Şərh Müslim" 13/122.

## *Qurbanlıq Heyvanı Qibləyə Tərəf Yönəltmək*

Qurbanlıq heyvanı Qibləyə tərəf döndərməyin Sünnə, yoxsa vacib olması barəsində Quran və Sünnədə bir şey varid olmayıb. Bu əməlin yalnız Qurbanlıq bayramı zamanı kəsilən heyvanı Qibləyə çevirməyin müstəhəb olmasıdır. İmam Şaukani – *rahmətullahi aleyhi* - deyir ki: "Bu barədə Quran və Sünnədə heç dəlil yoxdur. O, ki qaldı qurbanlıq heyvanın qibləyə tərəf döndərilməsinin müstəhəb olmasını deyənlərə - Qurban bayramına əsaslanaraq bunu söyləyirlər - bu düzgün deyildir. Çünki müstəhəb – şəriət qayda-qanunu olduğu üçün onun da dəlilə ehtiyacı vardır". "Seylul Cərrar" 4/70. Lakin buna baxmayaraq heyvanı Qibləyə tərəf döndərməkdə çətinlik yoxdursa bunu etmək daha yaxşıdır. Çünki İbn Ömər – *radıyallahu anhu* – qurbanlq zamanı heyvanı qibləyə tərəf döndərməyi sevər və qibləyə tərəf döndərilərək kəsilməyən heyvanların ətini yeməyi də sevməzdi". AbdurRazzaq 8585, Beyhəqi 9/285, əl-Albani səhih. Cabir – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – qurbanlıq kəsərkən heyvanı Qibləyə tərəf çevirərdi. Əbu Davud 2795, əl-Albani "Səhih". Nəfi – *rahmətullahi aleyhi* - deyir ki, İbn Ömər – *radıyallahu anhu* – qurbanlıq heyvanı kəsdiyi zaman Qibləyə tərəf çevirərdi. İmam Məlik 854.

## *Qurbanlıq Heyvanı Nə İlə Kəsmək Olar?*

Şəriətin qadağan etdiyindən başqa, Qanı istənilən iti bir alət ilə axıdmaq olar. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən soruşdular: "Biz düşünürük ki, sabah düşmən artıq burada olacaq. Biz heyvanlarımızı qamış ilə kəsə bilərikmi?". Peyğəmbər: "Qanı axıdılmış və Allahın adı ilə zikr edilərək kəilmiş heyvanların ətidən yeyin. Lakin heyvanları Sinnom və Zufrom ilə kəsməyin. Çünki Sinno – sümük, Zufron – Həbəşilərin bıçaqıdır" deyə buyurdu. Buxari 2488, Müslim 1986. Qanın axıdılması istənilən iti bir alət (şüşə, daş, qamış, dəmir) vasitəsilə ola bilər.

## *Dişi Heyvanın Kəsilməsi Onun Dölünün Də Kəsilməsi Deməkdir*

Əbu Səid – *radıyallahu anhu* - rəvayət edir ki, bir gün Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən soruşdum: "Ya Rəsulallah! Biz dəvə, inək və ya qoyunu kəsdikdə bətnində dölünü də tapırıq. Biz onu yeyək,

yoxsa ataq?". Peyğəmbər: "Yeyin, əgər istəyirsinizsə. Çünki dölün kəsilməsi ananın da kəsilməsidir" deyə buyurdu. Əbu Davud 2827, Tirmizi 2/72.

O, ki qaldı boğazdı (hamilə) heyvanların alınmasına və kəsilməsinə bu barədə heç bir qadağa yoxdur. Kim əksini iddia edirsə dəlil gətirməlidir.

## *Sol Əllə Yeyib İçməyin Qadağan Olunması*

Səlim atasından rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Sizdən heç biriniz sol əli ilə yeməsin, sol əli ilə içməsin. Çünki şeytan sol əli ilə yeyər, sol əli ilə içər". Nəfi əlavə edir ki: "Sol əli ilə alar, sol əli ilə verər". Buxari "Ədəbul Mufrad" 1189. Aişə – *radıyallahu anhə* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bütün işlərinə dəstəmaz aldıqda, saçını daradıqda, ayaqqabı geyindikdə, yeməkdə, içməkdə, paltar geyindikdə sağdan başlamağı xoşlayardı. Sol əlini də ayaq yolunda və xoş olmayan işlər üçün itifadə edərdi". Buxari 168, Müslim 268, Əbu Davud 32. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Biriniz ayaqqabısını geyindikdə sağdan başlasın. Çıxardığı zaman da soldan başlasın. Beləliklə sağ ayaq ilk geyindirilən və son çıxardılan olsun". Buxari 5856, Müslim 2097. Ənəs – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ə su ilə qatışdırılmış süd gətirdilər. Sağında bir bədəvi, solunda Əbu Bəkr – *radıyallahu anhu* – dayanmışdı. Allah Rəsulu içdikdən sonra südü bədəviyə verdi və: "Sağı təqib edin" deyə buyurdu. Buxari 5619, Müslim 2029. Səhl b. Sad – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ə içiləsi bir şey gətirildi. Ondan içdi. Sağ tərəfində bir uşaq, sol tərəfində isə bir yaşlı (səhabə) oturdu. Peyğəmbər: "Suyu böyüklərə verməyimə icazə verərsənmi?" deyə buyurdu. Uşaq: "Vallahi xeyr!" dedi. Səndən gələn nəsibimi heç kimə verməərəm. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bardağı ona verdi (sağda olan insan isə İbn Abbas – *radıyallahu anhu* – idi)". Buxari 5650, Müslim 2050.

## *Sol Əldən İstifadə Yeri*

Əbu Qatadə – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Sizdən biriniz kiçik ayaq yoluna çıxdıqda övrətini sağ əli ilə tutmasın və sağ əliylə yuyunmasın. (Bir şey içərkən) qabın içinə doğru nəfəs alıb-verməsin". Buxari 154, Müslim 267. Aişə – *radıyallahu anhə* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi*

*və salləm* – sol əlini ayaq yolunda və xoş olmayan işlər üçün istifadə edərdi”. Buxari 168, Müslim 268.

## *Yeməkdə Olan Qadağalar*

Sələmə b. Əkva – *radıyallahu anhu* – rəvayət edir ki, bir nəfər Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in hüzurunda sol əliylə yeyirdi. Peyğəmbər: “Sağ əlinlə ye!” deyə buyurdu. Adam: “Bacarmıram” dedikdə Peyğəmbər: “Səni görüm heç bacarmayasan” deyə buyurdu. O, kimsə sağ əllə yeməməsinə yalnız təkəbbürlüyü mane oldu. Sələmə – *radıyallahu anhu* – deyir ki: “Həqiqətən də o, kimsə sağ əlini bir daha ağzına aparmadı”. Müslim 2021. Ömər b. Əbi Sələmə – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “(Yeməyin əvvəlində) ***Bismilləh*** de, sağ əlinlə ye və önündən başla”. Buxari 5376, Müslim 2022. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – heç bir zaman heç bir yeməyi pisləməzdi. Ürəyi istədikdə yeyərdi, istəmədikdə yeməzdi”. Buxari 5409, Müslim 2064. Əbu Cuhəfə Vəhb b. Abdullah – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Mən yaslanaraq yemək yemirəm”. Buxari 5398. İbn Abbas – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Biriniz yemək yediyiniz zaman barmaqlarını yalamadıqca onları silməsin”. Buxari 5456, Müslim 2031. Kəb b. Məlik – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – üç barmağıyla yeyərkən gördüm. Yeməyini bitirdikdə barmaqlarını yaladı”. Müslim 2044. Cabir – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Birinizin loxması düşdüyü zaman dərhal onu qaldırsın. Ona yapışan (tozu) təmizləsin və yesin. Onu şeytana buraxmasın. Barçaqlarını yalamadıqca əlini dəsmalla silməsin. Çünki bərəkətin yeməyin hansı hissəsində olduğunu bilməz (Başqa rəvayətdə: Yemək qabını sünnətləməyi əmr etdi)”. Müslim 2033. İbn Abbas – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Dəvə içdiyi kimi bir nəfəsə içməyin. İki, üç nəfəsə için. İçdiyiniz zaman ***Bismilləh*** deyin. Qurtardığınız zaman Əlhəmdulilləh deyin (Başqa rəvayətdə: İçərkən üç dəfə nəfəs alıb, verərdi)”. Buxari 5631, Müslim 2028. Əbu Qatadə – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Suya doğru nəfəs almağı qadağan etmişdir”. Buxari 5630, Müslim 267. İbn Ömər – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Kafir yeddi

bağırsağı doldurmaq üçün yeyər, mömin isə bir bağırsağı doldurmaq üçün yeyər". Müslim 2060.

## *İçməkdə Olan Qadağalar*

Əbu Səid əl-Xudri – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – su qablarının ağzını əyərək onlardan su içməyi qadağan etmişdir". Buxari 5625,5627, Müslim 2023. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Sizdən heç kimsə ayaq üstə su içməsin. Hər kim də unudaraq su içərsə dərhal qussun". Müslim 2026. İbn Abbas – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – qabın içinə nəfəs verməyi və ya (yeyiləsi və içiləsi bir şeyin içinə) üfləməyi qadağan etmişdir". Tirmizi 1888,1889. Ənəs – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bir nəfərin ayaq üstə su içməsini qadağan etdi". Qatadə – *radıyallahu anhu* – deyir ki, biz Ənəs – *radıyallahu anhu* – dan: "Bəs yemək?" deyə soruşduq. Ənəs: "Bu daha pisdir" dedi. Müslim 2024[30].

# BƏZİ ŞÜBHƏLƏRİN AYDINLAŞDIRILMASI

Bəzi insanlar təqva əlaməti olaraq şübhəli şeylərdən qaçmaq məqsədilə böyük günah sahiblərinin kəsdikləri heyvanların ətlərini yeməyi qadağan edirlər. Bu da dində ifrata varmaqdır ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bizi bundan çəkindirmişdir. Ənəs – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Asanlaşdırın çətinləşdirməyin, sevdirin nifrət etdirməyin". Buxari. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Dində çox ifratdan (şişirtməkdən) çəkinin. Həqiqətən sizdən əvvəlkiləri

---

[30] ***Ayaq Üstə Su İçməyə Rüxsət Verən Hədislər:*** İbn Abbas – *radıyallahu anhu* – rəvayət edir ki, mən Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ə Zəm-Zəm suyunu verdim. O, da ayaq üstə içdi". Buxari 5617, Müslim 2027. Əli – *radıyallahu anhu* – (Kufə məscidinin) Rahbə qapısına gəldi. Orada ayaq üstə su içdi və: "Mən Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in mənim necə etdiyimi görürsünüzsə belə edərkən gördüm" deyə cavab verdi. Buxari 5615. İbn Ömər – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in zamanında yeriyərkən yeyirdik və ayaq üstə də su içərdik". Tirmizi 1881. Amr b. Şueyb öz atasından, o da öz babasından rəvayət edir ki, biz Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in ayaq üstə və oturaraq su içdiyini gördük". Tirmizi 1884. Ummu Sabit Kəbşə b. Sabit – Həsən b. Sabit – *radıyallahu anhu* – nun qızı rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bizə gəldi və (divardan) asılmış olan su tuluğunun ağzından ayaq üstə su içdi". Tirmizi 1893.

dində çox ifratçılıq (şişirtmək) məhv etdi”. Nəsəi 4/49, İbn Məcə 3/29, Əhməd 1/215, əl-Albani Səhih. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “İfrata varanlar məhv oldular”. Müslim 2670, Əbu Davud 4608.

İbn Teymiyyə – *rahmətullahi aleyhi* - deyir ki: “Dində çox ifrat – sözləri ümumidir və özündə bütün növ ifratçılığı əhatə edir. Bu da istər etiqadda, istərsə də əməllərdə olsun”. “İqtida” 1/328. Hafiz İbn AbdulBər – *rahmətullahi aleyhi* - deyir ki: “Müsəlman bir kimsənin kəsdiyi hər bir şeyi yemək icazəlidir və hesab etmək lazımdır ki, o Allahın adını zikr edərək kəsmişdir. Çünki müsəlman haqqında əksi sübut olunana qədər yaxşıdan başqa heç bir şey düşünmək olmaz”. “Neylul Əvtar” 4/327.

Ətin halı onu kəsənin halından aslıdır. Əgər heyvanı kəsən kimsə müsəlmandırsa və onu İslamdan çıxardacaq (açıq-aydın) bir küfr, şirk əməli yoxdursa, həmçinin onun kəsdiyi heyvanın üzərində Allahın adını zikr edib, etmədiyi bilinmirsə bütün alimlərin ittifaqı ilə belə bir əti yemək olar. “Əhkamul Zəbh” 57.

Əhli Sünnə Vəl Cəmaat əqidəsinin əsaslarından biri də budur ki, onlar cahil və təvilçi bir kimsənin küfrə aparan bir əməl etməsi halında – *tərk edənin kafir olmasına səbəb təşkil edəcək olan* – dəlili ona qarşı ortaya qoymadıqca İslam dinindən çıxdığını söyləməzlər. Onlar yenə də qəlbi iman ilə dolu olub onunla rahat və hüzur tapması ilə məcbur edilən bir kimsəni də küfrə aparan bir əməl etməsiylə və ya sözüylə dindən çıxdığını söyləməzlər. Çünki küfrün əsası qəstli olaraq yalanlamaq, küfrdən qəlbən razı olmaq, küfrə inanmaq, küfrdən sevinmək və rahatlıq hiss etməkdir. Necə ki, kafir imanı küfrdən üstün tutmadıqca mömin olmaz, eləcə də mömin məqsədli şəkildə küfrü imandan üstün tutmadığı halda müsəlmanların rəyinə görə kafir sayılmaz. Kitab və Sünnədən bir işin küfr olduğunu ortaya qoyan bir dəlil olmadığı müddətdə kimsənin kafir olduğuna hökm etməzlər. Bir kimsə bu hökm üzərə öləcək olarsa işi Uca Allaha qalmışdır. Diləsə ona əzab edər, diləsə onu bağışlayar. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Allah kimə bir əməl qarşılığı savab vəd etsə Allah onu şübhəsiz ki, yerinə yetirəcəkdir. Kimə də bir əməl qarşılığında cəza vəd etsə Allah onda ixtiyar sahibidir (istəsə ona əzab verər, istəsə onu bağışlayar)”. Əbu Yəla “Musnəd” 3316, İbn Əbi Asim “Sünnə” 960, əl-Albani “Səhih Hədislər Silsiləsi” 2463. Belə bir kimsəyə qarşı haqq açıqlanmadığı müddətdə, onun haqqında belə hökm verməzlər. Haqqın açıqlanması isə ona qarşı dəlilin ortaya qoyulması və şübhəsinin aradan qaldırılması ilə olur. Müəyyən bir kimsəni də yalnız lazımı şərtlərin gerçəkləşməsindən və maneələrin ortadan qalxmasından sonra təkfir eərlər. Qəti plaraq müsəlman olduğu

sabit olan kimsənin bu müsəlmanlığı şübhə ilə ortadan qalxmaz – şəkilindəki Sələfi qaydalarının işığında Sələfi Saleh hərəkət etmiş və bu baxımdan insanları təkfir etməkdə insanlar arasında ən uzaq kimsələrdir.

Şeyx Saleh Əli Şeyx – *hafizahullah* - deyir ki: "(Bu alim namazı tənbəllik ilə tərk edəni (buraxanı) kafir sayanlardandır) Bir kimsənin sadəcə namazı tərk etdiyinə görə Dindən çıxdığı hökmü verilməz. Lakin ümumi olaraq deyilir ki: Kim namazı tərk edərsə - Kafirdir. O, ki qaldı fərdi (müəyyən) şəxsə onu küfrdə ittiham etmək və kafirlərə tətbiq olunan qaydaları onun üzərinə tətbiq etmək üçün vacibdir ki, bu qərarı qazı versin. Çünki Qazı ondan bütün şübhələri dəf edir, onu tövbə etməyə çağırır o, namaza başlayana qədər". "Şərh 40 Hədis" 21. ***Burada daha bir fayda da vardır:*** Qazı namaz qılmayan bir müsəlmanı namaza dəvət etməsi dəlildir ki, namaz qılmayan kafir deyildir. Çünki kafiri namaza yox, İslama dəvət edirlər. İmam Təhavi – *rahmətullahi aleyhi* - deyir ki: "Namazı tərk edənin (qılmayanın) kafir olmadığına dəlil odur ki, biz kafirə namaz qılmasını əmr etmirik. Əgər namazı tərk edən (qılmayan) kafir olsaydı biz ona İslamı qəbul etməsini əmr edərdik. Əgər İslamı qəbul etsə ondan sonra biz ona namaz qılmasını əmr edərdik. Lakin biz belə etməyib ona namaz qılmasını əmr edirik. Çünki o, namaz əhlindən sayılır". "Muşkukl Əsar" 4/228.

Şeyx Useymin – *rahmətullahi aleyhi* - deyir ki: "(Əgər söhbət müəyyən şəxsdən gedirsə) Qadağandır bir kimsəni müşrik, kafir və ya lənətlənmiş adlandırmaq bu əməllərinə görə. Çünki bunun öz şərtləri və maneələri vardır. Buna görə də müəyyən şəxsi hansı ki, qazancı rüşvətdəndir lənətləmirik. Çünki ola bilər ki, elə şeylər vardır ki, o lənətin ona gəlməsinin qarşısını alır məs: cahillik və şübhə. Həmçinin şirk də belədir. Biz müəyyən bir insanı şirk etdiyinə görə müşrik adlandırmırıq. Ola bilər ki, ona dəlilin çatmaması və ya onun ətrafında yaşayan alimlərin səhlənkarlığından dəlillər çatmayıb. Alimlərin bu məslədə biganəliyi qadağan edir müəyyən bir şəxsə kafir deməyə… Ölüdən bir şey istəmək şirkdir, lakin müəyyən bir şəxsi bu əməlinə görə müşrik adlandırmaq qadağandır ta ki, hüccətin ona çatdığı bizlərə bəlli olana qədər". "Şərh Kitabu Tovhid" 29-30.

İbn Teymiyyə – *rahmətullahi aleyhi* - filan sözü deyən kafir olur – sözü barəsində deyir ki: "Həqiqətdə məsələ belədir: Ola bilər deyilən söz küfr olsun və belə bir söz deyən insanın ümumi ifadələrlə kafir olması deyilsin. Məs: Kim belə deyərsə o, kafirdir. Lakin bunu deyən fərdi insanın kafir olmasına hökm vermək olmaz. Bunun üçün hüccət çatdırılmalıdır. Elə bir hüccət ki, ona qarşı çıxan artıq kafir olar. Bu qayda

Qurani Kərimin əzab vəd edən ayələrinə aiddir: ***"Həqiqətən, yetimlərin mallarını haqsızlıqla yeyənlərin yedikləri qarınlarında oda çevriləcək və onlar** (Qiyamətdə) **alovlu Cəhənnəmə girəcəklər".*** (ən-Nisa 10). Bu və digər belə əzab vəd edilən ayələr haqdır. Lakin müəyyən bir insanın belə əzaba düçar olmasını demək olmaz. Ümumiyyətlə Qiblə əhli sayılan müəyyən bir insanın Cəhənnəmlik olmasına şahidlik edilməz. Çünki ola bilər onun barəsində əzabın haqq olmasına aid şərtlər tamamlanmasın, yaxud bu əzaba mane olan səbəblər olsun. Məs: Etdiyi əməlin haram olmasını eşitməyib, tutduğu haram işdən tövbə edib, ola bilər qazandığı böyük savablar etdiyi haram işin günahını yusun, həmçinin ola bilər ki, başına gələn müsibətlər günahının bağışlanmasına səbəb olsun və ya Allahın razılıq verdiyi kimsə ona şəfaətçi olsun. Deyilən insanı kafir edən sözlər də belədir. Ola bilər kimsə haqqı bilməsi üçün şəriət dəlilləri yetişməyib, yaxud da ola bilər ona çatıb, lakin onların mötəbərliyinə əmin olmayıb, bəlkə onları başa düşmək imkanı olmayıb və ya onun qarşısına qoyulan şübhələrə görə Allah onu üzürlü saysın. Haqqı axtarmaq üçün ictihad edib səhf nəticəyə gələn hər bir müsəlmanın səhfini Allah bağışlayır. Bunun elmi və ya nəzəri məsələlərdə olmasının fərqi yoxdur. Bu Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in səhabələrinin və bütün İslam alimlərinin görüşüdür. Onlar inkar baxımından əməlləri hissələrə bölməmişlər. Əsas əməlləri inkar edənin kafir, ikinci dərəcəli əməlləri inkar edənin isə kafir olmaması görüşünü dəstəkləmşlər". "Məcmuu Fətava" 23/345-346. İbn Teymiyyə – *rahmətullahi aleyhi* - deyir ki: "Mən Allahın Ərşi üzərində olmasını qəbul etməyən Hülulilərdən – *Allahın hər bir insanın daxilində olmasını deyən azğın firqə* - və inkarçılardan olan Cəhmilərin fitnəsi baş verən zaman onlara deyərdim. Əgər mən sizin dediklərinizi desəm mən kafir olaram. Çünki sözlərinizin küfr olduğunu bilirəm. Sizi isə kafir hesab etmirəm. Ona görə ki, cahilsiniz. Bu müraciət onların alimlərinə, qazılarına, şeyxlərinə və başçılarına ünvanlanmışdır. Onların cəhalətlərinin əsli əqli şübhələr üzərində qurulmuşdur. Buna səbəb səhih nəql və ona müvafiq olan sağlam düşüncəni dərk edə bilmədikləri olmuşdur. Ona görə də onların cəhalətlərinə və iftiralarına eyni tərzdə kafir adlandırmaqla cavab verməzik". "Raddu aləl Bəkri" 2/493.

Muhəmməd b. AbdulVahhab – *rahmətullahi aleyhi* - deyir ki: "Biz AbdulQadirin qübbəsindəki bütə sitayiş edən kimsələri, həmçinin Əhməd Bədəvinin qəbrinə ibadət edən kimsələri cahillikləri və onlara bu əməllərinin səhf olmasını başa salacaq insanlar olmadığı üçün onları təkfir etmirik. Bizi təkfir etmədiyi və bizimlə savaşmadığı halda Allaha şərik

qoşmayan şəxsləri bizə hicrət etmədi deyə necə kafir adlandıra bilərik? Subhənəllah! Bu bizə qarşı olan böyük iftiradır”. Dəhlan “Siyanətul İnsan” 449. Muhəmməd b. AbdulVahhab – *rahmətullahi aleyhi* – ondan: “Bir kimsə hansı günahdan ötrü təkfir edilir və hansı günahdan ötrü onunla döyüşlür deyə soruşan bir kimsəyə verdiyi cavabıda deyir ki: “İslamın rükunları beşdir. Bunların ilki Şəhadət Kəliməsidir. Sonra digər rükunlar gəlir. Bu rükunları bir kimsə iqraq etdiyi halda təmbəllik səbəbilə tərk edərsə, biz o, kimsə ilə rükunu tərk etdiyindən ötrü döyüşsək də, onu öldürsək də əsla təkfir etmərik. Fərziyyətini inkarsız təmbəllik səbəbilə bir rükunu tərk edənin küfründə alimlər ixtilaf etmişlər. Bütün alimlərin, küfründə icma etdikləri şeyi biz də təkfir edirik. O, da Şəhadət kəliməsidir”. “əd-Durus Səniyyə” 1/70.

üsəlman bir kimsənin kəsdiyi əti yemək olmaz demək, eynilə onu təkfir etmək deməkdir. Buna görə də bir kimsəni küfrdə ittiham etmək, müşrik, kafir, fasiq, bidətçi və s. demək təhlükəli məsələlərdəndir və bu məsələdə şübhələr aradan qaldırılmadıqca və maneələr dəf edilmədikcə bir kimsəyə hüccət qaldırmaq olmaz. Lakin hüccəti də dünənki fasiq, günahkar qaldırmamalıdır. Bunu edən Qazı olmalıdır.

Günümüzdə olan təkfir əhli sağa-sola istədiklərini kafir, münafiq, fasiq adlandırırlar. İstədiyinə münafiq adını verir, istədiyindən də münafiq adını qaldırır. Sünbhənəllah! Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Allah ona xəbər vermədikcə heç kəsin münafiq olduğunu bilmirdi. Əbu Bəkr, Ömər – *radıyallahu anhum* - kimi səhabələr münafiqləri tanımırdılar. Ömər – *radıyallahu anhu* – kimi səhabə Huzeyfə b. Yəmən – *radıyallahu anhu* - ya deyərdi: “Ey Huzeyfə! Allah haqqı üçün söylə, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – onlar arasında mənim adımı zikr edibmi?”. Huzeyfə: “Xeyr, lakin səndən sonra heç kimsəyə bu haqda bir şey söyləməyəcəyəm” deyə cavab verdi. “Fəthul Bəri” 1/109. İnsanların qəlblərinə girib oradan xəbər verməyi ilk dəfə onların babaları Zul Xuveysrə qoymuşdu. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ə: “Ey Muhəmməd! Allahdan qorx, adil ol!” demişdir. Buxari, Müslim.

***Həmçinin:*** Bəzi kimsələr şübhə salaraq deyirlər ki: “Günümüzdə olan Kitab Əhli - əvvəlki Kitab Əhli kimi deyildir. Çünki onlar heyvanı Oğul, Ata və Müqəddəs ruh naminə kəsirlər. Onda belə bir sual çıxır. Məgər Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in dövründə yaşayan Kitab Əhli qeyri adi idi? Onlar da Oğul, Ata və Müqəddəs ruh deyirdilər. ***“Allah üçün** (üç ilahinin) **üçüncüsüdür!” – deyənlər, əlbəttə, kafir olmuşlar. Halbuki bir olan Allahdan başqa heç bir tanrı yoxdur. Əgər onlar dediklərinə son qoymasalar, onlardan kafir olanlara, şübhəsiz ki,***

***şiddətli bir əzab üz verəcəkdir*** *(toxunacaqdır)****”.*** (əl-Maidə 73). ***“Yəhudilər: “Üzeyr Allahın oğludur”, xaçpərəstlər də: “Məsih*** *(İsa)* ***Allahın oğludur”, - dedilər. Onların ağzında gəzən bu*** *(boş)* ***sözlər daha öncə küfr edənlərin*** *(“mələklər Allahın qızlarıdır” - deyənlərin)* ***sözlərinə bənzəyir. Allah onları öldürsün!*** (Allah onlara lənət eləsin!) ***Necə də*** (yalana uyub haqdan) ***döndərilirlər!”.*** (ət-Tövbə 30).

***Həmçinin:*** Onlar deyirlər ki, kəsdikləri heyvanların ətlərinin yeyilməsinə icazə verilən Kitab Əhli - İsrail övladlarıdır. İmam ət-Təbəri – *rahmətullahi aleyhi* - deyir ki: “İmam Şafii – *rahmətullahi aleyhi* - nin bu ayənin: ***“Kitab Əhlinin yeməkləri sizə halal edildi”*** təfsirində dedikləri xətadır. O, qeyd edir ki, bu ayədə qəsd olunan Yəhudi və Xaçpərəstlər, Tövrat və İncil nazil olmuş İsrail övladlarından olan kimsələrdir. Lakin səhih odur ki, Adəm övladının nəslindən gələn istənilən Yəhudi və Xaçpərəst millətinin kəsdikləri heyvanların ətlərini yemək olar (Dinimizin icazə verdiyi heyvanlar)”. “Təfsir ət-Təbəri” Maidə 5.

***Həmçinin:*** Əli – *radıyallahu anhu* – da Nəsrani olan Bəni Təqib qəbiləsinin kəsdikləri heyvanların ətlərini yeməyi qadağan edirdi. O, deyirdi: “Nəsrani olan Bəni Təqlib qəbiləsinin kəsdikləri heyvanların ətlərini yeməyin”. Təbəri 8897. Əli – *radıyallahu anhu* – belə hesab edirdi ki, bu qəbilə Kitab Əhlinin dininə layiqincə itaət etmirdilər. Kitab Əhlinin halal və haramını, Halal və haram saymırdılar. Lakin buna baxmayaraq İbn Abbas, Həsənul Bəsri, İkrimə, Şabii, Zuhri, Ata, Qatadə - *Allah onlardan razı olsun* – Nəsrani olan Bəni Təqlib qəbiləsinin kəsdikləri əti yeməyi və qadınları ilə evlənməyi halal görürdülər. “Təfsir ət-Təbəri” 5/169. İbn Teymiyyə – *rahmətullahi aleyhi* - deyir ki: “Səhabələrin çoxluğu Nəsrani olan Bəni Təqlib qəbiləsinin kəsdikləri ətlərin yeyilməsini icazəli hesab ediblər və Əli – *radıyallahu anhu* – dan başqa bu əməli qadağan edən bir kimsə də yoxdur. Alimlər belə bir qərara gəliblər ki, bu məsələdə ən gözəl rəy Ömər və İbn Abbas – *radıyallahu anhum* – un, Bəni Təqlib qəbiləsinin qadınları ilə evlənmək və kəsdikər heyvanların ətlərini yemək icazəlidir. Abu əl-Asram deyir ki: “Mən Əli – *radıyallahu anhu* – dan başqa bu əməli qadağan edən başqa bir səhabə tanımıram”. “Məcmuu Fətava” 35/678.

Özünü Kitab Əhlinə (Yəhudi və Xaçpərəst) aid edən kimsələrin kəsdikləri heyvanların ətlərini Allah bizə halal etmişdir və heç bir fərq yoxdur istər onlar Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in dövründə yaşayan Kitab Əhli olsun, istərsə də ondan sonra. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in dövründə icazə verilən hər bir şey Qiyamət gününə qədər də icazəlidir. “əl-Cami” 1/663. Buna görə də bu məsələdə şübhəyə

düşmək əsası olmayan bir şeydir. Dində qaranlıq bir şey olsaydı Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – mütləq onu bizə xəbər verərdi. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in bu ümmətinə olan sevgi və qayğısı, hər bir kəsin dinə olan sevgi və qayğısından daha çoxdur. Buna görə də Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Cəhənnəmə və Cənnətə aparan, günaha və savaba aparan bütün yolları bizə xəbər vermişdir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Sizi Cənnətə yaxınlaşdıracaq elə bir əməl yoxdur mən onu sizə əmr etməyim və sizi Cəhənnəmə yaxınlaşdıracaq elə bir əməl yoxdur ki, mən onu sizə qadağan etməyim". Təbərani, "Səhih Silsilə" 2866. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Sizə gecəsi gündüzü kimi tərtəmiz bir yol qoyuram. Bundan sonra kimsə yolundan azmaz. Azanlar isə həlak olurlar". İmam Əhməd "Musnəd".

***Həmçinin:*** Qeyd edirlər ki, günümüzdə olan Kitab Əhli və ya müsəlmanlar heyvanı kəsmirlər. Onlar elektrik cərəyanı ilə vurub öldürürlər. Allah – *subhənəhu və təalə* - Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – i ətin necə kəsildiyini, ***Bismilləh*** – deyib-demədiyini öyrənməklə mükəlləf etməmişdir. Yalnız öyrənilməsi icazə verilən kəsənin Kitab Əhli və ya müsəlman olub-olmadığıdır. Aişə - *radıyallahu anhə* - rəvayət edir ki, bir qrup insanlar Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in yanına gələrək dedilər: "Ya Rəsulallah! Bizə ət yeməyi gətirirlər. Lakin üzərində Allahın adının zikr olunub-olunmadığını bilmirik?". Peyğəmbər: "Bunun üçün siz ***Bismilləh*** deyib, sonra da yeyin". Onlar İslamı yeni qəbul etmiş kimsələr idi. Buxari 2057. Ənəs – *radıyallahu anhu* – rəvayət edir ki: "Xeybər günü Yəhudi bir qadın Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – ə zəhər qatılmış qoyun budu gətirir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – həmən ətdən yeyir". Buxari 2617, Müslim 2190. Hədisdən görünür ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – həmin Yəhudi qadından ətin nə cür və necə kəsildiyi barədə heç bir şey soruşmur. Əbu Hureyrə – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Sizlərdən bir kimsə müsəlman qardaşının (evinə) qonaq getsə, o da onun qarşısına yemək qoysa qoy onun yeməyini yesin və bu haqda heç bir şey soruşmasın. Əgər içməyə bir şey verərsə qoy içsin və heç bir şey soruşmasın". Əhməd 8933, Darakutni 4/258, "Səhih Silsilə" 627. Allah bizlərə hər namaz vaxtı dəstəmaz almağı əmr edib. Cünub ikən qüsul almağı əmr edib və s. Lakin sənə namaz zamanı imamın dəstəmazının olub-olmadığını öyrənmək əmr olunmayıb. Daimi Fətvalar Komitəsi 22/445 deyirlər ki: "Əgər heyvan elektrik cərəyanı vurularaq (asantlıqla kəsmək üçün) yerə yıxılırsa bu cür əti yemək icazə

verilir. Lakin elektirik cərəyanı zamanı heyvan ölərsə bu cür əti yemək olmaz. Çünki ölü (leş) sayılır".

## MÜASİR SƏLƏF ALİMLƏRİNİN KƏSİLMİŞ HEYVANIN HÖKMÜ BARƏSİNDƏ

***1. Sual:*** Hörmətli Şeyx, sizə məlumdur ki, bu gün Kitab Əhli olan dövlətlərdə müxtəlif dinlərə məxsus olan bir çöx millətlər bir birinə qarışmışlar və bu səbəbdən də onların kəsdiyi heyvanlar barəsində olan şübhələr bu ölkələrdə daha çoxdur. Şəriətin onların kəsdiyi heyvanların əti barəsində hökmü nədir? Bu məsələdə (sualda) təfsilata varmağa və dəqiqləşdirməyə ehtiyac varmı? Xahiş edirik sizdən bu suala bir aydınlıq gətirəsiniz, çünki bu məsələ bizi çox çaşqınlığa salıb.

***Şeyx Useymin – rahmətullahi aleyhi - deyir ki:*** "Kəsilmiş heyvanın ətinin yeyilməsi aslıdır insanın bilməsindən və ya ehtimal etməsindən ki, heyvanı kəsən kimsə ətinin yeyilməsinə icazə verilən qrupdandır. Bunlarda Kitab Əhli (Yəhudi və Xaçpərəst) və Müsəlmanlardır. Heyvanı kəsən kimsənin Yəhudi və Xaçpərəst olmasında şübhə etsək, əgər şübhəmizin 60-70% onların Kitab Əhli olmasını ehtimal etsə onlar tərəfindən kəsilmiş heyvanın ətini yemək olar. Lakin şübhəmizin çox % onların Kitab Əhli olmadığını bizə xəbər verərsə bu zaman kəsilmiş əti yemək olmaz. Beləliklə bizdə kəsilmiş heyvanlarla bağlı beş hal var:

1. Biz bilirik ki, kəsilmiş heyvan Kitab Əhli tərəfindən kəsilib. Bu halda bu cür əti yemək halaldır.
2. Biz ehtimal edirik ki, kəsilmiş heyvan Kitab Əhli tərəfindən kəsilib. Bu halda bu cür əti yemək halaldır.
3. Biz şübhədəyik bu ətin Kitab Əhli tərəfindən kəsilib kəsilməməsində.
4. Biz şübhədəyik. Lakin şübhəmizin çox % onların Kitab Əhli olmadığını bizə xəbər verir. Bu halda bu cür əti yemək qadağandır.
5. Biz qəti olaraq bilirik ki, heyvanı kəsən kimsə Kitab Əhli deyildir. Bu halda bu cür əti yemək qadağandır.

Bu beş haldan üçü qadağan olunmuş, ikisi isə halaldı. Biz eşitmişik ki, Amerika dövlətində heyvanları elektrik cərəyanı ilə vurub (heyvan ölməmişdən) öncə qanını axıdırlar. Canı çıxmamış kəsilən heyvanların ətləri isə halaldı. ***"Ölü*** *(kəsilmədən ölüb murdar olmuş)* ***heyvan, qan, donuz əti, Allahdan başqasının adı ilə*** *(bismillah deyilmədən)* ***kəsilmiş, boğulmuş,*** *(küt alət və ya silahla)* ***vurulmuş,*** *(bir yerdən)* ***yıxılaraq ölmüş,*** *(başqa bir heyvanın buynuzu ilə)* ***vurulub gəbərmiş, vəhşi heyvanlar tərəfindən parçalanıb yeyilmiş - canı çıxmamış kəsdiyiniz***

***heyvanlar müstəsnadır - dikinə qoyulmuş daşlar*** *(bütlər və ya Kəbənin ətrafındakı bütpərəst qurbangahlar)* ***üzərində kəsilmiş heyvanlar və fal oxları ilə pay bölmək sizə haram edildi".*** (əl-Maidə 3). Həmçinin bu cür ölkələrə gedən bir çox cavan nəsillərdən eşitmişəm ki, hal-hazırda (kafirlər) qanı axıdılmamış heyvanların ətinin satış üçün yararlı olmadığı aydın olub və onlar qanın axıdılmasını müsəlmanlardan fərqli edirlər. Onlar boyunduruq damarını kəsir, digər boyun damarına isə aparat qoşurlar ki, üfürərək qanı çıxarsın. Həqiqətdə isə bu qanın axıdılmasıdır, sadəcə fərqli üsulla. Mümkündür ki, günlərin birində onlarda müsəlmanların etdikləri (boyun damarlarını kəsməklə qanın axıdılması) üsuluna qayıtsınlar.

Lakin məsələ nə olursa olsun (kəsilmiş heyvanın halal və ya haram olması barəsində), əgər sən şübhələrdən qaçmaq, problemlərdən uzaq olmaq istəyirsənsə bu zaman balıq yeməyin daha məsləhətlidir.

***"Fətava İbn Useymin" 1182.***

***2. Sual:*** Hörmətli Şeyx, elektrik cərəyanı ilə vurulmuş, lakin başının kəsilərək, qanının axıdıldığı heyvanlar barəsində bir açıqlama gətirməyinizi xahiş edirik?

***Şeyx Useymin – rahmətullahi aleyhi - deyir ki:*** "Başı kəsildikdən sonra qanı axırsa bu onu göstərir ki, elektrik cərəyanı heyvanı yalnız zəiflətmək (keyləşdirmək) üçün istifadə edilir. Bu halda bu cür üsulla kəsilmiş heyvanın ətini yemək halaldır. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Qanı axıdılmış və Allahın adı ilə zikr edilmiş heyvanın ətindən yeyin". Buxari 2488. Əgər elektrik cərəyanı ilə heyvan öldürülmüş olsaydı ondan qan heç vaxt çıxmazdı. Çünki heyvan öldükdə artıq qanın forması dəyişir və laxtalanma baş verir ki, bu da qanın çıxmasının qarşısını alır. Lakin məsələ nə olursa-olsun, qardaşımızın dediyi kimi əgər elektrik cərəyanı ilə vurulmuş heyvanı canı çıxmamışdan qabaq kəsib qanını axıdıblarsa bu şəriətə uyğundur". ***"Ölü*** *(kəsilmədən ölüb murdar olmuş)* ***heyvan, qan, donuz əti, Allahdan başqasının adı ilə*** *(bismillah deyilmədən)* ***kəsilmiş, boğulmuş,*** *(küt alət və ya silahla)* ***vurulmuş,*** *(bir yerdən)* ***yıxılaraq ölmüş,*** *(başqa bir heyvanın buynuzu ilə)* ***vurulub gəbərmiş, vəhşi heyvanlar tərəfindən parçalanıb yeyilmiş - canı çıxmamış kəsdiyiniz heyvanlar müstəsnadır - dikinə qoyulmuş daşlar*** *(bütlər və ya Kəbənin ətrafındakı bütpərəst qurbangahlar)* ***üzərində kəsilmiş heyvanlar və fal oxları ilə pay bölmək sizə haram edildi".*** (əl-Maidə 3). Ayədə sadalananların hər biri haram edilmişdir, yalnız canı çıxmadan kəsdiyimiz heyvanlar müstəsnadır. Elektirik cərəyanı ilə öldürülmüş heyvan boğularaq öldürülmüş heyvanın misalındadır. Allah

boğularaq öldürülmüş heyvanların ətlərini yeməyi bizə haram edib. Lakin Allah istisna edib canı çıxmadan kəsdiyimiz heyvanları. Buna görə də elektrik cərəyanı heyvanı yalnız zəiflədir və onu canı çıxmamışdan öncə kəssək halal hesab olunur. Lakin əgər elektrik cərəyanı heyvanı öldürərsə, baxmayaraq bu sual verənin sözlərinə ziddir, çünki o, qeyd etmişdir ki, qanı axıdılır, bu zaman bu cür kəsilən əti yemək olmaz.

***"Fətava Nuru ad-Darb".***

***3. Sual:*** Hörmətli Şeyx, günümüzdə Xaçpərəstlər tərəfindən kəsilmiş heyvanların ətləri barəsində nə deyə bilərsiniz? Biz bilirik ki, onlar heyvanları müxtəlif üsullar aparatlar və yuxugətirici vasitələrdən istifadə edərək kəsirlər.

***Şeyx İbn Baz – rahmətullahi aleyhi - deyir ki:*** "Bu cür heyvanların ətlərini yemək icazəlidir, əgər onların şəriətə uyğun olmayaraq kəsilməsi məlum deyilsə. Onların kəsdikləri heyvanların əsli (təməl) halal olmasıdır. Onların kəsdikləri heyvanların ətləri bizə halal edildiyi kimi, bizim kəsdiyimiz heyvanların ətləri də onlara halaldır. ***"Bu gün pak nemətlər sizə halal edilmişdir. Kitab əhlinin yeməkləri sizə, sizin yeməkləriniz isə kitab əhlinə halaldır!..."*** (əl-Maidə 5).

***"Fətava İslamiyya" 3/401.***

***4. Sual:*** Hörmətli Şeyx, əgər heyvanı kəsərkən Allahın adının zikr edilib-edilməməsi məlum deyilsə, belə kafe və yeməkxanalarda verilən ətləri yemək olarmı?

***Şeyx İbn Baz – rahmətullahi aleyhi - deyir ki:*** "Əgər bu yeməkxanalar Müsəlmanların, Kitab Əhlinin yaşadığı şəhərlərdə olarsa və ya bu yeməkxanaların sahibləri Müsəlmanlar və Əhli Kitab olarsa hansı ki, özləri bu heyvanların kəsilməsi ilə məşğul olurlar (və ya kəsilməsinə cavabdehdirlər), bu cür ətlərin yeyilməsi halaldır hətta kəsilən zaman Allahın adının zikr edilib-edilməməsi bizə məlum olmasa da belə. Çünki onların kəsdikləri heyvanların əsli (təməl) halal olmasıdır. Aişə - *radıyallahu anhə* - rəvayət edir ki, bir qrup insanlar Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in yanına gələrək dedilər: "Ya Rəsulallah! Bizə ət yeməyi gətirirlər. Lakin üzərində Allahın adının zikr olunub-olunmadığını bilmirik?". Peyğəmbər: "Bunun üçün siz ***Bismilləh*** deyib, sonra da yeyin". Onlar İslamı yeni qəbul etmiş kimsələr idi. Buxari 2057.

Lakin əgər bu yeməkxanaları Müsəlmanlar və Kitab Əhli deyil, müşriklər, kafirlər və ateistlər idarə edərsə bu zaman orada verilən heyvanların ətindən yemək olmaz. Bil ki, Müsəlmanların və Kitab Əhlinin şəriətə uyğun olaraq kəsdiyi heyvanların ətləri halaldır, hətta bizə onların kəsilmə üsulu bəlli olmasa da belə. O, ki qaldı bizə məlum olan və şəriətə

uyğun olmayan yollarla kəsilən heyvanlara məs: Boğularaq, elektrik cərəyanı ilə vurularaq öldürülən (qanı axıdılmayan) və s. ölü (kəsilmədən ölüb murdar olmuş) leş heyvan sayılır və bu cür ətlərin yeyilməsi haramdır. Bu cür halda heç bir fərq yoxdur bunu müsəlman kəsib, yoxsa kafir. ***"Ölü** (kəsilmədən ölüb murdar olmuş) **heyvan, qan, donuz əti, Allahdan başqasının adı ilə** (bismillah deyilmədən) **kəsilmiş, boğulmuş,** (küt alət və ya silahla) **vurulmuş,** (bir yerdən) **yıxılaraq ölmüş,** (başqa bir heyvanın buynuzu ilə) **vurulub gəbərmiş, vəhşi heyvanlar tərəfindən parçalanıb yeyilmiş - canı çıxmamış kəsdiyiniz heyvanlar müstəsnadır - dikinə qoyulmuş daşlar** (bütlər və ya Kəbənin ətrafındakı bütpərəst qurbangahlar) **üzərində kəsilmiş heyvanlar və fal oxları ilə pay bölmək sizə haram edildi".*** (əl-Maidə 3).

***"Fətava İslamiyyə" 3/414.***

***5. Sual: Buna oxşar bir suala Şeyx Useymin – rahmətullahi aleyhi – nin dedikləri:*** "Kəsilmiş heyvanın üç halı vardır:

1. Biz bilirik ki, kəsilən heyvan şəriətə uyğun olaraq kəsilib. Bu halda bu əti yemək halaldır.

2. Biz bilirik ki, kəsilən heyvan şəriətə uyğun olaraq kəsilməyib. Bu halda bu əti yemək haramdır.

3. Biz şübhədəyik və bilmirik ki, bu heyvan (şəriətə) uyğun kəsilib, yoxsa yox. Bu halda bu cür heyvanın ətini yemək olar və biz mükəlləf (vacib) deyilik soruşmaq və araşdırmaq hansı üsulla bu heyvan kəsilib, kəsilərkən Allahın adı zikr olunub, yoxsa yox. Hətta, Sünnə bizə açıq-aydın göstərir ki, daha yaxşıdır bu haqda soruşmamaq və araşdırmamaq. Aişə - *radıyallahu anhə* - rəvayət edir ki, bir qrup insanlar Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in yanına gələrək dedilər: "Ya Rəsulallah! Bizə ət yeməyi gətirirlər. Lakin üzərində Allahın adının zikr olunub-olunmadığını bilmirik?". Peyğəmbər: "Bunun üçün siz ***Bismilləh*** deyib, sonra da yeyin". Onlar İslamı yeni qəbul etmiş kimsələr idi. Buxari 2057. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in "***Bismilləh***" demək əmri heyvanı kəsməmişdən öncə deyilən ***Bismilləh*** - deyildir. Hədisdən də aydın olduğu kimi heyvan artıq kəsilmişdir. "***Bismilləh***" demək əmri yemək yeməmişdən öncə deyilən ***Bismilləhdir***. Yemək yeməmişdən öncə ***Bismilləh*** demək artıq şəriətimiz tərəfdən təyin edilmişdir. Hətta yeməkdən öncə Allahın adını zikr etmək vacib əməllərdəndir. Buna da Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in açıq-aydın əmri vardır. Əgər insan Allahın adını zikr etməyərək yeməyə başlayarsa şeytan mütləq onun yeməyinə şərik olar. (İbn Abbas - *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "İblis dedi: "Ya

Rəbbim! Yaratdıqlarının içərisində dolanacağı (ruzisi) olmayan bir kimsə yoxdur. Bəs mənim dolanacağım haradandır?". Allah: "Mənim adım zikr olunmayan hər nə varsa sənin (dolanacağındır)" deyə buyurdu. Əbu Nuaym "Hilyə" 8/126). Əgər insan Allahdan qorxub bu cür yeməkxanalarda (ət) yeməyi yeməzsə onda heç bir günah daşımır. Həmçinin bunun əksi də belədir, kim ki, belə bir yerlərdə (ət) yeməyi yeyərsə o, da heç bir günah daşımır".

***"Fətava İslamiyyə" 3/415.***
***"Fətava Ulama Bilədil Haram" 375.***

***6. Sual:*** Hörmətli Şeyx, xarici dövlətlərdən gələn konservləşdirilmiş toyuqlar barəsində nə deyə bilərsiniz?

***Şeyx İbn Baz – rahmətullahi aleyhi - deyir ki:*** "Xarici dövlətlərdə kəsilmiş toyuq və digər heyvanlar Kitab Əhli olan dövlətlərdən konservləşdirilmiş şəkildə bizim dövlətlərə daxil olursa Quran ayələrinə əsasən bu cür ətləri yemək halaldır əgər bizə qadağan olunma səbəbi məlum deyilsə. Məs: Allah üçün kəsilməyib, qanı axıdılmadan (boğazı kəsilmədən) öldürülüb və s. Əgər ət yeməyi kommunistlərin, ateistlərin və müşriklərin dövlətlərindən gələrsə bu cür ətləri yemək haramdır".

***"Fətava İsləmiyyə" 3/16.***

***7. Sual:*** Hörmətli Şeyx, Xarici (kafir) dövlətlərdən tədarük edilən və üstündə - ***halal*** – yazılan ət məhsulları barəsində nə deyə bilərsiniz?

***Şeyx Saleh əl-Fovzan – hafizahullah – deyir ki***: "Mal verənlərin və həmçinin ət məhsullarının üzərində olan ***Halal*** eiketlərinə bel bağlamaq (güvənmək) olmaz. Arxayın olma ki, bütün bu ət məhsulları şəriət normalarına əsasən kəsilib. Əgər diqqət etsəniz çox vaxt bazarlarda boğazı kəsilməmiş (başı yerində) toyuqlar görmək olar. Halbuki onların da üzərində ***Halal*** etiketləri var. Mən özüm ***Halal*** etiketini görmüşəm elə bir ət məhsulunun üzərində ki, ona ehtiyac yoxdur – Balıq. Bu da ona əyani sübutdur ki, ***Halal*** etiketi yalnız alıcını cəlb etmək, malı satmaq və yalan yolla mülk əldə etməkdir".

***"əl-Atima" 165-166.***

***8. Sual:*** Hörmətli Şeyx, Çin dövlətinə köçməzdən öncə eşitmişdim ki, müsəlman bir kimsəyə ateistlərin kəsdikləri heyvanların ətlərini yemək haramdır. Öxuduğum Universitetdə müsəlmanlara aid bir yeməkxana var. Orada bizə ət yeməkləri verirlər. Lakin mən arxayın deyiləm ki, bu İslam dininə uyğun olaraq kəsilib və mən bu cür ət məhsullarının yeyilməsində şübhə edirəm. Mənim dostlarım isə heç bir şübhə etməyərək bu ət məhsullarını yeyirlər. Onlar düzmü edirlər, yoxsa qadağan olunmuş əti

yeyirlər? Həmçinin müsəlmanlarla, qeyri müsəlmanların qab-qacaqlarını da ayırmaq olmur. Bu məslədə mən nə edə bilərəm?

***Şeyx İbn Baz – rahmətullahi aleyhi - deyir ki:*** “Kitab Əhli istisna olmaqla kafirlərin kəsdikləri heyvanların ətlərini yemək olmaz. Bunlar da istər atəşpərəst olsun, istərsə də bütpərəst. Onların hər biri kafirlərdir. Bu ətlərin bulyonu da haramdır, çünki Allah kafirlərin yeməklərini bizə haram etmişdir Kitab Əhlindən başqa. ***“Bu gün pak nemətlər sizə halal edilmişdir. Kitab əhlinin yeməkləri sizə, sizin yeməkləriniz isə kitab əhlinə halaldır!...”*** (əl-Maidə 5). “İbn Abbas – *radıyallahu anhu* – nun dediyi kimi: “***Yemək*** – onların kəsdikləri heyvanların ətləridir”.

O, ki qaldı meyvə və tərəvəzə bu kimi şeylərin istifadəsində heç bir problem yoxdur, çünki onlar qadağan olunmuş yeməklərin içərisinə daxil olmurlar. Müsəlmanların, həqiqi müsəlmanların, Allaha şərik qoşmayan, qəbirlərə ibadət etməyən, nə Peyğəmbəri, nə övliyanı heç kəsi köməyə çağırmayan müsəlmanların yeməkləri həm müsəlmanlara, həm də qeyrilərinə halaldır.

Qab-qacağa gəldikdə isə müsəlmanın ayrıca özlərinə məxsus qabları olmalıdır. Kafirlərin istifadə etdikləri, içərisində içki və yeməklərini saxladıqları qabları yox. Əgər müsəlmanlar bunu bacarmasalar bu zaman kafirlərin istifadə etdikləri qabları yumalı və sonra içərisinə yemək qoymalıdırlar. Əbu Sələbə əl-Xuşani – *radıyallahu anhu* - rəvayət edir ki, bir gün Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – dən: “Ya Rəsulallah! Biz Kitab Əhlinin hakimiyyəti altında olan torpaqlarda yaşayırıq. Onların qab-qacaqlarından yeməkdə istifadə edə bilərikmi?”. Peyğəmbər: “Kitab Əhlinə gəldikdə əgər başqa bir şey tapa bilərsinizsə onların qablarından istifadə etməyin. Əgər tapa bilməsəniz onların qablarını yuyub istifadə edin....”. Buxari 5478.

***“Məcmuu Fətava Va Məqalət” 4/435.***

***9. Sual:*** Hörmətli Şeyx, Qeyri İslam dövlətlərində istifadə etdiyimiz ət, toyuq və balıq məhsulları barəsində şəriət hökmü nədir? Bildiyimiz kimi onlar şəriətə uyğun olmayaraq heyvanları kəsirlər. Biz sadəcə yeməkdən öncə ***Bismilləh*** deyib yesək kifayət edərmi?

***Şeyx AbdurRahman əl-Barrak – hafizahullah – deyir ki:*** “Balığa gəldikdə o, halaldır. Çünki balığın halal olması onun kəsilmə üslubundan və Allahın adının zikr olunmasından aslı deyildir. Şirkətlər və Kitab Əhli tərəfindən tədarük edilən digər ət məhsullarına gəldikdə isə onlar halaldır, əgər onların öldürülmə üslubu - *elektrik cərəyanı, başından küt alətlə vurulması və s. üsullar hansıki Avropa ölkələrində məşhurdur* – məlum deyilsə. ***“Bu gün pak nemətlər sizə halal edilmişdir. Kitab əhlinin***

***yeməkləri sizə, sizin yeməkləriniz isə kitab əhlinə halaldır!..”*** (əl-Maidə 5). Əgər onların yuxarıda qeyd etdiyimiz üsullarla öldürülmə üslubu bəlli olarsa bu zaman bu cür əti yemək olmaz. Artıq ölü (leş) ətdən sayılır. Həmçinin əgər ət məhsulları Kitab Əhli olmayan şirkətlər tərəfindən tədarük edilirsə bu cür əti də yemək olmaz. ***“Üstündə Allahın adı çəkilməmiş heyvanların ətindən yeməyin. Bu, şübhəsiz ki, günahdır. Həqiqətən, şeytanlar öz dostlarına sizinlə mücadilə etmək üçün*** *(çirkin fikirlər və yaramaz əqidələr)* ***təlqin edirlər. Əgər onlara itaət etsəniz, şübhəsiz ki, siz də müşrik olarsınız”.*** (əl-Ənam 121).

Müsəlman bir kimsə hər bir yolla haramlardan və şübhəli şeylərdən çəkinərək öz dininin şərəfini və bədəninin təmizliyini qorumalı, haramla bədənini doldurmamalıdır.

***“Sual və Cavab” 10339.***

***10. Sual:*** Hörmətli şeyx, bazarlarda qeyri müsəlman dövlətlərindən gətirilmiş ət məhsulları satılır. Bu kimi ət məhsullarının hansı üsulla kəsildiyinə baxmadan yeyə bilərikmi?

***Şeyx İbn Baz – rahmətullahi aleyhi - deyir ki:*** “Əgər gətirilən ət məhsulları Xaçpərəst və Yəhudi dövlətlərindəndirsə bunda problem yoxdur. Çünki Allah onların yeməklərini bizə halal etmişdir, onların yeməkləri isə - kəsdikləri heyvanlardır. Bizə qadağan olunma səbəbi məlum deyilsə bu cür kəsilən heyvanların ətlərini yemək qadağan deyildir. Əgər bizə heyvanın öldürülmə üsulu məlum olarsa ki, heyvan boğularaq, küt alətlə başından vurularaq, tapança, elektrik cərəyanı ilə öldürülübsə bu cür heyvanların ətlərini yemək olmaz. Bir çox dəvət əhlindən mənə çatan xəbərlərə görə Amerika və Avropa ölkələrində olan qəssabların çoxu heyvanları şəriətə uyğun olmayan üsullarla kəsirlər. Əgər müsəlman özünü qoruyaraq bu ətlərdən yeməzsə bu onun üçün daha yaxşı və hədisə də uyğun olar. Əbu Abdullah ən-Numan b. Bəşir – *radıyallahu anhu* – rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in belə buyurduğunu eşitdim: “Hər kim bu şübhəli şeylərdən qaçarsa öz dinini və şərəfini qorumuş olar...”. Buxari 52, Müslim 1599. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Səni şübhəyə salan şeylərdən uzaq dur, səni şübhələndirməyən şeylərə tərəf isə yönəl”[31]. Mömin bir kimsəyə vacibdir ki, yemək və içməyində ehtiyatlı olsun. Əgər o, heyvanı alıb özü kəssə bu onun üçün daha yaxşı olar. Həmçinin heyvanı tanıdığı

---

[31] Tirmizi 2520, Nəsəi 5711, əl-Albani “Səhihul Cəmi” 3372-ci hədis. Bu hədisin sonu belədir: Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Həqiqətən doğruluq sakitlikdir, yalan isə şübhədir”.

qəssablardan alarsa hansı ki, heyvanı şəriətə uyğun kəsirlər bu da onun üçün daha yaxşı və təhlükəsiz olar”.

***“Fətava Nuru ad-Darb”.***

***11. Sual:*** Hörmətli Şeyx, günlərin birində öz iş yoldaşlarımı qonaqlığa dəvət etdim. Onlar gəldikdən sonra süfrə açıldı, yeməklər içərisində qızardılmış toyuq da vardı. Qonaqlardan biri: “Bu yerli toyuqdur, yoxsa gətirilmiş”. Mən: “Gətirilmiş” dedim. Bundan sonra o, toyuğu yemədi. Mən səbəbini soruşduqda haram olduğunu dedi. Mən: “Sən bunu haradan götürmüsən ki, haramdır”. O: “Bəzi Şeyxlərdən eşitmişəm” dedi. Xahiş edirəm sizdən bu suala şəriət tərəfdən cavab verəsiniz.

***Şeyx Useymin – rahmətullahi aleyhi - deyir ki:*** “Qeyri müsəlman dövlətlərdən idxal olunan, yəni kəsilmiş heyvanlara Yəhudi və Xaçpərəstlər cavabdehlik daşıyırlarsa bu cür heyvanların ətlərini yemək halaldır və onların necə kəsildiyini, Allahın adının zikr edilib-edilmədiyini soruşmamalıyıq necə ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Xeybərdə Yəhudi qadın tərəfindən verilən qoyun budunu yemişdir. Buxari 2617, Müslim 2190. Həmçinin Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – Yəhudinin verdiyi yeməyi də yemişdir. Halbuki orada qaxsımış yağ vardı. Yağ isə - öz halını dəyişmiş piydir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – onun necə kəsildiyini və Allahın adının zikr olunub-olunmadığını heç soruşmadı. Aişə - *radıyallahu anhə* - rəvayət edir ki, bir qrup insanlar Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in yanına gələrək dedilər: “Ya Rəsulallah! Bizə ət yeməyi gətirirlər. Lakin üzərində Allahın adının zikr olunub-olunmadığını bilmirik?”. Peyğəmbər: “Bunun üçün siz ***Bismilləh*** deyib, sonra da yeyin”. Onlar İslamı yeni qəbul etmiş kimsələr idi. Buxari 2057. Bu hədislərin hər biri dəlildir ki, heyvanın necə kəsildiyi barədə soruşmaq lazım deyil. Bu da şəriətin hikmətindən və asanlığındandır. O, ki qaldı qeyri müsəlman dövlətlərindən idxal edilən, kəsilməsində cavabdehdir məcusilər, bütbərəstlər və s. bu cür ətləri yemək haramdır. Çünki Allah bizlərə kafirlərin yeməklərini yeməyi haram etmişdir, Kitab Əhli istisna olmaqla.

Əgər biz kəsilən heyvanın Müsəlman, Kitab Əhli tərəfindən kəsildiyində ehtmal etsək bu cür əti yeməkdə heç bir problem yoxdur. Fəqihlər deyirlər: “Əgər bizə ət verilsə elə bir yerdə ki, əhalisinin çox hissəsi ətinin yeyilməsinə icazə verilən qrupdandırsa (Kitab Əhli və Müsəlmanlar) bu cür ət halaldır”. Əgər ətin mənşəi və kim tərəfindən kəsildiyi bilinməzsə daha yaxşı olar bu cür əti yeməkdən çəkinəsən.

***“Fətava Uləma Bilədil Haram” 378-379.***

***12. Sual:*** Hörmətli Şeyx, əgər bir kimsə şübhəli şeydən çəkinərək ət yemir, lakin valideyinləri onu yeməyi əmr edirlər. O, kimsə valideyinlərinə itaət etməlidir, yoxsa şübhəli şeydən çəkinməlidir?

***Şeyx əl-Albani – rahmətullahi aleyhi – deyir ki:*** "Vacibdir, valideyinlərə itaət edilsin. İtaət yalnız haram olan şeydə olmaz. Burda isə söhbət yalnız şübhəli olandan gedir".

***"Fətava əl-Albani" 371.***

***13. Sual:*** Hörmətli Şeyx, haradan gəldiyi və kəsilməsi barəsində heç bir məlumatımız olmayan dondurulmuş ət məhsulları barəsində hökm nədir? Xahiş edirik bu sul barəsində bizi maarifləndirəsiniz.

***Şeyx Useymin – rahmətullahi aleyhi - deyir ki:*** "Müsəlman və Kitab Əhli tərəfindən kəsilməsi məlum olana qədər ət məhsullarını yemək olmaz. ***"Bu gün pak nemətlər sizə halal edilmişdir. Kitab əhlinin yeməkləri sizə, sizin yeməkləriniz isə kitab əhlinə halaldır!..."*** (əl-Maidə 5). İbn Abbas – *radıyallahu anhu* – nun dediyi kimi: "***Yemək*** – onların kəsdikləri heyvanların ətləridir". Həmçinin Peyğəmbər – *sallallahu aleyhi və sələm* – Yəhudi qadının gətirdiyi əti də qəbul etmişdir. Əgər kəsilən heyvan Müsəlman, Kitab Əhli tərəfindən gətirilərsə bizim üzərimizə vacib deyil öyrənmək şəriətə uyğun olaraq kəsilib, yoxsa yox və ya Allahın adını zikr ediblər, yoxsa yox. Aişə - *radıyallahu anhə* - rəvayət edir ki, bir qrup insanlar Peyğəmbər – *sallallahu aleyhi və sələm* – in yanına gələrək dedilər: "Ya Rəsulallah! Bizə ət yeməyi gətirirlər. Lakin üzərində Allahın adının zikr olunub-olunmadığını bilmirik?". Peyğəmbər: "Bunun üçün siz ***Bismilləh*** deyib, sonra da yeyin". Onlar İslamı yeni qəbul etmiş kimsələr idi. Buxari 2057.

Əgər siz ətin haradan gəldiyini bilmirsinizsə və ehtimal var ki, bu elə bir ölkələrdən gətirilib ki, onların kəsdikləri heyvanların ətləri bizim üçün qadağandır yemək və ya bizə yeyilməsi icazə verilən ölkələrdən gəlib ət məhsulları bu cür ətləri yemək olmaz".

***14. Sual:*** Hörmətli Şeyx, sualımız şəriətə uyğun olmyaraq kəsilən və Yəhudi və Xaçpərəstlər tərəfindən Allahın adının zikr edilmədən kəsilən ət məhsulları barəsindədir. Belə əti yemək olarmı?

***Şeyx İbn Baz – rahmətullahi aleyhi - deyir ki:*** "***"Bu gün pak nemətlər sizə halal edilmişdir. Kitab əhlinin yeməkləri sizə, sizin yeməkləriniz isə kitab əhlinə halaldır!..."*** (əl-Maidə 5). Bu ayə onu göstərir ki, Kitab Əhlinin yeməkləri bizə halaldır. Əgər bizə bəlli olarsa ki, onlar heyvanları şəriətə uyğun olmayan üsullarla kəsirlər: Boğmaq yolu ilə, elektrik cərəyanı, küt alətlə vuraraq və s. üsullarla bu cür heyvan kəsilmiş sayılmır və yeyilməsi qadağandır. Hətta bu cür üsulla müsəlman

belə heyvanı kəssə yemək haramdır. Lakin əgər bizə kəsilmə üslubu bəlli olmazsa bu zaman ayəyə əsasən bizə yemək halaldır. Biz artıq bu suallara cavab vermişik, götürüb faydalana bilərsiniz.

O, ki qaldı onların Allahın adını zikr etməmələrinə bu da onların cahilliyindən (elmsiz olmalarından) irəli gəlir, bu faktda onların kəsdikləri heyvanların ətlərini qadağan etmir. Müs: Müsəlman bir kimsə unudaraq (heyvanı kəsərkən) Allahın adını zikr etməzsə və ya bu haqda heç bir şey bilmirdisə bu da kəsilən heyvanı haram etmir. Allah buyurur: ***"Ey Rəbbimiz,*** *(bəzi tapşırıqlarını)* ***unutduqda və ya yanıldıqda bizi cəzalandırma!".*** (əl-Bəqərə 286). Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bu ayəni oxuduqdan sonra Allah: "Mən artıq belə etdim" deyə buyurdu. ***"...Etdiyiniz səhvlərə*** *(məsələn, birinin atasını bilmədən səhv saldığınıza)* ***görə sizə günah yoxdur. Lakin*** *(qadağan olunduqdan sonra)* ***qəsdən etdiyiniz işlərdən ötrü günah vardır. Allah*** *(bəndələrini)* ***bağışlayandır, rəhm edəndir!"*** (əl-Əhzab 5). Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Allah mənə görə ümmətimin səhfən, unutqanlıqdan və ya məcburiyyət qarşısında qalaraq etdiyi günahları bağışlayıb".

***"Məcəllətul Cəmiatil İslamiya".***

***15. Sual:*** Hörmətli Şeyx, namaz qılmayan müsəlman Allahın adını zikr edərək heyvanı kəsərsə bu cür əti yemək olarmı? Həmçinin əhalisinin çox hissəsi namaz qılmayanlardan ibarət olan bir ölkədə olsam bu zaman onların bazarlarında satılan ət məhsullarının hökmü nədir?

***Şeyx Useymin – rahmətullahi aleyhi - deyir ki:*** "Namaz qılmayan (müsəlman) bir kimsə tərəfindən kəsilmiş əti yemək halaldır, əgər o Allahın adını zikr edibsə. Bu da namazı (tənbəllik və s.) səbəblərdən tərk edənin (qılmayanın) dindən çıxmadığını deyənlərin rəyidir. Lakin namazı qılmayanın dindən çıxdığını söyləyənlərin rəyinə görə isə bu cür ət məhsullarını yemək olmaz".

***16. Sual:*** Hörmətli Şeyx, əqidəsi bəlli olmayan bir kimsənin kəsdiyi heyvanının ətini yemək olarmı? Həmçinin günahın haram olduğunu bildiyi halda ona izn verən kimsənin necə?

***Şeyx İbn Baz – rahmətullahi aleyhi - deyir ki:*** "Bir kimsənin şirki bəlli olmadıqca onun kəsdiyi heyvanın ətini yemək olar. Əgər müsəlman bir kimsə şəhadət etsə ki, Allahdan başqa ibadətə layiq haqq ilah yoxdur və Mühəmməd onun qulu və Rəsuludur, ondan küfrə aparacaq bir əməl (söz) məlum olmazsa kəsdiyi heyvan halaldır. Lakin bizə məlum olsa ki, həmən şəxs şirkə aparacaq əməl edir: Cinlərə və Ölülərə dua etmək, çətin anlarda onlara dua edib kömək diləmək, bütün bunlar böyük şirkdən sayılır və onun kəsdiyi heyvanı yemək olmaz.

Günahlar günah edən kimsənin kəsdiyi heyvanın ətinin haram olması üçün səbəb deyildir bir şərtlə ki, insan etdiyi günahın halal olmasına etiqad etməsin. Belə bir kimsənin kəsdiyi heyvanların ətləri halaldır əgər şəriətə uyğun kəsilibsə. O, kimsə ki, (müsəlmanların haramlığında ittifaq etdikləri: Zina, içki, sələm) günahların halal olmasına etiqad edir (və ya edilməsinə izn verirsə) belə bir kimsə kafirdir”. (Fayda: Müsəlman bir kimsə onu İslam dairəsindən çıxaracaq bir əməli edərsə, Qazı tərəfindən onun şübhələri aradan qaldırılmadıqca, maneləri dəff edilmədikcə və ona kafir hökmü verilənə qədər müsəlmana tətbiq edilən bütün əhkamlar ona da tətbiq edilir”. “Usulu Va Davabit Fit Takfir” 15,17, “Muğni” 10/85,86, “Umdatul Qari” 19/369).

***“Fətava İslamiyya” 3/417.***

***17. Sual:*** Hörmətli Şeyx, Siqaretin hökmü nədir, müxtəlif növ siqaretlərlə İslam cəmiyyətlərini zəhərləyən kimsələrə nə məsləhət görərdiniz? Sulu qəlyan barədə nə deyə bilərsiniz?

***Şeyx İbn Baz – rahmətullahi aleyhi - deyir ki:*** “Siqaret çəkmək haramdır. Çünki onda bir çox zərərlər vardır və bütün növləri də haramdır. Hər bir müsəlman siqaret çəkməyi tərk etməlidir və siqaret çəkənlərlə birlikdə məclisdə oturmaq da qadağandır”.

***“Macallatul Dauva” 1667.***

***18. Sual:*** Bir çox insanlar çiy ət yeyməyə aludə olublar. İstərdim bunun şəriətdə halal və haram olmaq hökmünü öyrənim.

***Şeyx Munaccid – hafizahullah – deyir ki: “***Bəzi alimlər qeyd edirlər ki, çiy əti yemək məkruhdur (bəyənilmir). Lakin səhih rəy çiy ətin halal olmasıdır, çünki əsli halal olmasıdır və onun yeyməkdə qadağan olunmasına heç bir dəlil yoxdur. Lakin bir şərt var ki, çiy ət yeyən kimsənin sağlamlığına pis təsir etməsin. Əgər pis təsir edərsə bu zaman yeyilməsi qadağan olur. Çünki bədənə zərərli olan hər bir şeyin haram olmasıdır. ***“Özünüz özünüzü təhlükəyə atmayın”.*** (əl-Bəqərə 195).

***“Sual Va Cavab” 1924.***

***19. Sual:*** Hörmətli Şeyx, mən Yaponiya Universitetlərindən birində oxuyuram və bizim Universitetdə müxtəlif yığıncaqlar, forumlar keçirilir. Bütün bu məclislərdə içki də olur. Mən içki içməsəmdə belə bu cür yığıncaqlarda iştirak etməyimdə günah varmı?

***Şeyx İbn Baz – rahmətullahi aleyhi - deyir ki:*** “İçki içən kimsələrlə oturmaq qadağandır və sən onları bu əməlinə görə məzəmmət etməlisən. Əgər onlar sənə qulaq asmasalar onları tər etməlisən bu da Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in sözlərinə uyğun olanıdır: “Kim Allaha və Axirət gününə iman edirsə içki içilən bir məclisdə (stol arxasında)

oturmasın”. İmam Əhməd, Tirmizi. Onlarla oturmaq – onların bu əxlaqsız əməlindən razı qalmaq və onlarla olmaq deməkdir. *“(Ya Rəsulum!)* ***Ayələrimizi istehza edənləri gördüyün zaman onlar söhbəti dəyişənə qədər onlardan üz çevir. Əgər Şeytan*** *(bu qadağan əmrini)* ***sənə unutdursa, xatırlayandan sonra o zalım tayfa ilə bərabər oturma”.*** (əl-Ənam 68). ***“Allah Kitabda*** *(Quranda)* ***sizə nazil etmişdir*** *(bildirmişdir)* ***ki, Allahın ayələrini inkar edildiyini və onlara istehza olunduğunu eşitdiyiniz zaman müşriklər başqa bir söhbətə girişməyənə qədər onlarla bir yerdə əyləşməyin! Çünki o vaxt siz də onların tayı olarsınız. Həqiqətən, Allah münafiqlərin və kafirlərin hamısını Cəhənnəmdə bir yerdə toplayacaqdır!”.*** (ən-Nisa 140).

***“Fətava İslamiyya” 3/447.***

***20. Sual:*** İnsanın ölümünün 40-cı günü Allah bağışlasın və rəhm etsin deyə (yaxınlarının Ehsan olaraq) heyvan kəsib ətini paylamaları, insanları yedirtmələrinin şəriət ilə hökmü nədir?

***Daimi Fətvalar Komitəsi 1981 deyirlər ki:*** “İnsanın ölümünün 40-cı günü Allaha yaxınlaşmaq məqsədilə heyvan kəsmək, ümüd edərək ki, bu ölən üçün bir bağışlanma və rəhmət olar çirkin bir bidətdir. Nə Peyğəmbər – *sallallahu aleyhi və səlləm* –, nə Xəlifələr, nə də səhabələr – *Allah onlardan razı olsun* – bu əməli etməyiblər. Həmçinin ümmətin imamları da bunu etməyiblər. Ümmətin alimlər İcma ediblər bu əməlin dində əslinin olmamasına. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: “Kim bizim bu işimizdə (dinimizdə) ondan olmayan bir yenilik edərsə o, rədd olunandır”. “Kim bizim işimizə uyğun olmayan bir əməl edərsə o (əməl) rədd olunandır”. Buxari 2697, Müslim 1718. Lakin ölən kimsənin adından müəyyən bir vaxt təyin etmədən sədəqə vermək (pul və s.) ilə heç bir problem yoxdur.

***21. Sual:*** Halal və Haram satılan dükanlardan ət məhsulları almaq olarmı? Lakin bir şeyidə nəzərinizə çatdırım ki, hər bir ət məhsulu özünə məxsus bağlamada və soyuducuda saxlanılır. Həmçinin içki satılan mağazalardan ərzaq məhsulları almaq olarmı hansı ki, içki mağazanın müəyyən bölümlərində satılır. Bu mağazaların sahibləri müsəlman deyildir.

***Daimi Fətvalar Komitəsi 13/173 deyirlər ki: “Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun, günah iş görməkdə və düşmənçilik etməkdə bir-birinizə kömək göstərməyin. Allahdan qorxun. Həqiqətən, Allahın əzabı şiddətlidir!”.*** (əl-Maidə 2). Müsəlman bir kimsəyə qadağandır günah olan işlərdə və Allahın qanunlarının tapdalanmasında bir kimsəyə köməklik göstərməsi. Əgər müsəlmanın seçim etmək imkanı

varsa və o, bilsə ki, kimsə yalnız halal olan ilə ticarət edib haram satmaqdan çəkinirsə (donuz, içki və s.) onunla alış-veriş etməsi lazımdır. Əgər bu cür seçim etmək imkanı yoxdursa bu zaman halal və haram qatışmış mağazalardan alış-veriş etməsi icazəlidir, aldığı məhsulun halal olduğunda arxayındırsa". ***"Allahdan** (Allahın əzabından) **bacardığınız qədər qorxun".*** (ət-Təğabun 16).

***22. Sual:*** Kitab Əhlinin və müşriklərin bayramları münasibətilə hədiyyə olaraq müsəlmana verdikləri yeməkləri yeməsi icazəlidirmi?

***Daimi Fətvalar Komitəsi 22/398 deyirlər ki: "***Müsəlman bir kimsəyə qadağandır Kitab Əhlinin və müşriklərin bayramları münasibətilə hazırladıqları yeməkləri yeməsi və bayramları münasibətilə onlardan hədiyyə alması da qadağandır. Bu onunla bağlıdır ki, bayramları münasibətilə onlardan yemək və hədiyyə almaq onların bu adətlərinə hörmət, etimad və onlarla bu bayramda iştirak etməyə dəlalət edir. Bu da dinə fitnələrin və bidətin salınmasına aiddir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Kim bizim bu işimizdə (dinimizdə) ondan olmayan bir yenilik edərsə o, rədd olunandır". "Kim bizim işimizə uyğun olmayan bir əməl edərsə o (əməl) rədd olunandır". Buxari 2697, Müslim 1718. Həmçinin onların əməlinə qarşılıq olaraq bayramları münasibətilə onlara da hədiyyə vermək olmaz"[32].

---

[32] Çox təəssüf ki, günümüzdə bir çox insanlar kafirlərin bayramlarında iştirak etməyi və onları bu bayramları münasibətilə təbrik etməyi tövsiyə edirlər bu qadağan olunduğu halda. ***"Biz** (keçmişdən bəri) **hər ümmət üçün bir şəriət müəyyən etdik ki, ona əməl edərlər...".*** (əl-Həcc 67). Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Kim bir qövmə oxşamağa çalışarsa o, da onlardandır". Əbu Davud 4037, Əhməd 2/50, əl-Albani səhih. İbn Ömər – *radıyallahu anhu* – deyir ki: "Allahın düşmənlərindən onların bayramları zamanı uzaqlaşın". Beyhəqi 18641. İbn Teymiyyə - *rahmətullahi aleyhi* – deyir ki: "Kafirlərə - onların bayramlarının hər hansısa birində oxşamaq (bənzəməyə) çalışmaq insanın onların yalançı əqidələri və adətləri ilə razılaşması deməkdir". O, deyir: "Müsəlman bir kimsəyə kafirlərin bayramları zamanı onların o, günü istifadə edə biləcəklər hər hansı bir şeyi – *yemək, paltar, ətir* - satması qadağandır". İqtida" 229. İbn Qeyyim - *rahmətullahi aleyhi* – deyir ki: "Alimlərin icması ilə kafirləri bayramları münasibətilə təbrik etmək qadağandır". O, deyir: "Bu sanki bir kimsəni içki içməsi, zina etməsi, adam öldürməsi münasibətilə təbrik etmək kimi bir şeydir". "Əhkəmu Əhli Zimmə" 1/441. Şeyx Useymin - *rahmətullahi aleyhi* – deyir ki: "Müsəlman bir kimsəyə qadağandır kafirlərin dəvətini qəbul edib orada iştirak etməyə. Bu onları bayramları münasibətilə təbrik etməkdən daha pisdir. Çünki bu onların bayramlarında iştirak etmək deməkdir". "Məcmuu Fətava Va Rasail" 3/369.

***23. Sual:*** Hörmətli Şeyx, Böyük Britaniyada yaşayan bəzi müsəlmanlar var-dövlətlərini haram və halal yolla qazanırlar. Onlar içki və donuz əti ilə ticarət edirlər. Onların içərisində elələri var ki, onun mülkünün çox hissəsi haram ilə əldə edilmişdir. Bizə icazə verilirmi onlarla ünsiyyətdə olmaq, onların yeməklərini yemək və onların dəvətlərini qəbul etmək? Onların məscidin təmiri üçün verdikləri sədəqəni də qəbul etmək olarmı?

***Daimi Fətvalar Komitəsi 16/181 deyirlər ki:*** "İlk öncə onları dəvət edib, pis sonluqla nəticələnən haram yolla mal yeməkdən (toplamaqdan) çəkindirməlisiniz. Onlara və digər qardaşlara xatırla ki, Allah Qiyamət günü onun sərhədlərini aşaraq haram işlərlə məşğul olanları cəzalandıracaqdır. Onları başlarına gələcək kasıblıqla xəbərdar et! Xatırla ki, dünya nemətləri əbədi deyildir, Axirət isə daha gözəldir. Onlar cavab versələr sizin dində qardaşlarınızdır. Allaha həmd olsun. Onlara tövbə etmələrini və pis əməldən sonra dərhal yaxşı iş görmələrini nəsihət et! Ola bilər ki, Allah onların tövbələrini qəbul edib pis əməllərini yaxşı işlərlə əvəz edər. Bundan sonra sizlər onlarla ünsiyyət qura bilər, onların yeməklərini yeyə bilər və onların sədəqələrini qəbul edib yaxşı işlərdə sərf edə bilərsiniz. Məscid və s. işlər. Çünki onlar tövbə edib, səhflərini başa düşüblər. ***"Sələm*** *(müamilə, faiz)* ***yeyənlər*** *(Qiyamət günü)* ***qəbirlərindən ancaq Şeytan toxunmuş*** *(cin vurmuş dəli)* ***kimi qalxarlar. Bunların belə olmaları: "Alış-veriş də sələm kimi bir şeydir!" – dedikləri üzündəndir. Halbuki, Allah alış-verişi halal, sələm*** *(faiz)* ***almağı isə haram*** *(qadağan)* ***etmişdir. İndi hər kəs Rəbbi tərəfindən gələn nəsihəti qəbul etməklə*** *(bu işə)* ***son qoyarsa, keçmişdə aldığı*** *(sələmlər)* ***onundur*** *(ona bağışlanar).* ***Onun işi Allaha aiddir. Amma*** *(yenidən sələmçiliyə)* ***qayıdanlar cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar!".*** (əl-Bəqərə 275).

***İkincisi:*** Əgər onlar bu qədər xəbərdarlıq və nəsihətdən özləri üçün bir fayda və ibrət götürməyib haram etməyə davam edərlərsə o, zaman sizə vacibdir onları Allah üçün tərk etmək. Onların dəvətlərini qəbul etməyin, sədəqələrini də götürməyin. Bununla siz onların etdiklərinə nifrət və qəzəbli olduğunuzu bildirir, ümüd edərək ki, onlar bundan bir fayda götürüb doğru yola qayıdarlar"[33].

---

[33] Daimi Fətvalar Komitəsi nəsihət edir ki: "Açıq-aydın günah edən kimsələrlə dostluq münasibətləri saxlamamaq, onların dəvətlərini və sədəqələrini qəbul etməmək, bu da onlar üçün bir dərs və ibrət olsun deyə edilir". Lakin haram qazanan bir kimsədən sədəqə almaq əslən qadağan deyildir. Haram yolla qazanan bir kimsədən hədiyyə və pul götürmək icazəlidir. Bu mülk sahibi üçün haramdır, digərləri üçün isə haram deyildir. İmam İbn Munzir – *rahmətullahi aleyhi* – deyir

***24. Sual:*** Hörmətli Şeyx, istehsal zamanı alkoqol qatılan şokoladın hökmü nədir? Lakin bu alkoqol istehsal zamanı buxarlanır. Bunun halı qursağ qatılmış pendirin hökmünə bənzəyirmi?

***Şeyx əl-Albani – rahmətullahi aleyhi – deyir ki:*** "Bu sualı dəqiqləşdirməyə ehtiyac vardır. 1) Alkoqolun qatılma miqdarı nə qədərdir, az miqdarda qatılır, yoxsa çox. 2) Doğrudurmu ki, istehsal zamanı bu alkoqol buxarlanır?

***Sual verən:*** Bəli, Az miqdarda alkoqol qatılır və istehsal zamanı alkoqol buxarlanır.

***Şeyx əl-Albani – rahmətullahi aleyhi – deyir ki:*** "Bu suala əsaslanaraq mən deyirəm ki, biz bu suala dərmanlarla bağlı suala cavab verdiyimiz kimi verəcəyik. Hər birimiz bilirik ki, (günümüzdə) dərmanların əksəriyyətinə spirt qatılır, həmçinin odekolonlar da belədir. Həm dərmanla, həm də şokoladla bağlı suala biz belə cavab veririk: Əgər vəziyyət sənin dediyin kimidirsə bu cür dərman və şokoladları istifadə etmək, satmaq və kafirlərin məmləkətindən gətirmək olar. Lakin İslam dövlətlərində belə şeyləri istehsal etmək qadağandır. Nə üçün belə ayırma? Şübhəsiz dərman şokoladdan daha əhəmiyyətli və mühüm bir şeydir. Çünki şokolad - artıq, dərman isə - birinci yardımdır. Lakin bütün bunlara baxmayaraq biz İslam dövlətlərində spirtli dərmanların istehsalını etməməliyik. Nə üçün? Çünki dərman, istehsal edən kimsədən spirt

---

ki: "Qazancı haram yolla olan bir kəsdən götürmək (pul və s.) icazəlidir. Allah Yəhudilər haqqında buyurur: ***"Onlar** yalana qulaq asanlar və haram yeyənlərdir..."*. (əl-Maidə 42). Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – bunu bildiyi halda öz zirehini Yəhudidə girov qoymuş, Kitab Əhlindən cizyə almışdır. Halbuki onların gəlirlərinin çox hissəsini (mülklərini) donuz alverindən və haram işlərdən idi". "Subus Salam" 2/213. Lakin kim haram olan qazancdan (mülkdən) sədəqə verərsə buna görə heç bir mükafat qazanmaz hətta o, müsəlman olsada belə. Əbu Hureyrə – *radıyallahu anhu* - rəvayət edir ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Şübhəsiz ki, Allah pakdır (və nöqsansızdır) və pak olanı da qəbul edir...". Müslim 1015. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Kim haram yığıb və onu sədəqə olaraq paylayarsa buna görə heç bir mükafat qazanmayacaq və əksinə onun günahının yükünü daşıyacaqdır". İbn Hibban 3216, Şueyb Arnaut, AbdulQadir Arnaut səhih. Lakin bir kimsə İslamı qəbul edərsə və onda haram yolla qazanmış mülk olarsa qoy ondan qurtulmasın. Çünki Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in dövründə səhabələr İslamı qəbul etdikləri zaman Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – onlara haram olan mülkdən qurtulmalarını əmr etməmişdir. Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Allahın qulu İslamı qəbul edərsə və onun İslamı gözəl olarsa o, zaman Allah onun öncədən etmiş bütün günahlarını bağışlayar". Buxari 41.

hazırlamağı, spirti isə üzümü sıxmaqla Xamr hazırlamağı tələb edəcək. Bütün bunlar qadağandır necə ki, Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Allah lənət edib içki içəni, süzəni, satanı, alanı, sıxanı, qarışdıranı, paylayanı, saxlayanı və ondan gələn gəliri xərcləyəni". Əbu Davud, Həkim, "Səhihul Cəmi" 72,1802,5091. Buna görə də spirtli dərmanları hazırlamaq üçün bizlər istehsal etməliyik, istehsal edən kimsə isə lənətlənmişdir. O, ki qaldı kafirlərin dövlətlərindən gətirilən spirtli dərmanlara: Əgər dərmanı çox miqdarda qəbul etmək və ya içmək insanı sərxoş etmirsə icazəlidir. Burada biz sokoladla bağlı suala qayıdırıq. Əgər sual, sənə sual verənin dediyi kimidirsə (yəni: spirt istehsal zamanı şokoladın içərisində) buxarlanaraq yoxa çıxırsa bu zaman şokolad öz halında sərxoş etmir. Lakin mən bir daha xatırladıram: Onları İslam dövlətində istehsal etmək olmaz".

***"Silsila Huda vən Nur" 491.***

***Şeyx Useymin – rahmətullahi aleyhi - deyir ki:*** "Əgər alkoqol hər hansı bir məhsulla qarışaraq öz izini itirirsə həmin məhsul icazəlidir. Odekalon və digər məhsullarda az miqdarda olan alkoqol sərxoş edici olmadığı halda çox istifadə edilsə də belə Xamr sayılmır. Bu məhsul sərxoş edici deyildir. Necə ki, suya bir damcı sidik düşdüyü zaman, su öz halını dəyişmir. Su təmiz olaraq qalır. Həmçinin hər hansı bir məhsula bir damcı alkoqol düşdüyü zaman həmən məhsul halını dəyişmədiyi halda Xamr sayılmır. Bütün alimlər bu məsələni başlıq olaraq: "Sərxoşluğun sərhəddi" adlandırmışlar. Həmçinin sizin nəzərinizə bir çox tələbələrə qaranlıq qalmış bir suala yönəltmək istəyirəm: Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Çox miqdarda sərxoş edən şey, az miqdarda da qadağandır". Əbu Davud 3681, Tirmizi 1865, İbn Məcə 3393. Onlar deyirlər ki: "Az miqdarda olan alkoqol çox miqdarda olan bir şeylə qarışarsa o, da qadağan sayılır". Lakin hədisin mənası buna dəlalət etmir. Mənası: Əgər çox miqdar da olan şey sərxoş edirsə, onun az miqdarı da qadağandır hətta az miqdarda olan sərxoş etməsə də belə. Təsəvvür edin ki, bizdə içki var. Ondan on şüşə butılka içdikdə insanı sərxoş hala gətirir. Lakin bir şüşə butılka içdikdə sərxoş etmir. Bax bu bir şüşə butılka da qadağandır hətta sərxoş etməsə də belə. Bu da hədisin mənasıdır. O, izah deyil ki: "Sərxoş edici başqa bir şeylə qarışarsa o, da qadağan olunur". Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Çox miqdarda sərxoş edən şey, az miqdarda da qadağandır". Əbu Davud 3681, Tirmizi 1865, İbn Məcə 3393[34].

---

[34] Bəziləri də qeyd edirlər ki: "Tərkibində spirt olan istənilən bir şey qadağandır Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – in hədisinə əsasən: Peyğəmbər – *sallallahu aleyhi və səlləm* – buyurdu: "Çox miqdarda sərxoş edən şey, az

# İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT

*“Cəmiul Bəyan” Təbəri.*
*“Cəmiul Əhkəmul Quran” Qurtubi.*
*“Təfsir Quranil Azim” İbn Kəsir.*
*“Teysirul Quranil Azim” as-Sadi.*
*“Muvatta” İmam Məlik.*
*“Ədəbul Mufrad” İmam Buxari.*
*“Fəthul Bəri” İbn Həcər.*
*“Şərh Müslim” İmam Nəvəvi. “Tuhfətul Əvzai Şərh Camiul Tirmizi” MubarakFuri.*
*“Səhih Hədislər Silsiləsi” əl-Albani.*
*“Səhih Cəmius Sağir” əl-Albani.*
*“İrvalul Ğalil” əl-Albani.*
*“İcma” Munzir.*
*“Kəbair” İmam Zahabi.*
*“Camiul Ulumu Val Hikam” İbn Rəcəb.*
*“Subus Salam Şarh Buluqul Maram” İmam Sanani.*
*“Neylul Avtar” Şovkani.*
*“Seylul Carar” Şovkani.*
*“Takfiru Va Davabit” Fovzan.*
*“Şarh Arbain Navaviyya” Həsən b. AbdulHamid Hələbi.*
*“Sahih Fikhu Sunna” Abu Malik Kamal b. Seyd Sabih.*
*“Əhkamu Zabaix” Abdullah Deyləmi.*
*“Vaciz Fikhul Sunna” AbdulAzim b. Badavi.*
*“Mavsuatul Fiqhul Muyassar” Huseyn b. Avda əl-Avayşa.*
*“Fatava Şeyx əl-Albani”*
*“Fatava Şeyx Useymin”*
*“Fatava Şeyx İbn Baz”*
*“Fatava Şeyx Fovzan”*
*“Fatava Lacna Daima”*
*“Fatava Ulama Biladil Haram” Xalid əl-Carisi.*
*"Zədul Məad" İbn Qeyyim.*

---

miqdarda da qadağandır”. Əbu Davud 3681, Tirmizi 1865, İbn Məcə 3393. Həmçinin o, demək deyil ki: “Çox miqdarda olan sərxoş edici, bir şeyin tərkibində olarsa (konfet) bu cür şeyi yemək qadağandır”. Bu da hədisi səhf başa düşməkdir. Bu hədis onu izah edir ki: “Çox miqdarda sərxoş edən, az miqdarda da qadağandır”.